


**Vahid Qazi**

# Qarabağ aynasında Azərbaycan

Redaktor: H. Sabiroğlu

Foto: V. Qazi

2023

İÇİNDƏKİLƏR

Müəllifdən .......... 4

Şahmat taxtasında beysbol. *Soyqırım düşüncələri* .......... 5

Zirzəmidə gecələyən şəhər. *Şuşaya sonuncu səfərim* .......... 11

Azadlıq qiymətinə foto. *Qarabağın ilk qurbanları Əli və Bəxtiyarın xatirəsinə* .......... 14

Boşluqda sallanan ümid .......... 16

Tarkovskinin "Nostalgiya"sındakı Zaur Həsənov .......... 18

Şeyximizin bəyənmədiyi azan sədası dünyanı dolaşır .......... 20

Qarabağ iməciliyi .......... 22

Kerolayn Koks, Yelena Bonner və soyqırım debatları .......... 24

Solovyov, Petruşka və acı Qarabağ həqiqəti .......... 27

Lavrovun dəfnə çələngi .......... 31

25 il keçib, hanı Qarabağ? *Qarabağ mitinqində nələr deyərdim?* .......... 32

Qarabağın açarı .......... 34

Qarabağı pulla almaq .......... 36

Divarın o üzündən gələn səs .......... 39

Şuşa inauqurasiyası, mən və qarğalar .......... 41

Qarabağdan danışmaq yasaqlanır?.. .......... 42

Ofşorda qalan Qarabağ .......... 44

Bədlikdən çıxmaq. *Qarabağ yürüşünə sözardı* .......... 45

İsveçin xarici işlər naziri Ann Lindeyə məktub .......... 46

İsveç Xarici İşlər naziri Ann Lindenin cavab məktubu .......... 46

Bizi dəyişən müharibə .......... 48

Rusiyanın iti, Putinin bülbülü və sair .......... 50

Иван, уходи из Карабаха! .......... 52
Postmüharibə sindromu .......... 54
Xankəndi. *Birinci yazı* .......... 56
Xankəndi. *İkinci yazı* .......... 57
Yurd yerindən sürreal reportaj .......... 60
Yaddaşı silinən şəhər .......... 62
Qarakəndli Anuşun təbəssümü .......... 64
Ağdama yol Bakıdan keçir .......... 66
Xruşşov dövrünün Qarabağ şəhidi .......... 69
Şuşalı foto. *1 mayda Qarabağ düşüncələri* .......... 71
Gəncəsər xatirələri .......... 74
Sevgilisinin məktubunu saxladığım şəhid .......... 76
17 yaşlı Anarın 40 yaşına .......... 79
Sevgi düsturu. *Mübariz İbrahimova* .......... 82
Qarabağ aynasında Azərbaycan .......... 83
Atam məni Stepanakertə futbola aparmadı .......... 87

# Müəllifdən

...Bizim bölgəyə sülh axırıncı erməni sərhəddən yola salınanda gələcək. Qarabağ münaqişəsi 1988-ci ildə azərbaycanlıların Ermənistandan sonuncu deportasiyası ilə başlayıb, ermənilər Azərbaycandan çıxarılanda bitəcək.

Ümumbəşəri dəyərlərə, prinsiplərə sadiq yazar kimi belə fikirləri dilə gətirmək asan deyil. Erməni faşizmi qohum-əqrəbamı, dost-tanışımı qətlə yetirsə də, nəslimi qaçqın ömrü yaşamağa məcbur etsə də, nənəmin, babalarımın qəbir yerini şumlasa da, şəhərimi Xirosima görkəminə salsa da, bunu yazmağı özümə rəva bilməməliyəm. Amma yazı-pozu adamının bir missiyası da həqiqətin məhrəm yerlərinə çəkilmiş örtüyü götürmək, əsl üzünü göstərməkdir. Həqiqət isə budur: Qarabağda erməninin qalması sülh üçün təhdiddir, növbəti münaqişəyə zəmindir – dünyada bu qədər dövlətin Qarabağda müharibə ocağının sönməsini istəməməsi bu həqiqətin çılpaq üzüdür! Ermənistanda azərbaycanlı qalmadığı kimi Azərbaycanda da erməni qalmır – yalnız başabaş dəyişim qalıcı sülhün təminatı ola bilər!

Diqqətli oxucu bənzər fikirlərə kitabı oxuyanda da rast gələcək. Xüsusən də 44 günlük müharibədən sonranın yazılarında.

...Qarabağda işimiz bitməyib, dava hələ uzundur. Demək, Qarabağ mövzulu yazılar da bitməyib, hələ çox yazılacaq.

...“Ruhlar şəhəri. Yurd yazıları” adlı kitabım nəşr olunandan sonra Qarabağa aid başqa yazıları da toplayıb ayrıca kitab halına salmaq qərarına gəldim. Əvvəlki kitaba əsasən Ağdama həsr edilən esse, məqalə, xatirə, gündəlik qeydləri daxil idisə, burada 1991-ci ildən üzü bəri Qarabağ mövzusunda yazdıqlarım cəmlənib.

Bu yazıların bəzilərində Qarabağın tarixinə, onun mən görən çağlarına bələdçiliyimlə səfər edəcək, yurdun xoşbəxt çağlarından pay alacaqsınız, bir qismində onun ən ağrılı günlərində baş verən hadisələrə şahidliyimlə baxacaqsınız, neçə qırıq tale ilə, yarımçıq ömürlə, acı həyatla tanış olacaqsınız. Ovqatdan ovqata düşəcəksiniz. Amma heç bir yazıda nə vaxtsa ümidsiz olduğuma, torpaqların bir gün azad ediləcəyinə inamsız qaldığıma rast gəlməyəcəksiniz! Çünki Qarabağın azad olunması üfüqlərdə belə görünməyəndə, Qarabağ mövzusu toplumun gündəmində lap “cari məsələlər” sırasına düşdüyü zamanlarda da ümidsiz olmadım...

# Şahmat taxtasında beysbol

## Soyqırım düşüncələri

*"Yaddaş ləpirləri" silsiləsindən*

On yaşlı oğlum məktəbdə kağızdan düzəltdiyi ucu şiş, gövdəsi yoğun "qanadlı raketi" bağışlayıb məni 23 fevral "kişilər günü" münasibətilə təbrik elədi. Üstünə Azərbaycan bayrağı çəkilmiş raketin aşağısındakı uzun nərdivan onun nəhəngliyindən xəbər verirdi. Özü də sovetin SS-20 uzaqvuran raketinə oxşayırdı. Urandan alınan o zəhrimarı da əlavə eləyəndə buna atom bombası deyirlər…

Hədiyyəni qəbul etsəm də, 23 fevralın 1920-ci ilin aprelində müstəqilliyimizə son qoyan, 70 il bizi əsarətdə saxlayan, 1990-cı ilin yanvar qırğınını törədən, Qarabağın işğalında ermənilərə kömək edən sovet ordusunun, yəni bizə yad, düşmən bir ordunun yaranma tarixi olduğunu dedim oğluma. Bu naftalin qoxulu "23 fevral bayramı" söhbətinə görə mənim adımdan müəlliminə etirazımı bildirməsini tələb etdim.

Sonra niyə məhz raket düzəltməsiylə maraqlandım. Onunla söhbətdən qısa bir dialoqu olduğu kimi yazıram.

– Niyə ayrı şey yox, raket düzəltdin?

– Xoşuna gəlmir?

– Gəlir. Maraqlıdır.

– Bunun əsli olsa, atarsan Ermənistana?

– Niyə?

– Mən ataram.

– Bilirsən nə qədər şəhər, kənd dağılar onda?

– Dağılsın! Bəs onlar Ağdamı niyə dağıdıblar? Yadına gəlir, bir kaset gətirmişdin, nənəm sağıydı onda, baxıb necə ağlamışdı?

– Sən bu raketi atsan, orda da çoxlu adam öləcək. Analar, atalar, nənələr, babalar, uşaqlar öləcək.

– Ölsün! Xocalıda qocaları öldürəndə, uşaqların gözünə siqaret basanda, qulaqlarını, başlarını kəsəndə yaxşıydı?

Bu sözləri ona mən deməmişdim. 10 yaşlı uşağa deyə bilməzdim… Ev, yol, məktəb, radio, televiziya… O faciənin ağır hənirtisinin gələn vaxtıdır – üç gündən sonra Xocalı qırğınının 18 yaşı olacaqdı.

– Onu eləyənlər başkəsəndi, qatildi, sən də qatil olmaq istəyirsən? Uşaq öldürən, ata, ana öldürən qatil?

"Qatil" sözünü ağzımdan elə çıxardım ki, sanki udmağa hazırlaşdığımın murdar olduğunu bilib qaytarırdım. Bu sözün mənasını tam anlamasa da, pis bir şey olduğunu sifətimdən oxudu. İzah etdikcə fikrə getdiyini gördüm. Sualıma cavab vermədi. Əvəzində məni daha qorxulu sual yaş dəsmal kimi bürüdü: "Evimdə QATİLmi böyüdürəm?"

## Yaddaş cığırı

Otağıma çəkilirəm. Yaddaş hücrələrimin ən dərin qatlarında gizlətməyə çalışdığım qorxunc, ağrılı, yaralı xatirələr yenə boy verir. Onları əlacı tapılanadək dondurulan xəstələr sayaq qoymuşdum ora. Ora gedən yol qaranlıqda səmti görünməyən cığır kimidir.

…Göz bəbəklərimi beynimdəki yaddaş hücrələrinə sarı çevirirəm. Çölümə yox, içimə gedirəm. Beynimin qırışlarını cəngəllikdə yol açırammış kimi yara-yara, əzə-əzə, xırçıldada-xırçıldada keçirəm, hüceyrələri yaş ilbiz kimi üzümə yapışır, damarcıqları hörümcək toru kimi kipriklərimə ilişir… Qaranlıqda öz Qorxuna doğru getmək dünyanın ən qorxulu və əzablı yoludur.

…Ağdam şəhəri Xocalıdan 18 kilometr aralı(y)dır. Xocalı qırğınının səhəri, 1992-ci ilin 27 fevralında Ağdama gəldim, o vaxt hələ buralar sərgərdan ruhlar şəhəri deyildi, diriydi. İşlədiyim qəzetə yazı söz versəm də, heç nə alınmadı, göz görəni əl yaza bilmədi. Gözləri çıxarılmış uşaq, qarnı yırtılmış qadın, burnu, qulağı, kişiliyi kəsilmiş kişi meyitləri gəlməkdəydi…

Ağdam məscidi heç vaxt bu qədər meyiti bir yerdə görməmişdi. Yandırmağa odun, qaynatmağa su, yumağa meyityuyan, kəfənləməyə bez çatdırmaq olmurdu. Şəhər keyimişdi. Key-key yaralı qarşılayır, əsir dəyişirdi. Donuq gözlər Xocalı yoluna zillənir, keyimiş əllər qəbir qazırdı. Şəhərin ağlamağa göz yaşı yoxuydu. Qorxu şəhərin "göz yaşları"nı qurutmuşdu.

Qanqrena olacaq əllər, yerlə sürünən ayaqlar… Can götürüb gecə köynəyində, gizli cığırlarla ayaqyalın qaçan bu adamlar 18 kilometrlik yolu bir neçə gündən sonra qarlı dağlar, meşələrdən dolanaraq beş-beş, on-on gəlib Ağdama çatırdılar. Gördüklərini söz-söz, cümlə-cümlə yox, qırıq-qırıq, heca-heca deyirdilər. Sanki həkim dozası xəstəni şoka salar deyə sistem qoşub, dərmanı damla-damla yeridirdi.

Əsirlikdə nə qədər adam qalmışdı, bilən yox idi. Meyitləri, əsirləri almaq üçün yerli batalyon komandirləri danışıqlar aparır, meyit qarışıq əsirləri dəstə-dəstə alıb gətirirdilər. Əsirlikdən azad olunanlar onlara verilən işgəncələrdən, edilən təhqirlərdən danışırdı. Eşidənlərin canına qorxu ruh kimi girirdi…

Şəhərə Qorxu hakim idi. Düşmən istəyinə nail olmuşdu: kütləvi qorxu, kollektiv sarsıntı baş tutmuşdu. Həmin günlər şəhər tarixinin ən vahiməli anlarını yaşayırdı. Bir il sonra Ağdamın özü – evləri, küçələri, bağları kəsilib, sökülüb, daşınıb, yandırılıb, xarabaya çevriləcəkdi.

## Nifrət xəstəliyi

Bu dava 100 il əvvəl də olmuşdu. Nənəm danışırdı: "Biz uşaq olanda ermənilər çox türk qırıb. O vaxt bizə türk deyirdilər. Onlar bizi hər yerdə öldürürdülər. Arvadların döş gilələrini kəsib sapdan keçirir, təsbeh kimi bizimkilərin səngərinə atırdılar. Buna dözməyib irəli çıxanları da gülləylə vururdular. Adamların belinə qaynar samovar bağlayıb qaçırırdılar…"

Amma nənəm heç vaxt demədi ki, sən də erməniyə nifrət et! Bilirəm, eşitmişəm, ermənilər uşaqlarını körpəlikdən türkə, azərbaycanlıya nifrət hissiylə böyüdür. Bizdə belə olmayıb. Nifrət yaddaşa bağlıdır. Bizim yaddaşımızda nifrət qalmadı. Odur ki, sonra 10 minlərlə Azərbaycan kişisi erməni qızlarını sevdi, evləndi, ailəsinə gətirdi. 100 minlərlə ata, ana, nənə, baba, qohum erməni qızlarını ailəsinə qəbul etdi. Bu qarışıq ailələrdə minlərlə uşaq doğuldu. Bu qədər ayrılan, ölkəni tərk edənlərdən sonra indi də Azərbaycanda 30 min erməni qadını öz

ailəsiylə yaşayır. Bu, rəsmi statistikadır, qeyri-rəsmi lap çoxdur. Məgər nifrət hissiylə qovrulan bir millət bunu edərdimi? Buyurun, azərbaycanlı qızını arvad edən erməni kişiləri göstərin, ailəsinə buraxıb gəlin edən erməni atası, anası, nənəsi, babası göstərin. Mən tək-tüklərdən yox, minlərdən, 10 minlərdən danışıram.

**Ədalət sorağında**

…Serblər Srebrenitsada 10 minədək bosniyalı kişini, oğlan uşağını qətlə yetirib. Müsəlman olduqlarına görə. 1997-ci ildə öz gözlərimlə görmüşəm Bosniyanın tükürpədən xaraba kəndlərini.

…Ruandada 100 gün ərzində 800 minədək insan öldürüldü. Burda insanları məhvetmə sürəti faşist hərbi düşərgələrindəkini beş dəfə üstələyib.

…Bir gecənin içində Xocalı şəhəri Yer üzündən silindi. Ermənilər 613 nəfəri öldürdü, 487 nəfəri şikəst elədi, 1275 dinc sakini – qoca, uşaq, qadını əsir götürüb ağlasığmaz işgəncələr verdi. Azərbaycanlı olduqlarına görə. 150 nəfərin taleyi hələ də məlum deyil. Ölənlərin 106 nəfəri qadın, 63 nəfəri azyaşlı uşaqdır. 8 ailə tamamilə məhv edildi, 24 uşaq hər iki valideynini itirdi. Ölənlərin yalnız 335 nəfəri dəfn edildi. 200 nəfərin ayaqları soyuqdan qanqrena oldu.

Bu hadisələr tarixin hansısa uzaq əsrlərində deyil, 1990-cı illərin əvvəlində baş verib, BMT-nin 50, ATƏT-in 20 yaşı olanda. İki dünya müharibəsindən sonra sivilləşən, humanistləşən dünyanın gözü qarşısında.

Ruandada, Bosniyada baş verən hadisələrə siyasi qiymət verildi, bu qırğınları törədənlərə soyqırım iddiasıyla məhkəmə quruldu, cəzalar verildi. Xocalı qətliamını törədənlərə isə yox! Əksinə, həmin vaxt separatçıların lideri olmuş Robert Köçəryan əvvəl Ermənistanda baş nazir oldu, sonra prezident seçildi. Xarici ölkələrdə qəbul edildi, BMT kürsüsündən demokratiya, insan hüquqlarından söz açdı. Avropa Şurası Parlament Assambleyasında etdiklərindən qəhrəman kimi fəxrlə danışdı. Həmin dövrdə Qarabağdakı erməni ordusunun başında duran, bu qətliama başçılıq edən Serj Sərkisyan da əvvəl baş nazir idi. İndi Ermənistanın prezidentidir. Görün o, “Qara bağ” adlı məşhur kitabın müəllifi, britaniyalı jurnalist Tomas de Vaalla söhbətində Xocalıda dinc sakinlərə qarşı genosid cinayətinin törədilməsini necə “səmimi və qəddarcasına” (ifadə T. De Vaalındır) etiraf edir: “Biz belə seylər haqda yüksəkdən danışmırıq… Bu məsələ çox şişirdildi… Amma onu da deyim ki, Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu təsəvvürü alt-üst etdik”[1].

Kütləvi qorxu yaratmaq üçün törədilən cinayət bir qrup quldurun əməli yox, uzaq məqsədlərə hesablanmış siyasi qərardır. Vahimə yaratmaq, qorxutmaq, qovmaq, etnik təmizləmə aparmaq, boşaldılan ərazilərdən sahiblərinin izini silmək və “qədim” erməni torpağını “bərpa” etmək…

Çoxlu, lap çoxlu erməni torpağı yaratmaq və onu üç dənizə qədər genişləndirmək. 1919-cu ildə Paris Sülh Konfransında ermənilərin iddia etdikləri torpaq Xəzər, Qara və Aralıq dənizlərini əhatə edirdi[2]. Bu gün də bu iddiadadırlar. 3 milyonluq əhalisi olan Ermənistan 300 milyondan artıq insanın yaşadığı əraziyə iddia edir. 3 milyonluq monqol xalqının indi 3 milyarddan çox insanın yaşadığı, vaxtilə Çingizxanın yaratdığı imperiya ərazilərinə iddia etməsi daha məntiqli görünməzmi?

**Soyqırım – müasir siyasi oyun qaydası**

2010-cu il martın 4-də ABŞ Konqresi Nümayəndələr Palatasının xarici əlaqələr komitəsi 1915-ci ildə Osmanlı imperiyasında ermənilərə qarşı aparılan siyasəti rəsmi olaraq erməni soyqırımı kimi tanımaqla bağlı qətnamə qəbul elədi. Türkiyənin bütün çabalarına rəğmən ABŞ Konqresində bu addım atıldı, ola bilsin, növbəti mərhələdə bu proses dayandırılsın, amma prinsip etibarilə bu, heç nəyi dəyişmir. Siyasətin, Zbiqnev Bjezinskinin "şahmat" oyunu çoxdan başlayıb.

Vaşinqtona son səfərimdə dostum İrena Lasota mənə Günter Levinin "Osmanlı Türkiyəsində erməni qırğını: mübahisəli soyqırım" (Guenter Lewy. The Armenian Massacres in Ottoman Turkey: A Disputed Genocide) kitabını bağışlamışdı. Həmin kitabda müəllif yazır ki, ermənilərin Şərqi Anadoludan deportasiyası soyqırım siyasəti yox, müharibə dövründə düşmənlə separat işbirliyinin, üsyanların, türklərə edilən qətliamların qarşısını almaq məqsədi güdüb. Qətllər soyqırım xarakteri daşımayıb, çünki onları hökumətin təşkil etdiyi sübuta yetirilməyib: "Deportasiyanın həqiqətdə Türkiyə ermənilərinin qabaqcadan düşünülmüş plana əsasən qırmaq məqsədi daşıdığı bir çox aspektlərə və köçürmənin xüsusiyyətlərinə uyğun gəlmir".

Məsələ orasındadır ki, Rusiyaya sərhəd bölgələrdə, şərqi və mərkəzi Anadoluda yaşayan ermənilər köçürülüb. İstanbul, İzmir və Hələb kimi şəhərlərdən ermənilər deportasiya edilməyib. Ölkənin dəmiryolu olmayan şərq rayonlarından piyada köçürmə zamanı yolda ölənlər heç bir vəchlə soyqırım prinsiplərinə uyğun deyil. "Osmanlı hökuməti nizamlı proses təşkil etmək istədi, ancaq onu həyata keçirmək üçün vasitəsi yox idi".

Başqa bölmədə o, Çarlz Dovset və Malkolm E.Yapp (Charles Dowsett, Malcolm E.Yapp) kimi tarixçilərin mənbələrinə, ABŞ-ın Paris Sülh Konfransında Yaxın Şərq üzrə rəsmisi Corc Montqomerinin (George Montgomery) cədvəllərinə, həmçinin İstanbuldakı Erməni Milli Şurasının rəqəmlərinə əsaslanaraq sübut edir ki, həmin dövrdə ölənlərin sayı iddia edildiyi kimi, milyon yarım yox, 642 min olub. "Həmin dövrdə heç bir ölüm statistikası mövcud deyildi".

Bu kitabda ən vacib məqamlardan biri də Henri Morgentaunun məktublarıdır. 1912-ci ildə Vudro Vilsonun prezident seçkiləri kampaniyasına rəhbərlik etmiş Henry Morgenthau 1913-cü ilin noyabrından 1916-cı ilin fevralınadək İstanbulda ABŞ-ın səfiri olmuş, eyni zamanda, Türkiyə ilə müharibə aparan Antantanın marağını təmsil etmişdi.

Morgentau ABŞ dövlətinin müharibə siyasətində qələbə çalmasına yardım etmək üçün öz təklifini prezident Vilsona 1917-ci il noyabrın 26-da yazdığı məktubla bildirir. Burada Morgentau müxalifət və müharibəylə bağlı ümidsizliyini ifadə edir və bu vəziyyətdə dəyişiklik yarada biləcək bir kitab dərc edə biləcəyini yazır:

"Elə bir kitab yazmaq istəyirəm ki, təkcə Almaniyanın Türkiyə və Balkanlara nüfuz etməsini deyil, eyni zamanda dünyanın istənilən ölkəsində meydana gələn bu tipli sistemi faş edə bilim. Türkiyəyə gəldikdə, burada biz Almaniyanın ən zəhərli halda ziyanlı təsirini görürük – bu isə yaşından asılı olmayaraq hər bir kəsin qətlə yetirilməsində, köməksiz erməni və suriyalıların dəhşətli şəkildə öldürülməsində kulminasiya nöqtəsinə çatdı. Bu əhvalatın belə bir ayrıca detalı və Almaniyanın bu işi təşviq etməsinə gəlincə, düşünürəm ki, kiçik şəhərlərdə və rayonlarda yaşayan amerikalılara müraciət onları nəticəsi qələbə olacaq müharibə aparmaq siyasətinə inandırmağın ən uğurlu vasitəsi olardı"[3].

Burada erməni qırğınlarının miqyası və mahiyyəti qəsdən təhrif olunur. Türkiyənin, xüsusilə Almaniyanın düşmən obrazı ABŞ hökumətinin okeanın o tayında müharibə siyasətinə bəraət qazandırmış olur.

Təklif qəbul edilir və sonralar ermənilərin erməni soyqırımına görə istinad edəcəkləri əsas sənəd 1918-ci ildə "Səfir Morgentaunun xatirələri" ("Ambassador Morgenthau's Story") adlı kitab şəklində nəşr edildi. Onun bu təklifi sonralar başqa ölkələrə münasibətdə də təzyiq siyasəti kimi istifadə olunan yeni üsula, "soyqırımı" terminli siyasi oyun alətinə çevrildi.

**Erməni elmi**

"Armenianew.com" saytı yazır ki, Ermənistanın Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutu ermənilərin genetik tərkibini öyrənmək üçün elmi tədqiqatlar aparır. İndiyədək 2500 erməni bu tədqiqata cəlb olunub. DNT testi pulsuzdur. Hökumət bu elmi tədqiqat üçün adambaşına 30 min dram (81 dollar) ayırır. İdeyanın müəllifi və institutun professoru Levon Yepiskoposyan güman edir ki, belə təcrübələr sayəsində ermənilərin tez-tez təhrif edilən genetik təkamülünü və soy tarixini bərpa etmək mümkün olacaq. "Bizim üçün çox vacib olan belə bir qənaətə gəlmişik ki, ermənilər Sünik əyalətində və Dağlıq Qarabağda şüurlu insan görünməyə başlayandan, yəni 40-50 min il əvvəldən yaşayır. Belə tədqiqatlar qonşu Azərbaycanda və Gürcüstanda aparılmır, çünki bu millətlər kifayət qədər homogenous, yəni yekcins deyil"[4].

Ermənistan dövləti bu tədqiqata milyonlarla pul ayırır ki, Xocalı Holokostunu, Ağdam Xirosimasını törətdiyi ərazilərdə 40-50 min il əvvəl ermənilərin yaşadığını sübut etsin. Mənim genetik yaddaşımsa deyir ki, 40-50 min il əvvəl bu ərazilərdəki məxluqlar hələ təzə-təzə bellərini düzəldib dik gəzməyi öyrənirdilər.

**Bizi erməni qızdırmasıyla xəstələndirməyin!**

…Xocalının qisası Ermənistanda başqa bir "Xocalı qırğını" törətməklə alına bilməz. Bu qırğının baiskarları ədalət məhkəməsinə veriləndə (Nürnberq məhkəməsi kimi) və bu faciəyə görə erməni ziyalıları, sonra da bütün erməni xalqı səmimi şəkildə təəssüf və xəcalət çəkəndə (Holokosta görə xəcalət çəkən almanlar kimi) məsələyə son qoyulacaq.

…Ədalətin bərpa olunması düşmənə nifrətdən yox, Qarabağa sevgidən keçir. Nifrət, kin bir hiss olaraq ilk növbədə onun bəsləndiyi obyekti yox, öz mənbəyini – insanın özünü məhv edir. İnsanı içindən yeyir, adamı insanlıqdan çıxarır. Nifrət insan mənəviyyatını korlayır, onu obyektivlikdən uzaq, rasional düşüncədən məhrum edir.

…Dünyada körpə qəlbində nifrət əkmək, bu nifrəti illərlə becərmək, ondan qatil yetişdirməkdən ağır günah tanımıram. Belə bir cinayətə bəraət verən qanun və belə bir günahı bağışlayan din də tanımıram.

…Tibbdə adına "dövri erməni xəstəliyi" deyilən bir xəstəlik var. Ərəb, yəhudi, bəzən türklər kimi Yaxın Şərq xalqlarına şamil edilsə də, adı ermənilərlə bağlıdır. Adətən qarın boşluğunda ağrılar yüksək hərarətlə müşaiyət olunur. Amma mən "erməni nifrəti" adlı başqa bir xəstəlik də tanıyıram. Bunu yalnız onlarla qonşuluqda yaşayanlar bilir. Epidemiya səviyyəsinə çatmış bu xəstəliyin yayılma təhlükəsi var, mən belə bir virusun bizə də keçməsini istəmirəm. "Nifrət xəstəliyini", bu virusu canımıza salmayın!

Məni eşitsəydilər martın 4-də ABŞ-da qətnaməyə səs verən konqresmenlərə deyərdim: “Henri Morgentau siyasətindən başlayan yalana inanmayın. Ədalət siyasətin yanında olmur. Ədalət vicdanın içindədir. Biz 1915-ci ilin erməni qırğınına da, 1992-ci ilin Xocalı qırğınına da ədalət istəyirik. Nə qədər ki, NİFRƏT bizim də canımızda xəstəliyə çevrilməyib, gen daşıyıcımız olmayıb, qurun bu ədalət məhkəməsini! Bəşəriyyətin gələcəyi naminə qurun! Baxmayın türk olmağımıza, dinimiz islamdır deyə uzaq durmayın! Bizi xəstələnməyə qoymayın!”

***

Oğlumun yanına qayıtdım. Nə fikirləşdiyini bilmədim, heç soruşmadım da. Hədiyyəsini götürüb kitab rəfinə, göz qabağına qoydum. Talisman kimi bizi NİFRƏT xəstəliyindən qorusun deyə…

Qoruyacaqmı?

23 fevral, 2010

*QEYD: Esse ingilis, türk. rus və İsveç dillərinə tərcümə olunaraq yerli və xarici mətbuatda dərc edilib.*

---

1. Thomas de Waal. “Black garden”, p. 172. New York University, 2003 (Tomas de Vaal. “Qara bağ”)

2. Xəritəyə bax: http://www.jdemirdjian.com/Armenians/Armenians/Armenians_1.htm

3. Guenter Lewy. “The Armenian Massacres in Ottoman Turkey: A Disputed Genocide”, p. 140. The University of Utan Press, 2005

4. Burda oxu: http://www.armenianow.com/news/21032/armenian_genetic_history

# Zirzəmidə gecələyən şəhər

*Şuşaya sonuncu səfərim*

Ağdam aeroportunda iynə atsan yerə düşməzdi. Evlərinə qayıtmaq istəyənlər Şuşaya, Qarabağın başqa qəsəbə və kəndlərinə gedən döyüşçülərə qarışmışdılar. Vertolyotlar yardıma ən çox ehtiyacı olan kəndlərə uçurdular. İlk növbədə hərbçilər yola salınırdı.

Bir-iki günə vəziyyətin ağırlaşacağı xəbəri öz işini görmüşdü, adamlar təlaş içindəydilər. Rus hərbçiləri hərbi texnikaları ilə birlikdə ermənilər yaşayan məntəqələrə çəkilmişdi. Hər cür hadisə gözləmək olardı. Uzaqdan top, raket səsləri ara vermirdi. Qaradağlı kəndinə uçmaq daha təhlükəli idi. Erməni gülləri hər an vertolyotlara dəyə bilərdi. Malıbəylidən gələn vertolyotun pərindən vurulması uçuş qorxusunu birə beş artırmışdı. Odur ki, artıq Malıbəyliyə uçuş dayandırılmışdı.

Axşama yaxın vertolyotla altı yaralı gətirdilər. Danışmağa heyini hələ itirməyən Mütəllim Əhmədovdan bunları öyrəndim: "Kərkicahanda vəziyyət çox ağırdı. Dörd tərəfdən hər cür silahla bizə atəş açırlar. Dekabrın 14-də kəşfiyyata getmişdik. Mühasirəyə düşdük. Atışma xeyli çəkdi. 4 erməni öldürdük. Özümüz də yaralandıq. Bizi atası, anası erməni olan "metis"lər satır. Belələrini öldürmək lazımdı. Özü də bu, birinci dəfə deyil. Onlar hər yerdə casusluq edirlər ermənilərə, lap Bakının özündə də… Son günlər 70-ə yaxın "boyevik" öldürmüşük, amma elə bir ucdan gəlirlər".

Ertəsi gün Şuşaya uça bildim. Qarabağın çölləri, dağları qarla örtülmüşdü. Alnımı vertolyotun illüminatoruna dirəyib aşağı baxırdım. Bu yüksəklikdən hər yan ovuc içi kimi görünürdü. Aşağıdakı torpaqlar oğlundan imdad diləyən əsir anaya bənzəyirdi. Ürəyim ət parçası yox, sanki bir topa laxta qan yığını idi.

Şuşa – qarlı dağlar arasında tənha, paytaxtından aralı qərib şəhər. Son üç ildə qayalarının üzü bir qat da qırışıb, rəngi bir çalar da qaralıb. Səni heç belə hüznlü, biganə görməmişdim, Şuşam mənim!

İlk getdiyimiz yer milis şöbəsi oldu. Əsgərlik dostum Əli Əliyev ezamiyyə vərəqinə möhür vurdurmalı idi. Əli Xüsusi Təyinatlı Milis Dəstəsində vuruşurdu. Belə təhlükəli səfərdə məni tək qoymamaq üçün komandiri Faiq Baxşəliyevdən icazə almışdı.

Milis şöbəsində öyrəndik ki, iki gündür Şuşaya qaz gəlmir. Dekabrda Şuşada qazsız qalmaq zülm işdir. Bir də bu gecə güclü hücum gözlənilirdi. Şər qarışırdı. Komendant saatına düşməmək üçün şöbədən çıxıb gecələməyə Əlinin tanışıgilə getdik.

Qədirin evi buz kimi idi. İki körpə balası məni, çiyni avtomatlı Əlini görəndə sevindiklərindən atılıb düşürdülər. Uşaqların səsi evi başına götürmüşdü. Bayırda isə sakitlik idi.

Axşam yeməyindən sonra beş yaşlı Zamit Əlini sorğu-suala tutdu: "Əmi, heç erməni öldürmüsən? Onlar top atanda sən də "padvala" düşəssən? Mən heç ermənidən qorxmuram. Atam deyir ki, ermənilər qorxaq olur, eləmi? Sənin avtomatın məndə olsa, gedib Vazgeni öldürərəm!"

Beş yaşlı uşağın yaşantılarını dinc dövrün bəlkə də əlli beş yaşlısının illərinə paylamaq olardı. Amma bu uşaq yaşadığı günlərin, saatların fərqində deyildi, qürurlu idi, hələ qürurun nə olduğunu bilməsə belə. O sevinirdi. Sevinirdi ki, əli avtomatlı bir əmi gəlib onlara. O inanırdı ki, bu əmi onları qoruya bilər.

Bayırda sakitlik idi. Televizorda Məmməd Arazla görüşü göstərirdilər.

Ev sahibi Şuşanın son günlərdəki vəziyyətini dərdli-dərdli danışırdı. O deyirdi ki, məktəblər bağlanıb, uşaq bağçasına heç kəs uşaq qoymur, ermənilər qaz kəmərini partladıb, gecələr sübhədək top atırlar, hamı öz evinin zirzəmisində gecələyir.

Bir azdan doğrudan da top, raket və avtomat səsləri gecənin sükutunu pozdu. Əvvəl bu səslər tək-tək gəlirdi. Sonra get-gedə artmağa başladı, partlayış səslərinin hesabı itdi. Evin zirzəmisində balaca Zamit atasına qısınıb bir az sonra yuxuya getdi.

Artıq neçə gecə idi ki, Şuşa camaatı zirzəmilərdə gecələyirdi. Mərmi partlayışlarından qorunmaq üçün zirzəmidən təhlükəsiz yer yoxuydu. Gecələdiyimiz zirzəmi sallaqxana soyuducusundan da betər idi. Bayırda isə atışma ara vermirdi. Bizimkilərin atəşi yaxından açıldığı üçün ermənilərinkilərdən seçilirdi. Sən demə, güllənin də yadı, doğması olarmış. Doğma güllə! Bağrına basılası, öpüb göz üstünə qoyulası güllə! Doğma güllələrin gətirdiyi sevinci yaşadım o gecə, yad güllələrin qorxunc sədaları ilə birlikdə.

Öyrəşəndə mərmi səsi zirzəmidə adamı qorxutmur. Adama qorxu bu səs kəsiləndə gəlir. Sakitlikdə çöldə nə baş verdiyini bilmirsən – bəlkə elə düşmən şəhərə dolub?.. Özümü nə qədər tox tutsam da, yəqin üzümdəki təlaşı görübmüş, ona görə Əli ovuclarını bir-birinə sürtüb ev yiyəsinə "İçməyə nəyin var?" dedi.

Həmin gecə ev yiyəsinin zirzəmidə açdığı süfrə, süfrədəki gözdən alov çıxaran tut arağı, palıd boçkasında qoyulmuş kələm şorabası dadımıza çatdı.

Səhərə yaxın güllə səsləri yavaş-yavaş azaldı. Biz zirzəmidən çıxanda atışma səsi xeyli uzaqdan gəlirdi. Şəhərdə adamlar üçbir, beşbir yığılıb axşamkı atışmaların nəticələrini saf-çürük edir, bizimkilərin əks cavablarından danışırdılar. Bir neçə ev dağılmışdı. Ölən, yaralanan yox idi, amma hamının üzündən nigarançılıq, təlaş süzülürdü.

Keçmiş raykom binasında əli avtomatlı əsgərlər bizi içəri buraxmadılar. Şəhərin rəhbəri Mikayıl Gözəlov qətlə yetiriləndən sonra ciddi rejimə keçmişdilər. Çox gecikmişdilər. Şuşa camaatı Mikayıl Gözəlovdan sonra sınmış kimi görünürdü, "Şuşalıların kisəsindən getdi" deyirdilər. Danışırdılar ki, onu öldürən tutulub. Amma mən xalqına sahib durmaq istəyən başqa adamların müəmmalı qətlləri kimi, bu ölüm işinin də açılacağına inanmıram. Çünki bu sirli qətllər hadisələri idarə edən naməlum əllərlə törədilib. Elə bu naməlum əllər da neçə-neçə qatı erməni cinayətkarını aç-burax edib və etməkdədir.

…Cıdır düzünə çıxan yolun üstündə bir dəstə adam vertolyot gözləyirdi. Amma vertolyotun gələcəyinə ümid çox az idi. Cıdır düzü erməni güllələrini öz qoynuna sıxıb Şuşaya keçməsinə imkan vermirdi. Burada atlar əvəzinə güllələr yarışa çıxmışdılar. Vertolyot belə yerə düşə bilməzdi. Ağdama qayıtmaq üçün yeganə əlac Laçın yoluyla getmək idi.

"Zastav" deyilən yer Şuşanın çıxacağında, Laçın yolunun üstündədir. Neçə il 1 may bayramında atam bizi Şuşaya gətirər, hər dəfə də "Zastav" pavilyonunda qonaqlıq verərdi. İndi buralar tamam dəyişib. Laçına gedəcək maşını gözləyirdik. Daşaltı kəndi tərəfdə döyüş

gedirdi. Döyüşə gedən əsgərlərdən eşitdik ki, atışma gecədən davam edir. Əməliyyatın bu qədər uzanmasına səbəb o imiş ki, bizimkilərin əməliyyat planından ermənilərin əvvəlcədən xəbəri olubmuş. Satqınlıq söhbəti burda da aktual idi. Əsgərlər deyirdilər ki, qarışıq ailələrdən olanlar şəhərdən çıxarılmasa satqınlıq bitməyəcək.

Nəhayət, Laçına maşın düşdü. Şuşadan aralandıqca atəş səsləri azalırdı. Sürücü jurnalist olduğumu və bu yerlərə gəlməkdə məqsədimi biləndə gördüyü, eşitdiyi hadisələrdən həvəslə danışırdı.

Maşın dağların arasıyla ilan kimi uzanan dar, sürüşkən yollarla gedirdi. Zarıslı kəndi arxada qalmışdı. Sürücü Məhərrəm dörd ildə bu yollarda baş verən hadisələrin yerini göstərir və ətraflı məlumat verirdi: “Bax, bu körpünü görürsən, rəhmətlik Salatını burda öldürüblər. Odey, o da Qaladərəsi. Ermənilərin sursat anbarı bu dərədəydi. O tərəfdə isə Kirov kəndidi”.

Yolun sağındakı təpədə Salatınkənd yerləşir. Orada əvvəllər ermənilər yaşayırdı. İndi bu kənddə azərbaycanlılar məskunlaşıb. Yoxsa Şuşa camaatının gediş-gəlişi müşkülə dönmüşdü.

“Bax, bu yerdə Laçın xalq cəbhəsinin üzvü Rza Sadıqov öldürülüb. Allah rəhmət eləsin, cəngavər oğlanıydı” deyə sürücü nəhəng bir qayanı göstərdi. O danışırdı ki, Qaladərəsi boşaldılandan sonra əvvəllər burada yaşamış ermənilər rus hərbçiləri ilə gəlib evlərin tavanlarında, zirzəmilərində gizlətdikləri yüzdən çox avtomat, pulemyot aparıblar. Bizimkilərin isə elə bu kənddən tapdıqları silahı hərbçilərə təhvil vermələrini də yanıqlı-yanıqlı o söylədi.

Laçında maşından düşəndə günortadan xeyli keçmişdi. Laçınlı dostumuz İlhamın köməyilə maşın tapıb küllü Qarabağın başına dolanan yola çıxdıq.

Dağların səmaya açılan qoynunda az qala göylərə yerləşməyən şəhəri balaca zirzəmiyə sığan görmək nə qədər kədərliydisə, elə o qədər kədər dolu duyğularla yarım saatlıq Şuşa yolunu bir günə qayıtdım. Ağdama çatanda gecədən xeyli keçmişdi, hər yan qaranlıq idi, ürəyimə çökmüş qaranlıq kimi.

24 dekabr 1991

# Azadlıq qiymətinə foto

*Müstəqilliyə aparan yolun ilk qurbanları Əli və Bəxtiyarın xatirəsinə*

Ömrün ayrı-ayrı anlarına güzgü tutan xatirələrimiz kolleksiyaçıların topladığı bahalı əşyalar kimidir. Onları pulumuz, vaxtımız hesabına, bəzən də lap həyatımız bahasına “alıb” xatirələr muzeyinin eksponatına çeviririk. Elə-belə, “müftə” olanı, “nəfə” qalanları daha çoxdur, beləsindən danışmıram.

Şirinli-acılı min-min xatirənin içində ən yadda qalanı ən “baha” alınanıdır. Xatirələrin dəyəri ona çəkilən “xərc”i gözəyarı da olsa qiymətləndirəndə bilinir. Bunu hər kəs hesablaya bilər.

Bax, mən Rumıniyanın Braşov kurort şəhərində dostların fantastik məbləğ deyib imtina elədikləri bir gecəlik xatirə üçün cibimdəki pulun, yalan olmasın, hamısını xərcləmişdim.

Ağdamdan Şuşaya qalxanda vertolyota dəyən güllənin doğurduğu xatirə lap “baha çıxmışdı” – bütün ömrə çatası qorxunu bir neçə dəqiqədə “israf” eləmişdim.

Krımda dağ başındakı Çufut-Kala muzey-şəhərinin sehrinə düşmək üçün isə qızıl kimi neçəsə saatımdan keçmişdim.

Amma bu yazıda öz xatirələrimdən yox, başqa birinin hələ 24 il əvvəl bir ətək pul töküb aldığı fotosunun yaşatdığı xatirədən söz açacam.

***

Uzun illər öncə bir çex dostum Milan Kunderadan yerlisi kimi fəxrlə danışanda, onun eyni adlı əsəri əsasında çəkilmiş “Varolmanın dözülməz yüngüllüyü” filminə baxmağı tövsiyə edəndə heç ağlıma da gəlməzdi ki, orda cərəyan edən siyasi hadisələr bir vaxtlar Ağdamda yaşadığımız olayların oxşarıymış. İllər uzunu heç bir kanalda rastlamadığımın səbəbini dünən bir də baxanda bildim – filmin xeyli erotik səhnələri də varmış.

Bu yazının ərsəyə gəlməsinə səbəb internetdə baxdığım həmin filmdəki bir epizod oldu – xüsusi xidmət orqanı əməkdaşları 1968-ci ilin məşhur Praqa nümayişlərində iştirak edənləri çəkilən foto və videolardan müəyyən edib tuturdular.

Çexoslovakiya lideri Dubçekin siyasi islahatları, cəmiyyətin liberallaşması insanlarda SSRİ-dən asılılığı azaltmağa, azadlıqların bərqərar olmasına ümid yaratmışdı. Çox çəkmədi, ümidlər “Brejnev doktrinası” ilə 300 min əsgərin çəkməsi, 7 min tankın tırtılı altında qaldı.

Praqanın qanlı baharı 20 il sonra, 1988-ci ilin fevralında Ağdamda təkrarlandı.

Sabahın dalğası dərya dərinliklərində bu gün toparlanır. Ağdamda minlərin başladığı mitinq sonra Bakıda milyonların etiraz dalğasına çevrildi.

Həmin ilin 21 fevralında Ağdamda müasir Azərbaycan tarixinin ilk etiraz mitinqi keçirildi. Səhəri gün Stepanakertə sarı izdihamlı yürüş qərarı da elə o mitinqdə verildi.

Eynən Praqadakı kimi burada da yürüşün qarşısına sovet-rus ordusu çıxdı. Azərbaycanın müstəqilliyi ilə sonuclanacaq yolun başlanğıcında ilk qurbanlar Əsgəran qalası yaxınlığında verildi – Əli, Bəxtiyar öldürüldü, Sahib Şükürov, adını bilmədiyim neçə-neçə adam yaralandı.

Yürüş silah gücünə dayandırıldı! Etiraz səsləri batırıldı! Arxasınca kütləvi həbslər başladı!

İstintaq vaxtı adamların mitinq-yürüşdə iştirakı gizli çəkilmiş fotolarla sübut edildi. Vətənin müdafiəsinə qalxanlar dövlət əleyhinə hərəkətdə ittiham olundular. Praqa hadisələri ilə oxşarlıq elə buradaca bitdi!

Bundan o yana hadisələr Azərbaycan sayağı cərəyan elədi. Pulu olmayan tutuldu, pul tapan azadlığını satın aldı. Deyilənə görə, o hadisədə mitinqçilərdən yığılan pul 1970-ci illərin maddi-mənəvi mirası olan pambıq "pripiska"sından əldə olunandan da çox imiş.

Bu, torpaq təəssübü çəkən insanların inamını əzmə, iradəsini sındırma, vətəndən incik salma siyasətinin başlanğıcı idi.

Sonra vətənsevənlər bir-bir sıradan çıxarılacaq, vətənin başına vətənsoyanlar gələcəkdi.

Müharibəsi bitməyən ölkədə qəhrəmanlar fərarilərə nökər olacaqdı!

Bu gün ölkəni idarə edənlər arasında vətən uğrunda müharibədə, müstəqillik yolunda mübarizədə iştirak edəni varmı? Amma hakimiyyət zirvələrində müstəqilliyin əleyhinə səs verən, bayrağı təhqir edən, xalq hərəkatı iştirakçılarını tutduran nə qədər desən hakimi-sahib taparsınız!

Çexiyada, oxşar tale yaşayan başqa ölkələrdə belə olmadı. Həbs olunanlardan rüşvət alıb buraxmadılar, mövcud qanun və siyasət çərçivəsində hərəkət etdilər. Sonralar bu siyasət cinayət elan olunacaq, qanunlar qüvvədən salınacaq, arxivlər açılıb gizlinlər aydınlığa çıxarılacaq, həmin dövrün hakim zümrəsi xalqın ictimai qınaq obyektinə çevriləcəkdi. Bu qınaq o qədər güclü olacaqdı ki, o vaxtın hakimiyyət təmsilçiləri yeni cəmiyyətdə yaşamağın tək yolunu xalqın lənətlədiyi soyadlarından ailəlikcə imtina edib, tanınmamaq üçün yenisini götürməkdə tapacaqdılar.

Bizdə isə tamam əksinə oldu. Əksi elə bu günümüzdür…

***

Yazı-pozu adamı olduğumu bilən bir tanışım neçə il əvvəl mənə bir şəkil göstərmişdi. Şəkildə o, çoxlu adam əhatəsindəydi. Danışırdı ki, bu fotonu "keqebeşniklər" 1988-ci ildə Ağdamdan Stepanakertə yürüş vaxtı çəkiblər. Sonra onu tutublarmış. Fotonu göstərib yürüşdə iştirakını sübut ediblərmiş.

"Qohum-əqrəbadan, dost-tanışdan istədikləri məbləği topladım. Pulu verəndə müstəntiqdən xahiş elədim ki, o şəkillərin birini mənə versin. Vermək istəmirdi, "istintaq materialıdı" deyirdi. Uzun çək-çevirdən sonra ala bildim. Bax beləcə, şəkil mənə bir "Jiquli"nin qiymətinə başa gəldi".

Həmin dövrdə Ağdamda o istintaqı aparanlar, onların rəisləri, o rəislərin nazirləri, həmin nazirləri yetişdirən siyasi rejim yönəldiciləri istintaq bir yana, heç xalq qınağına da tuş gəlmədi! Onlar çex həmkarları kimi nəinki soyadlarını dəyişdilər, əksinə, fəxrlə soyadlarını tarixə, tarixin ironiyasına bax, özü də müstəqil Azərbaycanın tarixinə yazdırmaqdadılar.

…Sonra da bəlalarımızın səbəbini orda-burda, onda-bunda axtarırıq.

Yay 2012

# Boşluqda sallanan ümid

Yurd nisgili sancılı ağrıdır. Varlığını hər an duydurur. Canlıdır elə bil. Qəlbində, beynində, duyğularında yaşayır. Yaşayır, demək boy verir. Boyu qalxdıqca ömrü də uzanır. Bu gün onun 20 yaşıdır. "Doğuluş"unu belə xatırlayıram.

...Ağdam işğal olunan gün Prezident Aparatında dövlət müşavirinin köməkçisi kimi son iş günümü başa vurdum. Bir neçə həftəydi ermənilərin hücumu ara vermirdi. Əvvəllər şəhərə belə irimiqyaslı hücum olmamışdı. Bu o vaxt idi ki, yerli özünümüdafiə batalyonları ləğv edilmiş, əvəzində rayona Surət Hüseynova tabe olduğu söylənən hərbi birləşmələr yeridilmişdi.

Döyüşlər şəhər ətrafında getdiyi zaman təkcə poçtdakı telefonçu xanımla əlaqə saxlaya bilirdim. Onunla söhbətim ağır keçirdi. Hər an tənəli bir söz deyəcəyini gözləyirdim. "Burda sənin şəhərin döyüşür, sən də Bakıda oturmusan" deməliydi. Amma demirdi. Bəlkə də elə bilirdi ki, Prezident Aparatındakılar daha ciddi işlərlə məşğuldular. İndi də səsini eşidib, üzünü görmədiyim o qadın yadıma düşəndə, nə gizlədim, utanıram.

Əvəzində isə o, başqa sözlər dedi. Yəqin onun səsi ölənəcən qulağımdan getməz: "Ermənilər şəhərə girir... Ağdamı tutacaqlar... Şəhəri Surətin adamları talan edir... Tək qalmışıq... Əliyevə deyin, bizə kömək eləsin... Onun xəbəri yoxdur!"

Telefonçu xanımın ürək paralayan sözlərindən sonra Prezident Aparatına gələn yeni tip müsafirlərin söhbətləri adamı dəhşətə gətirirdi. Hakimiyyət dəyişikliyindən sonra bura gələnlər hər baxımdan fərqli adamlarıydılar. Onların yalnız bir söhbəti vardı – vəzifə. Bahalı odekolon qoxulu keçmiş sovet məmurlarını sanki kimsə sehirli çubuqla dirildib bura göndərmişdi. Elə bil erməni hücumları onları narahat eləmirdi. Müharibə Azərbaycanda yox, uzaq Vyetnamda gedirdi. Bu qədər vəzifə düşkünü haradaymış belə? Metastaz verən xərçəng orqanizmdəki xəstə hüceyrələri bir yerə toplayan kimi hansı qüvvəydi onları bir yerə cəmləyən?!

Cəmi bir neçə ay öncə isə burda başqa hava vardı. Cəbhədə hər təhlükəli vəziyyət yarananda Prezident Aparatı, xüsusən də bizim ərazi idarəetmə xidməti hərbi qərargahı xatırladırdı. Dövlət müşaviri Arif Hacıyev dərhal təhlükəli bölgəyə gedir, bizə də həmin bölgənin bütün rəhbərlərini səfərbər etməyi tapşırırdı. Təhlükə sovuşanacan yerimizdən tərpənmirdik, gərgin günlər, saatlar yaşayırdıq.

...23 iyul 1993-cü il burada axırıncı iş günüm oldu. Telefonçu qadın daha zəngimə cavab verməyəndə Ağdamın tutulduğunu anladım. Doğulub böyüdüyün şəhəri gözgörəti itirmək yazıyagəlməz dəhşətli isterik hal idi. Şəhəri qorumaq, vuruşmaq əvəzinə vicdanı abort olunmuş vəzifəpərəst insan yığnağında oturmuşdum.

Ağdama etdiyim son zəngə cavab verilməyəndə yeni dövlət müşaviri Arif Rəhimzadənin otağına girdim. Vəziyyəti danışdım. Mənsiz də xəbəri varmış. Boz adamların baxışları da boz olur. Elə bildim sözü qaya parçasına deyirəm. Verdiyi sərt cavabı səbir kasamı daşırdı. Burda yazılması mümkün olmayan sözlər dedim. Sonra da qapısını çırpıb o gedən getdim. İki ay sonra dövlət katibi Lalə Şövkətin əmriylə ixtisar olundum.

...Bakıda qaçqın qohum-əqrəbanı, qonum-qonşunu, el-obanı qarşılamaq bir başqa əzab idi. Dünənədək şad-xürrəm yaşamış insanları səfil kökündə görmək ürək paralayırdı. İctimai təşviş mühitində insanı şüur yox, instinkt idarə edir. Yataqxanalarda, sanatoriyalarda yer tapmaq üçün insanlar abırdan gedirdilər. Böyük mülkləri qoyub gələnlər indi dar zirzəmiyə ümidliydilər.

Erməni zülmü bir yana, həmin günlərdə Bakıda şahidi olduğum polis vəhşəti daha ağır idi. Polis Yeni Yasamala toplaşan qaçqınlara divan tuturdu. Erməni gülləsindən qaçanlar öz polisinin təpiyinə, dəyənəyinə tuş gəlmişdi. Bütün bu baş verənlər şəhəri dolaşan "Qaçqınları Bakıya buraxmamaq göstərişi var" kimi şayiələrlə müşayiət olunurdu.

Yeni Yasamala çatanda polislər Famil Mehdinin səyi ilə müvəqqəti çəkilib getmişdilər. Adamlar öz aralarında yarımçıq tikililərdə mənzil bölgüsü aparırdılar. Siyahı tutan tanışım həvəslə "öz binalar"ından mənə mənzil təklif elədi. "Bir az gecikmisən. Evlərin yaxşısı tutulub. Amma bu evin doqquzuncu mərtəbəsində birotaqlı mənzil boşdur. Gəl, oranı sənə verək".

Sovet vaxtından yarımçıq qalmış ev idi, yalnız dörd mərtəbəsi tikilmişdi. Başımı qaldırıb havada mənə verilən "ev"ə baxmışdım. Evim olası hündürlükdəki boşluq göy üzünün ənginliklərinədək uzanırdı.

***

Sabahı 23 iyula açılan bir gecədən 20 il əvvəlki günlərə baxanda da eynən həmin boşluq görünür. Hər gün mənzilim olası hündürlüyün boşluğundan dövlət rəsmilərinin müharibə ritorikalı vədləri, "lazım gələrsə" pafoslu sözləri kağız "quş"lar təki elədən beləyə, belədən eləyə uçur.

Mənimsə bu boşluqdan süzülüb yırtılmış bayraq kimi tək ümidim sallanır...

23 iyul 2013

# Tarkovskinin “Nostalgiya”sındakı Zaur Həsənov

İnanmıram hər dürlü zülmə dözən camaatımızın çox böyük əksəriyyətində Andrey Tarkovski kimi rejissorların “darıxdırıcı” filmlərinə baxmağa səbr çata.

Nəinki iki saatlıq filmə sonacan baxarıq, heç beş-on dəqiqəsinə hövsələmiz yetməz. Bu da çayxanada domino çırpmaq, Rafael-Coşğun şousuna qəşş eləmək, şadlıq evlərində qol qaldırmaq deyil ki, ömürdən səxavətlə pay ayırasan.

Yazını sonacan oxumağa hövsələsi çatanı Tarkovskinin “Nostalgiya” filminə baxmağa dəvət edirəm. Yox, demirəm, iki saat beş dəqiqəlik flmin hamısına baxın, buna vaxt yoxdu, başa düşərəm! Son iyirmi dəqiqəsinə baxsanız bəsdir, qəsdimi biləcəksiniz.

Film düz 30 il əvvəl, 1983-cü ildə İtaliyada çəkilib. Tarkovskini dünyanı heyran qoyan filmlərinə görə dahi hesab edirlər. Bundan danışmıram. Mənə onun öncəgörmə qabiliyyəti maraqlı gəlir.

Filmdə belə yerlər çoxdur, məsələn, tərcüməçi italyan xanım rus yazıçısına Rusiyada (yəni, SSRİ-də) azadlığın olmadığından danışır. Ardınca azadlıqdan xəbərsiz adamların azad olandan sonra üzləşəcəkləri əsas problem haqda belə deyir: “Azadlıqla nə edəcəklərini bilməyəcəklər”. Ruslar da, biz də, başqaları da azadlıqla nə elədik, göz qabağındadır.

İlaxırı baş verən dəhşətli faciə filmdəki başqa öncəgörməni xatırlatdı. Buna öncəçəkmə də demək olar. Tarkovski bu olayı 30 il qabaq çəkibmiş. İnanmayan filmə 102-ci dəqiqəsindən baxsın.

Deməli, filmin qəhrəmanlarından biri, hamının dəli deyib gen gəzdiyi, faşist rejiminin stresini yaşamış Domeniko ailəsini Qiyamət gününün atəşindən qorumaq üçün yeddi il qaranlıq zirzəmidə saxlayandan sonra təklikdə azad olmanın mümkünsüzlüyünü dərk edir və dünyanı bütünlüklə xilas eləmək haqda düşünür. Görünür dünyanın xilası fərdlərin özünü qurban verməsindən keçir.

Domeniko Romanın atlı heykəllərindən birinə çıxıb özünü yandırmağa hazırlaşır. Bu vaxt filmin başqa qəhrəmanı, yazıçı Andrey ayrı bir yerdə onun vəsiyyətini yerinə yetirməyə çalışır – yanan şamı suyu qurumuş çarhovuzun o başına aparmağa cəhd edir. Domenikonun inamına görə şam yana-yana hövuzu keçərsə dünya xilas olacaq.

Nitqinə qulaq asan xalq sonda üstünə nöyüt tökən Domenikonun çaxmağı çəkməsini gözləyir. Heykəlin dibini kəsdirən biri xüsusi canfəşanlıqla əl havasına onu çaxmağı çəkməyə çağırır, “Hə, tez ol, yandır!” deyirmiş kimi.

Domenikonun nitq söylədiyi vaxt Andrey şamı başacan apara bilmir, hər dəfə yarıyolda sönür. Qəlbi şamın yanmasına yetəcək qədər təmiz deyil!

Nəhayət, insanları ədalətə, birliyə çağırış nitqini bitirən Domeniko özünü yandırır. Yana-yana heykəldən yıxılıb yerə sərilir. Xalq mənzərəni maraqla seyr edir. Yekə bir it qəfil hürküb dikəlir, baxır və hürür. Polislər tökülüşüb gəlir. Bütün bunlar Bethovenin 9-cu simfoniyası sədaları altında baş verir.

Yalnız Domeniko öləndən sonra Andrey yanan şamı lazım olan yerə çatdıra bilir.

***

Bir dəfə biri “Məğlub xalqın yazarı niyə “Qazi” soyadını götürür” deyə mənə sual yollamışdı. Ona cavab vermişdim ki, Türkiyəyə filana ağlın getməsin, bizdə bu söz başqa məna verir. Bizdə “qazi” müharibədə qalib gələnə yox, əlil olana deyirlər. Məni başa düşmüşdümü, bilmədim!

Beş uşaqlı Qarabağ qazisi, vətən yolunda əlil olan Zaur Həsənov vətəndəki haqsızlığa, ədalətsizliyə, zülmə tab gətirmədi. Dekabrın 25-də, Allahın oğlu iddia olunan İsa Məsihin mövludu günündə, allahsızlığa etirazını özünü yandırmaqla nümayiş elədi.

Mən də baxdım o özünüyandırma prosesinə. Amma ölüm xəbərini oxuyanda sarsıldım. Kim necə sarsırdı, bilmirəm, mən başqa cür sarsıldım – bəhs etdiyim filmi xatırladım, Bethovenin simfoniyası sədaları altında özünü yandıran Domenikonun yerinə “Qarabağ şikəstəsi”ylə özünü yandıran Qarabağ qazisini gördüm…

Neçə gündür ölkə saytlarında izlədiyim xəbər və videosüjetlər Tarkovskinin filmindəki qəhrəmanların prototipləriylə doludur. Özünü yandıran da var, küt baxışlı seyrçilər də, əl-ayağa düşən hökumət də, haray salan müxalifət də, hələ desən, hürən it də.

Bircə, “xilas şamını sönmədən suyuqurumuş çarhovuzdan keçirə bilən” yoxdur!

Qaziləri fərarilərinə nökər olan xalqın “xilas şamı” yarıyolda sönər, mənzil başına çatmaz!

31 dekabr 2013

# Şeyximizin bəyənmədiyi azan sədası dünyanı dolaşır

Türkiyənin ATV kanalında yayımlanan "Karabağ'da okunan son ezan" süjetinə Rey Kərimoğlunun feysbuk səhifəsində baxdım. Süjetdə Xocalı qətliamı günündə bu azanın 30-dan artıq ölkədə səsləndiriləcəyindən danışılırdı. "Nəhayət", deyib sevindim. Amma Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndəsinin sözlərindən anladım ki, azan haqda komitədə dəqiq məlumat yoxdur. Bunu kimin oxuduğunu bilmirlər, təsadüf nəticəsində ortaya çıxdığını deyirlər. Yanlış fikirlər yayılmasın deyə ətraflı izahata ehtiyac duydum.

Birinci onu deyim ki, 1980-ci illərin sonlarında Şuşa və Ağdam məscidlərində səslənən bu azanı Hafiz Sədrzadə oxuyub. Qarabağda sevilən xanəndələrdən olan Hafiz şuşalı məşhur müctəhid Məhəmməd ağanın oğludur. Məhəmməd ağa erməni qırğınlarından qurtulmaq üçün Osmanlı Türkiyəsinə yardım diləyinə getmiş hörmətli adamlardan idi. Azan Sovet hökumətinin sonlarına yaxın Ağdama rəhbərlik etmiş Aydın Quliyevin təşəbbüsü ilə lentə yazılıb.

İndi ki, bu azan belə sevilib yayılır, Hafiz Sədrzadəni tanıtmağı özümə borc bilirəm. "Azan oxuyan göyərçin" adlı essemdə onu belə xatırlamışdım: "Hafiz Sədrzadə zil və yanıqlı səsiylə seçilirdi. "Zəminxarə"nin ustasıydı. Bir dəfə Şuşada, "Gəncə" qapısının ağzındakı restoranda dostları atamın xəstəxanadan salamat çıxması münasibətilə məclis qurmuşdu. Stolun mən oturan küncündən baxanda "Gəncə" qapısından üzüaşağı Qarabağın yamyaşıl dərələri, təpələri, bir də sonsuz üfüqlər görünürdü. Ayrı vaxt yüz dil töksən oxumayan Hafiz əmi özü başlamışdı. Deməsələr bilməzdim ki, oxuduğunun adı "Zəminxarə"dir. Yaddaşımın ən məhrəm hücrələrindən birinin qapısını açıram sənə, ilahi səslə ilahi mənzərənin təmas nöqtəsini görürsənmi? …Sonralar məscidin minarəsindən azanı onun səsiylə verirdilər. Dinləyən kafir balası da islama gələrdi. Mən hələ o cür azan eşitməmişəm, nə İstanbulda, nə Səmərqənddə, nə də Sovetskidə".

Gətirdiyim sitatın da yer aldığı "Ruhlar şəhəri" kitabını yazanda, "Ağdam – Qafqaz Xirosiması" adlı sərgi hazırlayanda ağdamlılara köhnə fotolar, audio və video kasetlər üçün çağırış edəndə Surxay Əliyev belə bir azan yazısının olduğunu deyib, kimdənsə alıb gətirmişdi. Köhnə maqnitofon lentində yazılmış azanı diskə köçürmək müşkül idi, heç yanda onu oxudan maqnitofon tapa bilmirdim. Xeyli axtarandan sonra yalnız Mübariz Tağıyevin rəhbərlik elədiyi sovetdənqalma bir səs studiyasında diskə yazdıra bildim. Sağ olsun, həvəslə elədi bunu. Hafizin səsi məni necə havalandırmışdısa, müğənni dostumuzu da eləcə valeh eləmişdi. Diski götürməyə gedəndə elə bilirdim, Qarabağa gedirəm. Sevincimi aləmə car çəkməyə tələsirdim. Birinci Hafizə zəng elədim, yolda həyəcanla bu xəbəri ona dedim. Kaş Allahın altında, onun telefondakı səsini təsvir eləmək qabiliyyətim olaydı. Sanki bir uşaqla danışırdım. Nə qədər çalışdısa, hıçqırığını boğa bilmədi. Telefonu özüm qapatdım. "Sonra zəng edərəm" deyib qapatdım ki, çəkinməsin, təklikdə istədiyi qədər ağlaya bilsin.

Hafizin oxuduğu azan beləcə yayılmağa başladı: telefonlara yükləndi, youtube-də yerləşdirildi. Diskin birini də 2010-cu ilin 20 iyulunda, Ağdamın işğal günü ərəfəsində yazdığım məktubla Hacı Allahşükür Paşazadəyə şəxsən apardım. Məktubu olduğu kimi verirəm:

*“Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri*

*Şeyxülislam Hacı Allahşükür Paşazadə Həzrətlərinə*

*20/07/10*

*Möhtərəm Şeyx!*

*İyulun 23-də Ağdamın işğalının 17-ci ili tamam olur. Bununla əlaqədar olaraq, “İnam” Plüralizm Mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə bir sıra tədbirlər keçirir. Vacihə Səmədova adına Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda 23-30 iyul 2010-cu il tarixdə keçiriləcək “Ağdam – Qafqaz Xirosiması və ruhlar şəhəri” foto sərgisi, “Qafqaz Xirosiması” filminin təqdimatı bu tədbirlər sırasındadır.*

*Bu sərgiyə hazırlaşarkən bir çox dövlət və şəxsi arxivləri araşdırmışam. Tapdıqlarım arasında işğaldan əvvəl Ağdam və Şuşa məscidlərində səslənmiş azanın audio lenti də var. Bu azanı Qarabağın məşhur isimlərindən olan Məhəmməd ağa Mürşüdzadənin oğlu Hafiz Sədrzadə oxuyub.*

*Möhtərəm Şeyx! Bizdə belə əminlik var ki, üzümüzə gələn cümə, 23 iyul Ağdamın işğal günü Bakı məscidlərində həmin azanın səslənməsi müsəlmanların Ağdamı yad etməsi, inanclı adamların din və vətən sevgisinin bariz nümunəsi kimi əlamətdar hadisə olar. Təklif və arzumuza dəstək vermək imkanı olacağınıza ümid edirəm. Həmin azan diskdə bu məktuba əlavə olunur.*

*Dərin ehtiram və hörmətlə,*

*Vahid Qazi*

*“İnam” Plüralizm Mərkəzinin sədri”*

Səhəri gün Şeyxin köməkçisinə zəng elədim. Öyrəndim ki, Şeyx də, Qazılar Şurası da dinləyib, amma səslənməsini münasib bilməyiblər. Belə əsaslandırıblar ki, ərəbcə yaxşı tələffüz olunmayıb. Əlim üzümdə qaldı, eşitdiyimə qulaqlarım da inanmadı. “Bu azan Ağdamda, Şuşada səslənən vaxtlarda da Allahşükür Paşazadə şeyximiz idi. Bəs o vaxt necə münasib bilmişdi? Bu illərdə onu oxuyanın ərəbcəsi beləmi pisləşib?”

İronik sualım havadan asılı qaldı.

…İndi “Xocalıya ədalət” kampaniyası çərçivəsində bu azan dünyanın otuzdan artıq ölkəsində, Bakı məscidlərində səslənəcək. Bu yazını da Şeyxə görə yazmadım, o da əhli rəsmilərimiz kimi Qarabağsevərdi, buna şübhəm yoxdur. Hafizə görə yazdım ki, sonra “naməlum müəzzinin oxuduğu azan” deyilməsin.

23 fevral 2013

# Qarabağ iməciliyi

Avqustun 20-də Ermənistan və Rusiya müdafiə nazirləri “Rusiya hərbi bazası Ermənistan Respublikasının ərazisində olduğu müddətdə Rusiya Federasiyasının maraqlarının müdafiəsindən başqa Ermənistan silahlı qüvvələri ilə birgə Ermənistan Respublikasının təhlükəsizliyini təmin edir” sözləri yazılan və 2044-cü ilədək qüvvədə qalacaq protokolu imzalayanda təəccüblənmədim, sadəcə, hələ 10 il əvvəl Tiflisdə keçirilən, ermənilərin də iştirak elədiyi konfransların birində ciddi mübahisəyə səbəb olan sözlərim yadıma düşdü.

Belə demişdim: “Ermənilər tarixdə xalq kimi sağ qalmalarına görə türklərə, millət kimi dövlət qurmaları üçün isə ruslara minnətdar olmalıdır”.

Fasilələrdə də davam edən mübahisələrdə fikrimi belə izah eləməyə çalışırdım ki, ana balasını necə qorumağa borcludursa, Rusiya da Ermənistanı elə hifz etməyə məhkumdur. Çünki Ermənistanı Rusiya “doğub-yaradıb” – erməniləri bura köçürməklə, onlara dövlət qurmaqla. Onun yaşaması və ayaqda qalmasına yardım Rusiyanın boyun borcudur, tarixi missiyasıdır. O, Ermənistana görə hamı ilə, o cümlədən Azərbaycanla da davaya gedər, necə ki əvvəl dolayısı ilə gedib, indi lap birbaşa gedər. Təzə protokoldan belə çıxır.

Müqavilə öz yerində, məni başqa şey maraqlandırır.

***

Ağdamın işğal günü – iyulun 23-də “Ağdam – Qafqaz Xirosiması və ruhlar şəhəri” adlı sərginin açılışı və eyni adlı filmin təqdimatını keçirdik. Sərgi iyulun 30-dək davam etdi. Yüzlərlə sadə insan yayın qızmar günlərində tamaşaya durdu. Neçə-neçə tanınmış ziyalı, elm, mədəniyyət xadimi, Milli Məclis üzvü açılışa qoşuldu. Gələ bilməyən telefon açdı.

Amma belə bir Qarabağ sərgisinə iqtidarlı-müxalifətli partiya rəhbərləri gəlmədi, indi seçkilərə (elə hər yerə) Qarabağ adı ilə gedirlər. Dəvətimizə “Komitə sədri məzuniyyətdədir”, “Nazir xaricdə səfərdədir” kimi cavab verən təmsilçilərinə ta sonradan zəng vurub demədik ki, açılış günü, iyulun 23-də “məzuniyyətdə”, “xaricdə” olan həmin komitə sədrlərini, nazirləri televiziyaların axşam xəbərlərində Bakıda səfərdə olan Gürcüstanın baş naziri ilə görüşdə göstərdilər.

Şəxsən dəvət edilmələrinə rəğmən Qarabağ əsilli bir deputat, Ağdamdan seçilmiş bir millət vəkili də sərgiyə gəlmədi, Ağdam Rayon İcra Hakimiyyətinin düzənlədiyi ənənəvi yadetmə mərasimində kədərli boy sırasına düzülmüşdülər. İcra başçısı da gəlmədi, heç adam da göndərmədi.

Həftə boyu bir saat vaxt tapmadılar? Artıq neçə ildir işğal günlərimiz rayon səviyyəli iməcliyə bənzəyir. Arvadlı-kişili, böyüklü-balacalı hamı yığışır, sonu alovlu notlarla bitən elə çıxışlar edir ki, Hikmət Sabiroğlunun sözü olmasın, eşitsə, Bako Saakyan Stepanakerti qoyub qaçar.

Mənimsə iməcilikdən həmişə zəhləm gedib (iməclikdə əkilən bir ağacı da bar verən görmədim). İməcilik kampaniyaçılıqdır. Kampaniyaçılıq pafosdur. Pafos saxtalıqdır. Saxtalıqda sevgi olmaz. Sevgisiz Qarabağ alınmaz!

***

Bu gün, avqustun 31-i Qubadlının işğal günüdür.

İməciliyə çıxmayacağam!

31 avqust 2010

P.S. Növbəti il Ağdamın İcra Hakimiyyətinin başçısı Nizami Sadıqovun təşəbbüsü ilə Quzanlı qəsəbəsində “Ağdam – Qafqaz Xirosiması və Ruhlar Şəhəri” adlı sərgi keçirildi. Minlərlə tamaşaçı şəhərin işğaldan əvvəl və sonrakı durumunu əks etdirən fotolara baxdı, filmi seyr etdi. Uşaqların baxışlarını isə heç vaxt unutmayacam.

# Kerolayn Koks, Yelena Bonner və soyqırım debatları

*“Yaddaş ləpirləri” silsiləsindən*

Xocalı qırğınının 18-ci ildönümü və ABŞ Konqresi Nümayəndələr Palatasının xarici əlaqələr komitəsində qəbul olunan məlum qətnamə ilə bağlı bir ay öncə yazdığım “Şahmat taxtasında beysbol oyunu”ndan sonra soyqırımı mövzusuna belə tezliklə qayıdacağımı düşünmürdüm.

Yazmaq istədiyimi yazmışdım. Yazmışdım ki, 1915-ci il Osmanlı Türkiyəsində, 1918-ci ilin mart və sonrakı aylarında Azərbaycanda, 1992-ci ildə Xocalıda baş verən hadisələrlə bağlı beynəlxalq aləmdə ədalətsizliklə üzləşmişik. Onu da yazmışdım ki, “…Ədalətin bərpa olunması düşmənə nifrətdən çox, Qarabağa sevgidən keçir. Nifrət, kin bir hiss olaraq ilk növbədə onun bəsləndiyi obyekti yox, insanın özünü məhv edir. Onu içindən yeyir, adamlıqdan çıxarır. Nifrət insan mənəviyyatını kor, onu obyektivlikdən uzaq, rasional düşüncədən məhrum edir, sinir sistemini pozur”.

İnsan orqanizmi hepatit, poliomielit (yoluxucu uşaq iflici), quduzluq, QİÇS və bu sayaq neçə-neçə yoluxucu virusa həssasdır. Mən bu sıraya nifrəti də əlavə edərdim, sağalması mümkün olmayan xəstəlik kimi. Metastaz verən xərçəng kimi…

***

Mətbuatda yazılıb ki, Böyük Britaniya parlamentinin Lordlar Palatasında uydurma erməni soyqırımı ilə bağlı dinləmələr başlayıb. Baronessa Kerolayn Koksun təklif etdiyi “Ermənistanda 1915-1917-ci il hadisələri mövzusunda” debat palatanın gündəliyinə daxil edilib. Xanım Koks həmişəki kimi, məzlum erməni xalqının hüquqları mövzusunda “gözüyumulu”, ağına-bozuna baxmadan danışıb. Burada qeyri-adi nəsə yoxdur, onun belə çıxışlarına öyrəşmişik. Orada dediklərini oxudum, bu sözləri isə diqqətimin süzgəcində ilişib qaldı: “Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb”. Tanış cümlə idi. Eyni sözləri 12 il əvvəl də eşitmişdim. Hadisə belə olmuşdu.

…1998-ci ildə Polşa Seymində keçirilən İnsan Hüquqları üzrə III Beynəlxalq Konfransa qatılmaq üçün Varşavaya gəlmişdik. Konfransın sıradan bir tədbir olmayacağı elə iştirakçıların siyahısı ilə tanışlıqdan məlum oldu. Siyahıda BMT, ATƏT və bu kimi həşəmətli beynəlxalq təşkilat təmsilçiləriylə yanaşı, dünya çaplı keçmiş dissidentlər, məşhur hüquq müdafiəçiləri, bir çox ölkənin parlament və hökumət üzvləri, neçə-neçə bu sayaq adamlar vardı. Azərbaycanı isə bir neçə QHT və siyasi partiya nümayəndəsi təmsil edirdi.

Tədbirin ilk günündən Çeçenistan prezidenti Aslan Məshədov, onun o vaxt çox populyar olan mətbuat katibi Mövladi Uduqov və onların yanından aralanmayan Yelena Bonner hamının diqqətini özlərinə cəlb eləmişdilər. Sessiyalar bir-birini əvəz edir, konfrans gündəlik üzrə gedirdi. Fasilələrdə neçə-neçə ölkədən gələn tanışla görüşür, adını eşidib üzünü yeni gördüyümüz adamlarla (məsələn, vaxtilə Çili kommunistlərinin lideri Luis Korvalanla dəyişdirilən məşhur sovet dissidenti, indi Kembric Universitetinin professoru Vladimir Bukovski kimi) tanış olurduq. Fasilələrin birində Krım tatarlarının liderlərindən olan İlmi Ömərov yaxınlaşıb mənə bir vərəq uzatdı. “Dağlıq Qarabağ parlamentinin üzvü Babayanın konfrans iştirakçılarına müraciəti”. Sən demə, bu erməni konfrans iştirakçılarına ünvanladığı

müraciəti çoxaldıb yayırmış. "Dağlıq Qarabağ xalqının" çoxəsrlik zülmündən bəhs edən müraciət bu yeni "respublikaya" dəstək xahişiylə bitirdi.

Fasilədən sonra milli azlıqların hüquqlarına həsr olunan sessiyadan bir xeyli keçmiş qoltuğumda Babayanın bir dəstə müracirəti ("dəyərli" sənəd olduğundan hamısını götürmüşdüm) özümü İlminin yanına çaxdım. Mövzu ətrafında dünyaca məşhur akademik Andrey Saxarovun dul qalmış zövcəsi Yelena Bonner çıxış edirdi. Mərhəmət və ədalət hisslərindən hördüyü söz çələngi az qala onu Tereza Anaya bənzədirdi. O, xalqların öz müqəddəratını təmin etmək hüququndan danışır və nümunə kimi Çeçenistanın adını çəkirdi. Alovlu, eyni zamanda yanğılı sözləri rəhmətlik Aslan Məshədovun – dünyanın diqqət mərkəzində olan bir xalqın liderinin ürəyindən tikan çıxarsa da, bir nöqtəyə zillənmiş gözlərində nigarançılıq dolu qayğı apaydın hiss olunurdu. Uduqov isə barmaqlarından çənəsinə haça düzəldib həmişəki şit ədasına yeni çalarlar qatırdı ("baş kəsib, qan tökməyən", amma "baş kəsib qan tökən"lərin əvəzinə qürrələnənləri elə öz davamız vaxtı da az görməmişik).

Bonner söhbəti yavaş-yavaş Dağlıq Qarabağ ermənilərinin üstünə gətirdi. Aha! "Ayının yüz oyunu…" məsəli. Bayaqdan qafqazlı anaya bənzətdiyim bu adam bir andaca məkrli düşmənə çevrildi. O dedi: "Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb". Elə bu söz bəs elədi ki, əlimi mikrofona atım. Polşa Seymində hər kəs qarşısındakı mikrofondan sərbəst istifadə edə bilir. Danışmaq üçün düyməni basmağın başqalarının sözünü kəsməyə bəs edir. Belə də etdim: "Siz yenə yalan danışırsınız!" Bu cür tədbirlərin nüfuzlu qonağına, jurnalistlərin və konfrans iştirakçılarının sevimli ağbirçəyinə belə söz demək etikadan uzaq görünə bilərdi. Amma artıq söz deyilmişdi, zal qurcalanır, hamı dönüb bu sözlərin müəllifini axtarır, Bonnerin yanında oturan Uduqov da qaşlarını hara qədər mümkündürsə, ora qədər qaldırıb təəccüblə məni süzürdü. Sessiyanın aparıcısı, Azərbaycanda yaxşı tanınan və sevilən İrena Lasota, onun üçün nə qədər çətin olsa da, sözlərimi davam etdirməyə imkan yaratdı.

Xanım Bonnerlə aramızdakı qısa debatı olduğu kimi yazıram.

– Siz kimsiniz? Azərbaycanlısınızmı?

– Bəli, Qarabağdanam. Məni bağışlayın, bizlərdə böyüyün sözünü kəsməzlər, amma buna sizin sözləriniz məni məcbur edir.

– Onda icazə verin, fikrimi tamamlayım. Siz axı bilmirsiniz mən nə deyirəm.

– "Qarabağda ermənilər etnik təmizlənməyə məruz qalıb" sözünü siz dediniz indicə.

– Siz məni tanımırsınız…

– Ola bilər, çoxları sizi xanım Bonner kimi tanıyır, mənsə sizi Yelena Alixanyan bilirəm. İndi həm Ermənistanda, həm də Qarabağda bir nəfər azərbaycanlı qalmayıb. Etnik təmizlənməni biz yox, ermənilər aparıb. Siz axı bunları bilirsiniz, niyə faktları təhrif edirsiniz?

Sonra üzümü zala tutub vaxtilə Ramiz Rövşənin ziyalılar barədə söylədiyi məşhur fikrin ünvanını dəyişib dedim: "Ana bətnində balasını hiss etdiyi kimi, hüquq müdafiəçisi də içində vicdanını elə hiss eləməlidir. Çox təəssüf ki, bəzi insan hüquq müdafiəçilərimiz vicdanlarını abort eləyiblər".

Bu sözlərə etiraz edən də oldu, əl çalan da. Xoşagəlməz vəziyyət yarandığını görən İrena Lasota fasilə elan edib dedi: "Fasilədən sonra debat davam edəcək".

Debatın davamı olmadı, fasilədə Bonner İrena xanımı da yanlayıb yanıma gəldi. Qarabağ probleminin hər iki xalq üçün tələ olmasından uzun-uzadı danışdı, sonda isə söhbətin davamına ehtiyac görmədiyini dedi.

Növbəti gün polyak dostlarımız xəbər gətirdilər ki, konfransa Yelena Bonner, britaniyalı baronessa Kerolayn Koks və moskvalı hüquq müdafiəçisi Qriqoryanın (adını unutmuşam) imzasıyla bir müraciət daxil olub. Konfrans adından BMT baş katibi Kofi Annana ünvanlanan müraciətdə deyilir ki, millətlərin öz müqəddəratını təyin etmək hüququ ilə sərhədlərin dəyişməzliyi prinsipi beynəlxalq hüquqda ziddiyyət təşkil edir və bu məsələ BMT səviyyəsində həllini tapmalıdır. Nümunə kimi də Çeçenistanla Dağlıq Qarabağ göstərilir. Belə bir müraciətin qəbul olunması yolverilməz idi. Odur ki, işə keçdik.

Konfransın rəsmi təşkilatçısı senator Zbiqnev Romaşevskiyə yaxınlaşıb məsələyə aydınlıq gətirdik. O, deyilənləri təsdiqləyib bildirdi ki, belə bir müraciət var və rəsmi qaydada daxil olduğundan oxunmalıdır, əgər əleyhinə çıxış edənlər olarsa, qəbul edilməyəcək, çünki belə müraciətlər yekdilliklə qəbul edilir. Polşa, Gürcüstan, Ukrayna, Rumıniya, Belarus və başqa ölkələrdən gəlmiş dostları xəbərdar etdik. Müraciətin mətnini ermənilərin hamisi Kerolayn Koks oxudu. O, çıxışını bitirən kimi zalda söz almaq üçün onlarla əl havaya qalxdı, etiraz səsləri ucaldı. Sessiyasının aparıcısı senator Romaşevski vəd etdiyi kimi, ilk sözü bizə verdi. Müsavat Partiyası başqanının müavini Arif Hacılı yerindən danışmadı, icazə-zad da istəmədi, ayağa qalxıb tribunaya çıxdı. Bəzən təmkinli, bəzən də emosional çıxış elədi. Koksun dediklərinin altını üstünə çevirdi. Onun arqumentləri elə tutarlı oldu ki, Koks durub zalı tərk elədi, Bonner axşam şam yeməyinə gəlmədi. Sonra Uduqov da etiraf etdi ki, müraciətə Qarabağın adını salmaq səhv idi.

Bax belə. Bütün bunlar 12 il sonra ona görə yadıma düşdü ki, baronessa Koks Yelena Bonner-Alixanyanın o vaxt dediklərini utanmadan yenə dilə gətirdi, çünki əmin idi ki, zalda sözünü kəsən olmayacaq. Bu məsələlərdə ədalət o qədər bizim tərəfimizdədir ki, istənilən debatda orta səviyyədə məlumatlı azərbaycanlının belə səsini çıxarması dünyaca nüfuzu olanı, dəryaca ağlı olanı da yerində oturtmağa yetər. Yetər ki, vaxtında "hadisə" başında olasan.

1 aprel 2010

# Solovyov, Petruşka və acı Qarabağ həqiqəti

Ondan başlayım ki, məni bu yazını yazmağa Rusiyanın ermənipərəst jurnalisti Solovyov sövq elədi. Daha dəqiqi, onun ölkə prezidentiylə söhbətdən sonra verdiyi müsahibəsini dinləyəndə xeyli vaxtdır fikrimdən çıxmayan, neçə dəfə yazmağa qalxsam da, qaralaya bilmədiyim bir görüş təəssüratımı yazmağa qərar verdim.

***

Praqaya gəlib ona zəng vurmasaydım, ayıb olardı. İyirmi ilin dostluğu öz yerində, bu may yetmiş yaşı olacaq. Dedim, gəlmişkən görüşüb təbrik də edim.

"İndi televiziyada çəkilişdəyəm, saat 6-də görüşək". Zəngimə sevincək belə cavab verdi. Vədələşdiyimiz vaxt Francouzska 4 ünvanındakı "Retro" kafesinə gəldim.

Petruşka Şustrovanı Azərbaycanda tanıyan az deyil. Dəfələrlə konfranslarda, seçki müşahidələrində olub. Həmişə onu dostlara necə təqdim etmişəm, elə sizə də o sözlərlə tanıdım: "Keçmiş siyasi məhbus, çex dissidenti, məşhur "Xartiya 77" hərəkatının fəalı, Vaslav Havel hökumətinin ilk daxili işlər komendantı, jurnalist, tərcüməçi, beş uşaq anası".

Papirosunu çıxaranda görüş üçün niyə məhz buranı seçdiyini anladım – adı kimi özü də retrodur kafenin, tüstülətməyə icazə var burda.

Praqada yaşayan jurnalist dostum Rövşən Əliyev məni onunla baş-başa qoyub getdi. "Nə vaxt istəsən, zəng elə, gəlim". Səhərə yaxın aeroporta o aparacaqdı məni.

Bir-birimizdən hal-əhval tutduq, ailəmi xəbər aldı, İsveç həyatına öyrəşə bilib-bilmədiyimi soruşdu. Sonra ümumi dostlarımızdan tutmuş Avropaya miqrant axınıncan, Milan Kundera ədəbiyyatından Bakıda seçki məntəqəsindəki "qonaqlıq" macəramızacan müxtəlif mövzuda söhbət elədik.

Yeri gəldi, deyim, Petruşka ilə bağlı bir vaxt yazdığım "Açılmayan süfrənin qonağı" adlı yazımda seçki məntəqəsindəki o acı gülüş dolu olayın da təsvirini vermişəm. Maraqlı hadisəydi, bloqumda var, istəsəniz oxuyarsınız.

Təzə yazdıqlarımla maraqlandı. "Ozonovie lyudi" adlı rusca kitabım hazırdı, nəşr olunsa, sənə də göndərərəm", dedim.

Yeni tərcümələrini xəbər aldım. Nəşriyyatlardan sifarişlərin azalmasından gileyləndi. Son çevirməsi "Holokost və başqa soyqırımlar" ("The Holocaust and Other Genocides") adlı kitabmış. Təqdimata erməni diasporundan xeyli adam da gəlibmiş. Kitabın nəşrini Praqada tort bişirən bir erməni şirkəti maliyyələşdiribmiş.

Papirosunun üstündəki yazıya diqqət kəsildiyimi görəndə pis iş tutan uşaq baxışına bənzər bir baxışla məni süzdü, sonra məsum təbəssümlə dedi: "Sənin Şuşana getmişdim. Ötən həftə qayıtmışam".

...Hələ səkkiz il qabaq Çexiya televiziyasının sifarişiylə Qarabağdan bir film çəkmək üçün Bakıya gəlmişdi. Qaçqın düşərgələrinə səfərə, adamlarla görüşün təşkilinə kömək etmişdim. Növbəti süjetləri çəkmək üçün Ermənistana, Qarabağa gedəndə xəritədə xeyli yer göstərib

demişdim, imkan edə bilsə dəysin. Hamısına getmişdi, Ağdamdan, Şuşadan, Vəngdən, başqa yerlərdən fotolar çəkib göndərmişdi. Yazdığı "Boz dağlar qurtaran yer" adlı yazısını dilimizə çevirib dərc eləmişdik.

Bu dəfə isə "Bloqqerlər təhlükəsizlik haqda" adlı bir konfransa dəvət edibmişlər. Tədbir çərçivəsində Stepanakert universitetində tələbələrlə, qurama rejimin başçısı Bako Saakyanla, yerli QHT-lər və mətbuatla görüşübmüş. Onu Talış kəndinə də aparıbmışlar. Aprel döyüşlərindən danışıbmışlar. Azərbaycan ordusunun içində 50 min balıq olan vətəgəni dağıtdığını ona ürək ağrısıyla deyibmişlər. Onu da deyibmişlər ki, Qarabağda olan siyasi azadlıqlar nə Ermənistanda, nə də Azərbaycanda var.

Petruşka belə təqdimatlar üçün kifayət qədər təcrübəlidi. Bunların təbliğat üçün deyildiyini göydə tutubmuş. Mənə onun müşahidələri maraqlıydı deyə suallar verirdim, 8 ildə nələrin dəyişdiyini soruşurdum.

"Xeyli fərq, inkişaf gördüm. Əvvəl Şuşa ölü şəhər kimi gəlmişdi mənə. İndi tikilir, canlanma var. Stepanakertdə adamlar gecə yarıyadək küçələrdən yığışmır. Ordan Şuşaya kanat yolu çəkməyi planlayırlar. Şuşada səni xatırladım".

Stolun üstündəki qutudan bir siqaret götürdüm. "Dizak" adlı erməni siqaretiydi. Bako Saakyan bağışlayıbmış ona. On ildi tərgitmişdim, birini yandırdım, tüstüsünü sinəmə çəkdim. O danışdıqca içim sızıldayırdı, tüstü də bir başqa cür göynətdi.

"Referendum keçiriblər. İndi Qarabağı Artsax adlandırırlar. Ora bir dövlət qurumu kimi diasporun hesabına yaşayır. Erməni diasporu güclüdü, varlıdı, milli məsələdə çox fəaldı. ...Oranı geri almaq sizə asan olmayacaq. Azərbaycanın siması ilbəil pisə doğru dəyişir. Avtoritarizmə yönəlik hər addım sizi Qarabağdan uzaqlaşdırır. Demokratik ölkə qura bilməsəniz kimsə orada yaşamaq istəməyəcək. Beynəlxalq ictimaiyyət sizi dəstəkləməyəcək. ...Hərdən Bakıya getmək istəyirəm. Amma düşünürəm, kimin yanına gedim, elə hey eşidirəm dostlar ya həbs olunur, ya ölkədən gedir".

Bu sözlərin ağırlığını bütün vücudumla duyurdum. Qarabağ mövzusunda çox söhbətimiz olub, beynəlxalq tədbirlərdə həmişə onu yanımda görmüşəm.

İndi isə elə bilirdim, qarşımdakı başqa adamdı. "Əğyara meyl salmış yar" kimiydi o axşam dostum.

"Başa düşürəm, müharibədə hər şey olur, amma balıqlar...". Ölmüş balıqlardan elə ürək ağrısıyla danışdı ki.

"Gedəcəyindən xəbərim olsaydı, bir xahiş edərdim. Səndə balıqlara rəhm yaradan o "əzabkeş"lərdən icazə alıb Dilqəmə, Şahbaza baş çəkərdin. Onların tək günahı ana qəbrini ziyarət etmək, yurda baş çəkmək idi. Neçə ildi işgəncə verirlər".

Mənim qəlb qırmaq adətim yoxdur, illah da dost qəlbi. Kinayəm xətrinə dəyərdi deyə demədim o sözləri. Eləcə susub gözünə baxdım.

Üzümdə nə oxudu, bilmədim. Bu söhbətlə məni nə qədər yüklədiyini fərq etdi yəqin, mövzunu dəyişdi.

Onun sonrakı söhbətləri Qarabağı başımdan çıxarmaq üçün idi. Amma dediyini demişdi.

Daha otura bilmirdim, havaya çıxmaq istəyirdim. Rövşənə zəng vurmağa bəhanə gəzirdim. Dadıma ofisiant çatdı, kafenin bağlandığını dedi.

Petruşkayla görüşüb ayrıldıq. Getmək istəmirdi, Rövşən gələnədək gözləməyə təkid edirdi. Qoymadım, “soyuqdu, gecdi”, dedim. Metroyacan ötürdüm. Arxasınca baxanda elə bildim ki, onu son dəfə görürəm və bir dost kimi artıq itirirəm. Niyə bu ovqata köklənmişdim, kəsdirə bilmirdim. Onun dediklərinin həqiqət olduğuna bir zərrə belə şübhəm yox idi. Qarabağın yolu azad, ədalətli, hüquqların qorunduğu Azərbaycandan keçir fikrini neçə ildir elə özüm deyirəmmi, yazmıramı?

Qarabağı mənə Petruşkamı qaytaracaqdı?!

Bəs içimdə qırılan nə idi?

Şəxsi dostluq bir yana Çexiya siyasi, ictimai, ədəbi dairələrində kifayət qədər nüfuzu olan bir adamı Azərbaycan adına itirmək ağır gəldi mənə. Tərcümə sifarişləri kəsilən bir vaxtda bir erməni sponsor təkliflə ortaya çıxır, dünya soyqırımlarından bəhs edən bir kitabın tərcümə və nəşrinə pul ayırır. Sonra onu hörmət-izzətlə Qarabağa dəvət edirlər (“müasir Çexiyanın qurucularından biri, əfsanəvi Petruşka Şustrova” epitetləriylə vəsfini internetdə sonra oxuyacaqdım), “Qarabağ həqiqətləri”ylə tanış edirlər.

Buna görə onu niyə qınamalıyam? Qınayırammı?

Tək bizimki deyil ki, ermənilərin də “Qarabağ həqiqətləri” var. Amma bizdən fərqli olaraq, bu işi pul silmək, gözdən pərdə asmaq, baş qatmaq, fikir yayındırmaq xatirinə yox, milli ideya, millət naminə edirlər.

Petruşkanı deyil, özümü, özümüzü qınayıram!

...Rövşən uçuşa qədərki vaxtı kazinoda keçirməyi məsləhət gördü. “Oynamaq mütləq deyil”, dedi. “Banco” adlı kazinoya gəldik. Gözəgəlim xidmətçi qız qəhvə gətirdi. Tələbəlik dostum Rövşənlə neçə saatsa söhbət elədik. O, tək istedadlı redaktor, savadlı jurnalist yox, həm də maraqlı həmsöhbətdir. Amma bu söhbətlər də Petruşkadan aldığım acını unutdurmadı.

Kazinolarda saat olmur, müştərilər vaxtı bilməsinlər deyə. Qumar da şeytangöz gözəl kimidir – şirnikləndirir. Bizsə oynamırdıq, söhbət edirdik. Başqa bir xidmətçi qız pulsuz viskiyə qonaq elədi məni. Sən demə, bunun bir anlamı da o imiş ki, kazino oturub vaxt öldürmək yox, qumar oynamaq yeridir. Bunu dərk edəndə, dedim: “Çıxaq. Apar məni aeroporta, səhərəcən qalmağının mənası yoxdu”. Rövşən də məni tək buraxmaq istəmirdi. İsrar elədim.

...Aeroportun nəhəng boş zalında tək-tənha oturub Petruşkanın dediklərini, bir də məni oyuna şirnikləndirən kazino gözəlinin kinayəli baxışını xatırlayırdım. Hər ikisi mənə məğlubiyyət hissi yaşadırdı.

Ağırdır uduzmaq duyğusu! Fərq etməz, döyüşü uduzursan, yoxsa bütöv ömrü, ya da bir gecəlik kazino qumarını...

Telefonda internetə girib “The Holocaust and Other Genocides” kitabını axtarışa verdim. Öyrəndim ki, onu 2012-ci ildə Amsterdam universiteti nəşr edib. Kitabın “Erməni soyqırımı. 1915” adlı bölümünü isə universitetin türk doktorantı Uğur Üngör (!) yazıb.

Xəyalımda o kitabın çex dilində nəşrini maliyyələşdirən Praqadakı tort bişirmə sexinin erməni sahibini canlandırmağa çalışdım. İçi mən qarışıq yüz minlərlə azərbaycanlı diaspor üzvündən

daha vətənpərvər bir insan gözümün önünə gəldi. Türkün əliylə yazılan erməni soyqırımı kitabını nüfuzlu çex xadiminə çevirtdirib Avropanın göbəyində nəşr etdirın balaca bir tort bişirmə sexinin sahibi.

Çexiyanın başqa bir şəhərində - Karlovı Varıda sahibi azərbaycanlılar olan neçə-neçə hoteli də xatırladım. Üç il əvvəl göstərmişdilər mənə...

***

Təyyarə qara-qura buludları yarıb göy üzünə can atırdı. Elə bil məni bütün varlığımı sarmış qaramat bir dünyadan çıxarmağa tələsirdi. İndi aşağıda ağappaq bulud okeanı, yuxarıda isə göyün sonsuz ənginliyi vardı. Bir də Günəş.

Günəşə elə sevindim ki, uşaq anasına sevinən kimi.

Bu füsunkar mənzərəyə baxa-baxa hiss elədim ki, insanların azad, firavan yaşadığı ölkə qurmağa, Qarabağı məhz belə bir ölkəyə qaytarmağa olan yorğun ümidim hələ qırılmayıb və son nəfəsimədək mənlə olacaq!

Qarabağ bülbülləri “solovey” ləhcəsiylə cəh-cəh vursa da...

Aprel 2017

P.S. Evə çathaçatda yadıma düşdü ki, Petruşkanın 70 yaşını təbrik etməyi unutmuşam...

# Lavrovun dəfnə çələngi

Özümə yüz kərə demişəm gündəm söhbətlərinə qoşulmayım, olmur. Səbəbi sadədir, çox vaxt gündəmin “materialı”nı, yəni nədən hazırlandığını, nə məqsəd güddüyünü anışdıra bilmirəm. Elə ustalıqla gündəm düzəldirlər ki, heç mətbuat professorları da baş açmaz hansı “kitayski”dir, hansı “orijinal”.

Saytlarda oxudum ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov belə bir söz deyib: “Qarabağ münaqişəsi Azərbaycanın daxili işi deyil”.

Onun bu açıqlaması neçə gündür gündəmdədir. Mən də düşdüm gündəm “tələ”sinə. Qoşuldum Lavrov haray-qışqırığı salanlara, atdım özümü gündəmin gur yerinə, feysbukda belə yazdım: “Lavr” bizim dildə dəfnə ağacı deməkdir. Lazım gəlsə, Lavrovlara dəfnə budaqlarından çələng də hörərik. O biri ”lazım”a baxmayın, bu ”lazım”a həmişə hazırıq...”

Sonra da yazdığıma məəttəl qaldım. Yahu, bu Lavrov təzə nə deyib ki, özümüzə belə əl qatırıq? Qarabağ münaqişəsinin Azərbaycanın daxili işi olmadığını bizim bələkdəkilərdən savayı hansımız bilmirik ki?!

Qarabağ 25 ildir bizim daxili yox, xarici işimizdir!

“Müdrik”, “uzaqgörən”, “balanslı” siyasətimizlə onu dünya məsələsinə çevirmədikmi!? Daxili işimiz olsaydı, çoxdan həll edərdik. Daxili işlərimizin öhdəsindən özümüz yaxşı gələrik.

Məsələn, heykələ söz yazana elə cəza verərik, qıraqdan baxan deyər bəs adam öldürüb. Feysbukda-yutubda “sarsaq-sarsaq şeylər yazan, yayanlar”ı tutub atarıq qoduqluğa. Kim nə deyəcək bizə? Söz azadlığı daxili işimizdir.

Ölkəiçi daxili işlərimiz öz yerində, çöldə də saysız-hesabsız “daxili işlərimiz” var. Amerikanın, Almaniyanın dağılmasına ürəyimiz ağrıyar. Gürcüstanın kilsələrində qazın olmamasına öz dərdimiz kimi yanarıq və sairə.

Göydə ulduzlar yola getmir, kosmosda peykimiz var, barışdırar, yoluna qoyarıq.

Sözümün canı nədir? Dünyanın lap o başında nəyi desən daxili işimiz sayarıq – Qarabağdan savayı!

Qarabağ bizim xarici işimizdir!

“Лавровый венок – хомут для головы” məsəlini bu axşam dostlarla birləşib bir təhər dilimizə çevirdik. Belə alındı: “Dəfnə çələngi başa boyunduruqdur”.

“Lavr”dan – dəfnədən tək zəfər çələngi yox, lazım gəlsə, boyunduruq da qayırırlar, anladım ki, Lavrov həm də bunu deyir.

...Saxtasıyla əslini ayırd etməyi öyrənim, qoşulacam gündəm söhbətlərinə!

Yanvar 2017

# 25 il keçib, hanı Qarabağ?

*Qarabağ mitinqində nələr deyərdim? Virtual-xəyali çıxış*

Uzaq 1994-cü ilin 12 mayında imzalanmış təslimçi "Bişkek protokulu"na etiraz yürüşündən sonra Azərbaycan xalqının Qarabağ adına keçirdiyi bu ilk mitinqdə hər birinizi salamlayır, bağrıma basıram!

O yürüşdə "Bişkek protokolu" tarixə düşmənlə separat işbirliyi, vətənə xəyanət kimi düşmüş "Brest sülhü"nə bənzədilirdi. Bilirsiniz, bolşeviklər 100 il öncə o xəyanətkar müqavilәni imzalayaraq, hakimiyyətə Rusiya imperiyasını diz çökdürərək gəlmişdilər.

Amma Birinci Dünya müharibəsində məğlub olan Rusiya Sovet İttifaqının simasında əvvəl itirdiyi torpaqlardan qat-qat artığını alıb İkinci Dünya müharibəsindən qələbəylə çıxmışdı.

"Bişkek protokolu"na "HƏ" deyənlər "Brest sülhü"nü imzalayan kommunistlərin siyasi xələfləriydi.

Biz də Qarabağı düşmənə verib sonra atəşkəs elan etdik. Arxa cəbhədə neft çıxarıb varlanacaq, dünya güclərini tərəfimizə çəkəcəkdik, güclənib torpaqlarımızı geri alacaqdıq. Məğlub Azərbaycan Yeni Azərbaycanın simasında müharibədən qələbəylə çıxacaqdı.

Bəs nə oldu?

Bu 25 ildə hakimiyyətə "Qarabağ hanı?" deyə sual verilmədi. 25 ildir xalq bu hakimiyyətə güvənib zənn etdi ki, neft pullarıyla güclü ordu qurur, dünyanın enerji təhlükəsizliyinə qarant dövlətlərdən biri kimi uğurlu xarici siyasətiylə dörd bir yanda dost qazanır və "lazım gələndə" yarı sülh, yarı hərb yolla Qarabağı geri alacaq.

Bir vaxt Topxana meşəsində armud ağaclarının kəsilməyinə dözməyib küçələrə tökülüşən xalq, Qarabağı ermənidən, rusdan yox, əvvəl öz hakimiyyətindən tələb edəcəksən!

Bu gün hesabat vaxtıdır!

"Pencəyimi çiynimə atıb gedərəm Xankəndinə!" vədini verəndə bu hakimiyyətə inanmışdı Azərbaycan xalqı. İndi hesab soruruq – "Hanı Qarabağ?".

Biz hakimiyyətə "İstefa ver!" demirik hələ! İstefa can qurtarmaq olar! Hər dəfə hakimiyyətlərin istefa bədəlini Qarabağda şəhər, rayon, kənd itirməklə vətən ödəyib. Hələ istefası alınan bir dövlət başçısından itirilmiş torpaqların hesabı sorulmayıb!

Biz bu hakimiyyətdən İstefa yox, Qarabağı tələb edirik.

Onun boğazından iki əlli yapışıb deyirik ki, bu dar boğazdan 140 milyard neft pulu keçirmisən. Sənin mədən bu qədər pulu həzm edə bilməz.

25 ildir Qarabağ nağılları ilə bizi yuxuya verməyin yetər, TƏLƏB EDİRİK!

1. Buyurun, "Qarabağı xilas fondu" yaradın! O 140 milyardı qaytarın o fonda!
2. Azərbaycanın kifayət qədər zədələnmiş beynəlxalq imicini bərpa etmək, ölkədə vətəndaş sülhü yaratmaq yolunda ilk addımı atın – siyasi məhbus kimi tanınan şəxsləri həbsdən azad eləyin!

3. Azərbaycanı insanların yaşamağa can atdığı bir ölkəyə çevirəsi ciddi, köklü islahatlara başlayın! Sübut edin ki, Azərbaycan elə ermənilər üçün də Ermənistandan daha xoşbəxt yaşamalı ölkədir.
4. Xalqın etimadını qazanmaq üçün ədaləti bərqərar edin! Elə qanunlar qəbul edin ki, onun bəhrəsini adamlar süfrələrində, gündəlik həyatlarında hiss etsinlər! Yalnız cəmiyyətdə ədalət hakim olandan sonra itirilmiş xalq etimadını qazana bilərsiniz!
5. Xalqla birgə fəaliyyətinizlə bütün dünyaya sübut edin ki, bu xalq, bu dövlət ölümü bahasına olsa belə Qarabağdan vaz keçməyəcək!
6. Başda ölkənin siyasi elitası olmaqla ümummilli səfərbərlik elan eləyin!

Bu tələbləri yerinə yetirmək üçün xalq sizə 31 dekabra – Həmrəylik gününədək vaxt verir. Əks təqdirdə daha “Məhsul” stadionunda deyil, Azadlıq meydanında toplaşacaq, “İstefa” tələbiylə Böyük Qarabağ Hərəkatı başladacaq!

Ya Qarabağı azad edib qəhrəman olacaqsan, ya da xalqa təslim olub cavab verəcəksən!

29 sentyabr 2018

P.S. Əvvəl düşündüm ki, kənardan belə çıxış yazmaq bir qədər qeyri-etik görünə bilər, dərc etməyim. Sonra fikirləşdim – Azərbaycandan kənarda yaşamaq Azərbaycansız yaşamaq deyil! Elə zənn edin, bu sözləri tribunadan deyirəm!

# Qarabağın açarı

Sənə yalan deyiblər, dostum! Səni aldadıb inandırıblar ki, Qarabağın açarı Rusiyanın, Amerikanın, ATƏT-in, beynəlxalq aləmin əlindədir.

Bir-birimizin gözünə kül üfürürük. Hökumət bizim, biz də hökumətin. Özümüz özümüzü aldadırıq, inandırırıq ki, Qarabağın işğalda qalmasına ən başlıca səbəb Ermənistandır, Rusiyadır, xristian dünyasıdır. Uzun illərdir aldadırıq bir-birimizi, bu gedişlə deyəsən hələ çox uzanacaq bu iş.

Əsl həqiqəti görməmək üçün dəvəquşu pozası alırıq. Ən dəhşətlisi də bu müvazinətlə barışmağımızdır.

Gerçək olansa budur ki, Ermənistan Qarabağ kilidində sonuncu açardır.

Rusiya kilidinə düşən açar da taparıq, bundan sonra Amerikanın, Avropanın – bütün dünyanın qapıları özü açılar taybatay.

Müşkülümüz öz qapımıza – Azərbaycan qapısına düşən bu açarı tapmaqdır. Bu qapı açılmadan o birilərini aça bilmərik.

Qarabağ tilsimi bir dəli sevgiyə möhtacdır, sevgi inad deməkdir həm də. O tilsimi inadlı sevginlə sındırar, açarsan. Mübariz İbrahimov həlak olanda yazmışdım ki, Qarabağa zəfər yolumuz vətəni dəli bir eşqlə sevməkdən keçir.

Qarabağın açar kodu Azərbaycan hakimiyyəti və Azərbaycan xalqıdır.

Ali baş komandan gecələr yuxudan qan-tər içində "Qarabağ" bağırıb qəfil ayılanda sınacaq tilsim. Qərargahı Bərdəyə, Quzanlıya köçürüb "Mən burdayam – Qarabağda! Gəlmişəm Qarabağı azad edək" deyəndə sınacaq. Populizm deməyəcəklər buna. Bu, elə həmin dəli sevdadır – vətən sevdası. Bu, elə həmin tilsimin açarıdır. Tilsim bu sevdada sınar. Yerdə qalan diplomatiya, hərb məsələləri bu sevdadan keçər.

Qarabağın ovsunu hakimiyyətin ən yuxarı pilləsindən üzü aşağı məmur ordusu çapovulçu instinktlə yox, vətən eşqi, yurda sahiblik duyğusuyla yaşayanda çəkiləcək.

Hər azərbaycanlı Dilqəm Əsgərov, qarabağlı Şahbaz Quliyev, ağdamlı Həsən Həsənov olanda sınacaq bu tilsim. Dilqəmgil ana qəbrini ziyarətə, yurda baş çəkməyə getmək üçün kimsədən icazə almamışdılar. Biz onları tək qoyduq. Bir Dilqəm yerinə on Əli, yüz Vəli, min Vahid olsaydı erməni də, rus da, dünya da baxıb görərdi. Görüb deyərdi bunlar havalıdılar, dəlidilər, yurd sevdalısı, vətən xəstəsidilər.

Ağdamı işğal günündə yada salan nə qədər könlüqırıq yurddaşımın ürək sözünü oxudum. Bunlar pafosdan uzaq, səmimi qəlb sözləridir. Amma Qarabağa bu yetmir! Qarabağa sözün qorxmayan üzü lazımdır.

Qarabağ yolunda hədəf erməndən qabaq özümüzük.

Qarabağı onu geri qaytarmağa borclu olanlardan soruşacaqsan. Qarabağı onu qaytarmağa borclu olanların yaxasından yapışaraq tələb edəcəksən.

Qarabağı ermənidən qabaq özündən, öz hakimiyyətindən istəyəcəksən!

Hakimiyyət sənə borcludular, sən hakimiyyətə yox. Sən onun qabağında əzilib-büzülüb, əriyib-tökülüb, yaltaqlanıb-pişikləndikcə Qarabağ da, elə vətənin yerdə qalanı da sənin olmayacaq, dostum Azərbaycan vətəndaşı, qardaşım Qarabağ qaçqını.

Qarabağın açarı ermənidə, rusda deyil! Özündədir, qəlbindədir – "cibinə" əməlli bax!

24 iyul 2017

# Qarabağı pulla almaq

*Mehriban Vəzirin ”Qarabağnamə”sindən doğan yazı*

“Ağabəyim ağa Cavanşir” kitabını “Rusiya agentləri”nin mətbuat səhifələrimizdə at oynatdığı iddia edildiyi günlərdə oxudum. Mehriban Vəzirin sonuncu “Qarabağnamə” kimi qəbul elədiyim bu kitabında yazılanlarla indi sosial şəbəkələrdə, saytlarda oxuduqlarım 200 il zaman fərqinə rəğmən ağız-ağıza səsləşir kimi göründü mənə.

Kitabdan məlum olur ki, o vaxt Rusiya casusları Qarabağ, Təbriz, Tehran saraylarınadək ayaq açıbmışlar. Hətta Təbriz müctəhidi Mirfəttah ruhani nüfuzundan istifadə edərək şəhər əhlini darvazaları rus ordusunun üzünə açmağın ”Allah əmri” olmasına inandıra bilmişdi.

O vaxtdan bəri nə qədər mirfəttahlar gördük! İndi marıqdakılar da boy verməyə başlayıb.

İlham İsmayılın moderator.az saytında dərc olunan “Bunun Vətənə xəyanətdən başqa adı yoxdur…” məqaləsində Tahir Cəfərli adlı mövcudluğundan təzəcə xəbər tutduğum bir ”analitik”ə yazdığı cavabdan belə anlaşılır ki, “Rusiya agentləri” yenə hər yanı sarıblar, açıq fəaliyyətdən belə çəkinmirlər.

Tarixi faciələrimizdə “beşinci kalon” deyilən zümrənin rolu xüsusi araşdırılası mövzudur. Özü də bu, rusların Qafqaza ayaq açdıqları ildən ta bu günəcən dövrü əhatə eləsə daha bitkin araşdırma olar.

Mehriban Vəzirin kitabı tarixi faciələrimizin əsl səbəbini bilmək istəyən hər kəsə maraqlı gələr. Dəfələrlə ətimi ürpədən, bəzən qəhərləndirib, bəzən hiddətləndirən bu kitabı ötənlərdən – yaddaşımın ən məhrəm yerində gizlənən Qarabağlı günlərimdən bir namə kimi oxudum.

Vətən fədaisi Məhəmməd bəy Cavanşir, ”Qarabağ şikəstəsi” xan qızı, İran şahının Şahbanusu Ağabəyim ağa, Azərbaycan sevdalısı şahzadə Abbas Mirzənin gözüylə Şuşa qazısı olmuş ulu babamdan üzü o yana, üzü bu tərəfə babalarımın, nənələrimin yaşadığı dövrə, yerə ruh səfəri elədim. “Tehran cənnətə dönsə, yaddan çıxmaz Qarabağ” deyən Ağabəyim ağanı qürbət eldə daha içdən duydum.

Bu adamların hər üçünü ömrünü vətənə fəda etmiş Azərbaycan aşiqi neçə-neçə tarixi şəxsiyyət sırasında gördüm, ədəbiyyatımızın ən gözəl bədii əsər surətləri kimi təsəvvür elədim. Qurban Səid gələ ”Ağabəyim ağa və Məhəmməd bəy” romanı yaza.

Kitab adamın fikrini çox yerlərə çəkir. Durub hamısını yazmaq fikrim yoxdu. Qoy, o fikirlər, düşüncələr, suallar özümdə qalsın, özümlə qalsın. Beynimi deşən tək birini deyim bəsdir.

Niyə bu xalqı, bu vətəni canından, var-yoxundan artıq sevənlərin taleyi faciəli olur, ömrü məşəqqətdə keçir, nakam bitir?

Cəmil Həsənlinin bu yay oxuduğum ”Али Мардан-бек Топчибашев: жизнь за идею” kitabının qəhrəmanı kimi, Məmməd Əmin Rəsulzadə kimi, onların istiqlalçı silahdaşları kimi.

“Qacarların Qarabağ çırpıntısı Ağabəyim ağa ilə bitdi” – bu, kitabın son cümləsidir.

İstəmirəm gələcəkdə bizi anıb desinlər ki, Azərbaycanın Qarabağ çırpıntısı bu nəsillə bitdi.

Gözgörəti Qarabağ əlimizdən gedir. Bu mənzərəni birimiz üzdə yaltaq təbəssüm, birimiz müti, boynubükük susqunluğumuzla müşaiyət edirik. Birimiz də elə içimizdə çərləyərək.

Bağıranımız, hayqıranımız yoxdur!

Ağabəyim ağa Qum vilayəti daxil bütün sərvətini Qarabağı geri qaytarsın deyə Azərbaycan şahzadəsi Abbas Mirzəyə vəsiyyət edir. Abbas Mirzə Xoyu, Urmunu ruslardan neçəsə qızıl pul müqabilində geri almışdı. Şahbanu Qarabağa görə bütün varidatından keçməyə hazır idi. İkisi də bir il fərqiylə öldü. Cavan yaşda. Rus casuslarının əliylə zəhərlənmələri ölüm səbəblərindən biri kimi iddia olunur.

Bu yazını yazdığım anlarda dünya mətbuatı 2,9 milyard dollar Azərbaycan pulunun ”yuyulması”ndan danışır. İddia olunur ki, ölkədən gizli yollarla çıxarılan bu pullar ”Azərbaycanın maraqlarını qorumaq”, ”Qarabağı geri qaytarmaq” üçün xərclənib – avropalı siyasətçilərə rüşvət kimi verilib. Belədisə, demək, bizim də dünya miqyaslı işbazlarımız var. Demək, istəsələr o pula Qarabağı da satın ala bilərdilər. Yazı mövzusu deyil deyə ”səhiyyədə, təhsildə və sair köklü islahatlara da xərclənə bilərdi” demirəm heç.

Demək, şəffaflıq mücəssiməsi Avropada ”kirli işlər” bacaranlar o pulla xirtdəyəcən korrupsiyaya bulaşmış Rusiyanın caynağından Qarabağı xilas da edə bilərdilər. Demək, az qala Ermənistanın büdcəsi boyda olan o pulla Qarabağı elə döyüşsüz-filansız Ermənistandan satın da almaq mümkün idi.

O pula Qarabağı xilas edəcək fədailər ordusu yaratmaq da olardı!

İşə bax, bu sətirləri yazdığım vaxt Almaniyada 45 il əvvəl Münxen olimpiadasında terrorçuların qətlə yetirdikləri İsrail idmançılarının anım mərasimi keçirilir. Nə dəxli var bu yazıya, deyərsiniz. Birbaşa dəxli var!

Bu terrordan sonra o vaxtkı İsrail baş naziri Qoldo Meir MOSSAD-ın təqaüddə olan keçmiş şefini çağırıb deyir: Sənə istədiyin qədər səlahiyyət, pul verirəm. Bu işdə əli olan terrorçuların hamısını tap, məhv elə.

Qısa müddətdə “Allahın qəzəbi” adlı kiçik bir dəstə yaradılır, 8 terrorçunun 7-si tez bir zamanda qətlə yetirilir. Sonuncunu bir neçə ildən sonra tapıb öldürürlər. Bu iş təbii ki, milyardlara başa gəlmir, bəlkə də heç bir milyon da tutmayıb. Amma yəhudilər bununla millətin, dövlətin iradəsini dünyaya sübut ediblər.

Bu 2,9 milyard dolların 10 faizinə elə neçə ermənini satın alıb, Dağlıq Qarabağda diversiyalarla xof mühiti yaratmaq olardı. Bu 10 faizə partizan-təxribat dəstələri hazırlamaq olardı, hətta peşəkar terrorçular bu pulla Xankəndində at oynadardılar. Pələng kimi oğullarımız çayxanalarda domino çırpır bekarçılıqdan.

Deyirlər hələ üstü açılmamış neçə ”2,9 milyardlar” var. Gec deyil, qoyun bu pulu Qarabağın xilasına. Təzədən qurun Azərbaycanı.

Bunu vətən acısını ürəyində sancı kimi duyan, nə vaxtsa, uşaqlığın hansı bəxtəvər çağındasa Cıdır düzündə üzünə dəymiş bir mehlik Şuşa havasını ruh kimi daşıyan ”2,9 milyard”lara hökmü keçən hər kəs edər. Edər və indən belə yeddi arxa dönəninə xalqın qəlbində sevgi, ehtiram yuvası qurar.

Ta onu demədim ki, Qarabağın azadlığı üçün vəsiyyət edilən o varidat İran Şahbanusunun şəxsi əmlakı idi, 2,9 milyard dollar isə Azərbaycan xalqının puludur.

***

Mehriban xanım mənə hədiyyə göndərdiyi kitaba bu sözləri yazıb: ”Vahid bəyə Qarabağ ortaqlığı ilə”. Xoşum gəldi, gözəl sözdür vətənə ortaq olmaq.

Vətənə ortaq olaq, onun xilası bizim ortaqlığımızdadır. Bütün günü əlləşib yazmaq istədiyim cümlə elə bu idi.

6 sentyabr 2017

# Divarın o üzündən gələn səs

Sabah – 31 mart soyqırımı günümüzdə ermənilər Qarabağda prezident, parlament seçir. Bilirsiniz bu nəyə bənzəyir?

Təsəvvür eləyin, sizin 5 otaqlı eviniz var. Babadan qalıb, ata əmanətidir. O evin ən məhrəm otağını düşmən zorla əlinizdən alıb. Arvad-uşağı qovub çıxaranda qorumağa gücünüz çatmayıb.

Üstündən 25 ildən çox zaman keçib. Siz düşməndən o otağı geri almaq üçün heç nə etməmisiniz, eləcə, arvad-uşağın yanında səsiniz çıxsın deyə, hərdən "Lazım gəlsə, qovaram səni ordan", demisiniz. Əvəzində divarın o üzündən düşmənin təhdidlərini eşitmisiniz – "O biri otaq da bizimdir", deyib.

Hələ bu harasıdır, kefi istəyəndə orda kef məclisləri də təşkil edir, dişin bağırsağını kəsir, qorxundan susursan. Evin kişisisən, o səslərin evində eşidilməsinə dözmürsən…

Dözmürsənmi?!

Biz şərqliyik. Başçılarımızı kişi gözündə görürük: fərq etməz evin başçısı ol, ya ölkənin.

31 mart soyqırımı günü ermənilərin Qarabağda prezident, parlament seçməsi öz evində düşmənin sənə bax o cür meydan oxuması, arvad-uşaq yanında səni təhqir etməsi kimidir!

Ölkəsinin beşdə birini işğal edən düşmənin həqarətinə dözməyə gərək ali baş komandan da, generalları da, elə xalqı da.

***

Qarabağlı kişilərdən Cərimə Ordusu yaradın!

Minlərlə könüllü yazılar, yaşlılarımız daha həvəslə qoşular bu orduya.

Sonra bizi Qarabağa yollayın. Düşmən qabağına ət kimi, cəmdək kimi atın. Stalin Moskvanı, Stalinqradı "insan ətiylə" xilas edən kimi. Bizi sipər eləyin! Minalı sahələrə buraxın bizi! Düşmənin atəş nöqtələrini leşimizlə örtün!

Vallah ciddi sözümdür! Bir qırıq da pafos qatqısı yoxdur sözümün!

Təkrar-təkrar ölmək əzabından xilas eləyin bizi…

…Qabaqda bizim Cərimə Ordumuz getsin, yol açaq, arxamızca neçə-neçə general-polkovnikin orduları gəlsin.

Soruşmayın, harda, necə aldılar bu rütbələri. Bildiyinizi niyə soruşasınız ki!

Bizdən sonra general-polkovnik Vilayət Eyvazovun polisləri gəlsə yaxşıdır. Birdən qorxub geri qaçanımız olar, qoymasınlar, döysünlər, güllələsinlər bizi.

Sonrakı sırada general-polkovnik Zakir Həsənovun qoşunları gəlsin. Kəndləri, şəhərləri azad eləsin!

Sonra general-polkovnik Kəmaləddin Heydərovun dəstələri gəlib fövqaladə işlərini görsünlər.

General-polkovnik Elçin Quliyevin sərhədçiləri sonda gələr. Ermənistanla sərhədlərimizdə durarlar.

“Uf” da deməsinlər ayaqları altında xırçıldayan sümüklərimizə…

Bayrağımız Cıdır düzündəki Üçmıx yüksəkliyinə sancalan gün o rütbələrin halallığı da verilər.

Ordumuz 100 il qabaq Şuşada elədiyi atəşfəşanlığı yenidən təkrarlasın. Səsi bərk çıxsın o atəşfəşanlığın.

O qədər bərk çıxsın ki, yan otaqdakı ”kef məclisi”nin – 31 mart seçkisinin səsini eşitməsin evdəkilər.

…Generallarımız eşitsinlər amma… ali baş komandanla birlikdə.

30 mart 2020

# Şuşa inauqurasiyası, mən və qarğalar...

Yenə yuxum qaçıb. Yenə pəncərənin ağzındayam.

Dan yeri sökülhasöküldədir. Qarğalar oynaşan vədə. Alatoran! Günün ən qorxunc çağı!

Şəhər yatıb. Evdə mən oyağam, çöldə qarğalar.

***

Sinirə bilmirəm! Sabah Şuşada Araik Arutunyan and içəcək. Adına qondarma dediyimiz ölkənin prezidenti kimi. Paşinyan da gələcək!

Xankəndidə, işğal altında qalan rayon-şəhərlərin heç birində yox, məhz Şuşada!

Niyə Şuşada?

...Babam Qazıyev Həbib Əliş oğlunun cümhuriyyət ordusunun generalı Həbib bəy Səlimovun komandanlığı altında gedən Əsgəran döyüşündə yaralanmasından yazmışdım bir dəfə. Onun nənəmə, nənəmin də mənə danışdıqlarından bilirəm ki, o vaxt ordumuz Xankəndini, Şuşanı azad edibmiş.

Xankəndində qələbə paradı keçirilməsini o dövrün "Azərbaycan" qəzeti də yazıbmış. Bu yaxınlarda xəbər tutduq.

Şuşada qələbə atəşfəşanlığı haqda isə atam bunları danışıb mənə: "Erməni-müsəlman davasında bizimkilər erməniləri Şuşadan qovublar. Əsgərlərimiz şəhərdə qələbə bayramı ediblər. Ağam (atasına ağa deyirdi) erməni kilsəsinin qızılı xaçını göstərib deyirdi ki, bizim əsgərlər dilxoşluğa mərcə girib atırmışlar. Bəlkə 100 güllə dəyib o xaça".

Qarabağda qələbənin baş memarı cümhuriyyətin ora general-qubernator təyin elədiyi Xosrov bəy Sultanovdur. Mayın 10-u ad günü idi. Feysbuk səhifəmdə onu belə yad etdim: "15 yanvar 1919-cu ildən cümhuriyyətin süqutunacan Qarabağın qubernatoru olmuş Xosrov bəy Sultanovu Qarabağın xilaskarı adlandırırlar. Onun komandanlığı altında Azərbaycan ordusu 1920-ci ilin Novruz günlərində baş qaldıran erməni qiyamlarını yatırıb, Xankəndini, Şuşanı azad edib. Xankəndidə ordumuzun qələbə paradı, Şuşada qələbə atəşfəşanlığı keçirilib".

10 mayda kimin xəbəri oldu Xosrov bəy Sultanovdan?.. Başqasına qarışmışdı başımız.

Büdcəsində "siçanlar oynaşan" bir dövlətin generalları 100 il əvvəl əsgərlərinə qələbə sevinci yaşatmışdılar. Bugünkü miskin durumu isə neft pulu təpəsindən xəzəl kimi tökülən dövlət yaşadır bizə.

Bir də ermənilər. Şuşada inauqurasiya mərasimi keçirərək.

***

Alatoran qarğalarla lap qorxunc olur. Nə pis qarıldaşırlar, cəhənnəm quşları kimi...

Görən ali baş komandan da oyaqdır? O da yata bilmir? Bəs sayını itirdiyimiz generallar necə?

...Evdə mən oyağam, çöldə qarğalar...

20 may 2020

# Qarabağdan danışmaq yasaqlanır?..

Qarabağ doğumli elm, sənət, ədəbiyyat adamı, ictimai-siyasi fəallar olaraq, ölkə prezidentinə müraciət hazırlamışdıq. Surətini Qarabağ camaatına, Azərbaycan xalqına ünvanlayasıydıq.

Yazmışdıq ki, vətən torpağının uzun müddət işğalda qalması və son vaxtlar baş verən hadisələr Qarabağın taleyi ilə bağlı böyük həyəcan doğurub: "İranla 2016-cı ildə imzalanmış müəmmalı sazişin üzə çıxan nəticələri, Dağlıq Qarabağ rejimində keçirilən seçkilər, 21 mayda andiçmə mərasiminin nümayişkaranə şəkildə, Azərbaycanın qürur və heysiyyətinə meydan oxuyurmuşlar kimi Şuşada təşkili və bütün bunların fonunda dövlətimiz adına tutarlı cavabların verilməməsi ciddi narahatlıq yaradıb. Olaylar insanlarda haqlı suallar doğurub: nə baş verir, Qarabağ danışıqlarında mövqelər bu qədərmi əldən verilib, hətta Şuşa şousunu dayandırmağa da gücümüz yoxmuş?

1994-cü ildə adına "Əsrin müqaviləsi" deyilən neft kontraktları bağlananda böyük ümidlər verildi ki, bu, dünya güclərini tərəfimizə çəkib müttəfiq etməyə, güclü ordu yaradıb torpaqların işğaldan azad olunmasına imkan verəcək. O vaxtdan 26 il keçib, gördüklərimiz isə başqa mənzərədir.

Görünür, münaqişənin dinc həllinə ümid etdiyimiz bu illərdə işğalçılar mövqelərini o qədər gücləndiriblər ki, tək Dağlıq Qarabağa deyil, "təhlükəsizlik zolağı" dedikləri ətraf rayonlara da iddialarını açıq şəkildə bildirirlər. Torpaqlarımızda məskunlaşmanı davam etdirir, yeni yaşayış məntəqələri salır, SES və digər iri obyektlər tikir, təbii sərvətlərimizi istismar edir, beynəlxalq tədbirlər keçirir, yeni infrastruktur qurur, müxtəlif layihələr gerçəkləşdirirlər.

Biz Qarabağın işğalı ətrafında mövcud durumu, perspektiv proseslərin hansı istiqamətdə davam edəcəyi haqda müəyyən bilgilər əldə etmək istəyirik. Artıq 20 ilə yaxındır Qarabağla bağlı parlament müzakirəsi, ictimai dinləmələrin keçirilmədiyini nəzərə alaraq hesab edirik ki, müəyyən informasiyalar almaq, real vəziyyəti bilmək xalqın haqqıdır.

Qarabağın işğaldan azad olunması dövlətlə xalqın vəhdətindən keçir. Bu birliyə həyatımız bahasına nail olmağa hazırıq".

Müraciətə tərəfdar çıxanlar prezidenti Qarabağ ətrafında yaranmış vəziyyətlə bağlı xalqa dürüst bilgi verməyə, yaxud geniş ictimai Qarabağ müzakirəsi təşkil etməyə çağırmaq niyyətində idi.

***

Belə bir müraciətin əhəmiyyəti olacaqmı deyə tərəddüdlərimiz vardı. Mayın 31-i Milli Məclisdə baş verən hadisə – ermənilərin "Şuşa andiçməsi"nə ordu səviyyəsində seyrçi qalmağı qəbul etməyən bir millət vəkilinin etirazı və bu etirazı Məclis rəhbərliyinin, "növbətçi deputatların" süngü ilə qarşılaması tərəddüdlərin əsassız olmadığını göstərdi. Qoyduq bu ideyanı kənara.

Sən demə, bu Milli Məclis müharibəyə səfərbər edən yox, göstəriş gələrsə xalqı təslimçiliyə sürükləyəcək bir Məclismiş. Belə millət vəkillərindən, onları idarə edənlərdən Qarabağın azad olunmasını gözləmək, yüngül desəm, özünü aldatmaq olar.

Müraciətdən imtinanın bir səbəbi də Qarabağla guya məşğul olan səlahiyyətli şəxslərin ictimaiyyətlə açıq söhbət nümunəsinin olmamasıdır. Bizə tarixdən monoloq dinləmək yox, sabah haqda aydın təsəvvür yaradacaq yol xəritəsinin təqdimatı gərəkdir.

Hakimiyyət rəsmilərinin ağız büzdüyü Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları yoxdan dövlət yaradıb, heçdən ordu qurub Qarabağı azad etmiş, Xankəndində qələbə paradı keçirmişdilər. Bu tarixi qələbəyə Şəki, Ağdam, Cavanşir, Tərtər, Bakı, Tatar, Zaqatala, Şirvan alayları imza atmışdı.

Onlarla ictimai xadimin imzalayacağı müraciətdən vaz keçdik. Əvəzində soruşuruq: 27 il keçib, hanı vəd etdiyiniz Qarabağ? Artıq hesabat vaxtıdır!

Xalqı və dövləti torpaqların azad olunmasına səfərbər edin.

Ya da… acizliyinizi boynunuza alın!

2 iyun 2020

# Ofşorda qalan Qarabağ

Sizdən Qarabağı geri alan olmaz, hisslərimizlə oynamayın – yenə körüklənən müharibə ritorikasında ağla gələn tək fikir budur!

Bir də cavabını axtardığım bu suallarım var: Ölkədə baş verənlərin adı nədi? Müharibəyə hazırlıqmı? Müharibəyə hazırıqmı?

***

Srağagün İsrail qəzeti milli ordumuza məxsus 155 milyon dolların "otkat" kimi ofşor hesablara ötürülməsindən yazdı. Torpağı işğal olunmuş ölkəni idarə edənlərin əxlaqı, öz xalqını necə biabırçı, rəzil günə qoyduqları ortalığa qoyuldu.

Bunlar isə susurlar!

Ondan əvvəl də silah almaq adıyla ordumuzun yüz milyonlarla dolları "otkat" olaraq Rusiyadan ofşorlara köçürüldüyü xəbərinə lal olmuşdular.

2016-cı ilin aprel döyüşləri vaxtı üzə çıxan "Panama sənədləri"ndə xalqın pullarını oğurladıqları ifşa olunanda da susdular! BBC-yə verilən cavab hələ xalqa verilən hesabat demək deyildi.

Yeri gəlmişkən, dünyanı silkəmiş "Panama sənədləri" olayından bəhs edən "Çamaşırxana" ("*The Laundromat*") adlı film çəkilib, dünən baxdım, maraqlıdır, siz də baxın, neçə tanış simanın prototipini görəcəksiniz.

Boynuma alıram, neçə ildir ümidimiz birdivli üzülməsin deyə özümü də, oxucu dostları da inandırmağa çalışmışam ki, bəlkə…, bəlkə…, bəlkə bunların vicdanları tamam ölməyib, bu qədər sərvəti olan ölkənin torpaqlarını işğalda qoymazlar, hansısa bir yol tapıb azad edərlər. "Qarabağı pulla almaq" sayaq neçə yazıda şam işığının xəfif titrəyişinə bənzəsə də içimdəki ümidi ölməyə qoymamışam.

Amma indi işləklərə baxıram və özümdən soruşuram. Oğrulardan vətən xilaskarı olarmı?

Ümidi ölmüş insan canlı meyitdir! Ümidimiz ölməsin deyə çox şeyi açıq yaza bilmir adam. Yazmıram da, soruşmuram da!

Soruşmuram: Mübariz İbrahimov kimi oğullar ona görə şəhid oldu ki, Pəpişqulunun oğlu qolunda 2 milyonluq saat gəzdirsin? Danabaş ataların danaboyun oğulları eyş-işrət məclislərində milyonlar səpələsinlər?

Soruşmuram: general Polad Həşimov, polkovnik Raqub Orucov, elə dünən ölüm xəbəri gələn çavuş Elşən Məmmədov ona görə qurban gedirlər ki, dünənin "bağırsaq alverçi"ləri, "kalkotqa satan"ları, "üçmanatlıq uçastkovu"ları oliqarxa çevrilsinlər; dərisi 5 qəpiyə dəyməyənlər ölkənin torpaqlarını hərraca qoysunlar; xalqın milyardlarla ölçülən sərvətini ofşorlarda gizlədib yunan tanrıları, tanrıçaları kimi dəbdəbəli həyat sürüb insanlara elə yunan mifologiyasındakı Tantal əzabına bənzər əbədi zülmə məhkum etsinlər?

Soruşmaq istədiyim təkcə bu idi: Ölkədə baş verənlərin adı nədi? Müharibəyə hazırlıqmı? Müharibəyə hazırıqmı?

23 sentyabr 2020

# Bədlikdən çıxmaq

*Qarabağ yürüşünə sözardı*

Təsəvvür eləyin 32 il sonradır: 2052-ci il. İnsanlar Bakı küçələrində Qarabağ yürüşünə çıxıb.

Ağlasığmaz gələr sizə! Amma…

32 il əvvəl, sovet dövründə, 1988-ci ildə universitet həyatindən başlayan Qarabağ yürüşündə heç ağlımızın üfüqindən belə ötməzdi ki, 32 il keçəcək və… müstəqil Azərbaycanda yenə Qarabağ yürüşü olacaq, insanlar hakimiyyətdən Qarabağı tələb edəcəklər.

Millətləşib, dövlətləşib sonuna çatmasaq, bu dava hələ uzun illər bitməyəcək, daha qorxunc hadisələrə səbəb olacağından danışmaq istəmirəm heç.

O vaxt biz tələbələrin bir qorxusu vardı – DTK təxribatı. İndi bizi istəməyən qonşu ölkələr və onların ölkəmizdə təsəvvür etməyəcəyimiz qədər güclənmiş dayaqları var. Xalqımızın başına bütün bəlalar ölkəni xaos bürüyən dövrlərdə gətirilib: 1990-cı ilin qışı, 1992-ci ilin yazı, 1993-cü ilin yayı… Yeni xaos bizi bir dövlət, xalq kimi çökdürər.

Dünənki olaylar göstərdi ki, ən dar ayaqda xalq da, siyasi təşkilatlar da dövlətin yanındadır. Radikal saydıqları müxalif partiyanın sədri belə bunu dilə gətirdi. 14 iyul yürüşündə hamı dövlətçiliyə sadiqlik nümayiş etdirdi.

Kütlə başsız qalanda üzü yüz yerə yönlənər. Odur ki, diqqətimizi gecə Milli Məclis binasına girənlərə, maşın aşıranlara, dini şüarlar səsləndirənlərə yox, bitməyən Qarabağ davasına cəmləməliyik. Kütlə olan yerdə təxribatçı da olur. Dünyanın bütün mübarizə hərəkatları bundan keçib. Bunun önünü mitinq, yürüş təcrübəsi olan vətəndaşlar yerindəcə alır, mühafizə orqanları tədbir görür.

Bizi əsas hədəfdən yayındıra bilməsinlər!

32 il əvvəl başlayan Qarabağ davasını ona görə uduzduq ki, ermənilər yumruq kimi birləşə bildiyi vaxt biz yumruqdan açılan barmaqlar ətrafına topalaşıb bir-birimizlə mübarizəyə girişdik.

Tarix təkrar olunmasın!

Xalq da, müxalifət də sözünü dedi. İndi söz hakimiyyətindir. Böyüklük eləsin, ümumxalq həmrəyliyi yönündə addımlar atsın: etimad yaransın deyə siyasi məhbusları buraxsın, xalqın nifrətini qazanmış yüksək çinli məmurları istefaya göndərsin, səfərbərlik elan etsin.

Elliklə Qarabağın azadlığına qalxaq.

Açılan barmaqları bir yumruqda birləşdirmək zamanıdır. Bu şansı qaçırmasa, bunu bacarsa, xalq hakimiyyətin çox günahını bağışlayar.

Olmasa, alınmasa, böyük xaos qaçılmazdır. Ölkəni belə xaosdan çıxara biləsi liderin, komandanın, təşkilatın olmadığı, görünmədiyi həssas vaxtda sayıq həmrəylik hamının məsuliyyətidir!

15 iyul 2020

# İsveçin xarici işlər naziri Ann Lindeyə məktub

Günaydın, Ann!

Tvitter səhifənizdə bir paylaşım marağıma səbəb oldu. Yazırsınız: "Azərbaycanla Ermənistan arasında döyüşlərin başlamasından narahatam. Dərhal dayandırılmalıdır". Həmçinin qeyd edirsiniz ki, vəziyyətdən sülh yolu ilə çıxmaq üçün bu həftə azərbaycanlı və erməni həmkarlarınızla danışacaq, müzakirələr aparacaqsınız.

Sizin bu məsələyə biganə qalmamanıza, təşəbbüsünüzə böyük dəyər verirəm. Məni sizə yazmağa sövq edən səbəb bu döyüşlərdə uşaqların ölüm xəbəri oldu. Bu günlərdə erməni bombardmanları nəticəsində Azərbaycanın Naftalan bölgəsində 13 və 14 yaşlı Fidan və Şəhriyar Qurbanovlar ailələriylə birgə həlak oldular.

Bu həftə siz Dağlıq Qarabağ münaqişəsini müzakirə edəcəksiniz. İstərdim xatırladım ki, İsveç Dağlıq Qarabağ münaqişəsinin dinc çözülməsi üçün 1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupunun üzvüdür. Təəssüf ki, 28 il ərzində sülhə nail olunmayıb. Mənim fikrimcə, problemin həllinə İsveç də məsuldur, odur ki, sizə müraciət etməyə qərar verdim.

Atəşkəs münaqişəni həll etmir, onu növbəti döyüşlərə qədər dondurur!

BMT Təhlükəsizlik Şurasının Ermənistan ordusunun Azərbaycan torpaqlarından dərhal, qeyri-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874, 884 saylı qətnamələrini yadınıza salmaq istəyirəm. Avropa İttifaqının qanunverici orqanı olan Avropa Parlamentinin qərarlarında da erməni qoşunlarının Azərbaycan torpaqlarından çıxarılması tələb edilir. Münaqişənin yeganə həll yolu budur.

Ümid edirəm ki, söhbət zamanı Ermənistan xarici işləri nazirindən Ermənistan ordusunun Azərbaycan ərazisindən çıxarılmasını tələb edəcəksiniz.

İsveç bütün dünyada neytral mövqeyi, sülhpərvər siyasətiylə tanınır. İnanıram ki, Siz və ölkəniz konfliktin ədalətli həllinə öz töhfənizi verə bilərsiniz.

Sayğılarımla,

Vahid Qazi

Yazıçı, publisist

29.09.2020

P.S. Nazirə yazdığım məktub İsveç mətbuatında dərc olundu. "Blekinge Läns Tidning" qəzeti məndən geniş müsahibə alıb, "Yazıçı xarici işlər nazirinə məktub yazıb" başlıqla dərc etdi.

# İsveç Xarici İşlər naziri Ann Lindenin cavab məktubu

Salam Vahid,

Bu ilin 29 sentyabrda mənə yazdığınız məktub üçün sağ olun. Sualınız və marağınız üçün təşəkkür edirəm, cavabı gec yazdığıma görə təəssüflənirəm. Hökumətimiz Ermənistanla Azərbaycan arasındakı münaqişəni böyük narahatlıqla izləyir. İsveçin mövqeyi son həftələrdəki döyüşlərdə aydın olub: atəşin dərhal dayandırılsın və Minsk Qrupunun həmsədrləri ilə danışıqların bərpa edilsin. Münaqişənin sülh yolu ilə həllinə alternativ yoxdur. Bunu şəxsən mən Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinə hərbi əməliyyatlar başlar başlamaz təqdim etmişdim.

İsveç hökuməti Ermənistan və Azərbaycanın 10 noyabr gecəsi atəşkəs barədə razılığa gəlməsinə sevinir. Döyüşlər gərgin keçdi və bir çox itkilər oldu. İsveç mülki insanlara və mülki altyapıya edilən hücumları qınayır. Beynəlxalq humanitar hüquqlara riayət edilməlidir. Humanitar vəziyyət çox ciddidir; On minlərlə mülki şəxs münaqişə bölgəsini tərk etmək məcburiyyətində qaldı, yaşayış bölgələri və məktəblər və xəstəxanalar kimi mülki obyektlər dağıdıldı. Vəziyyət, hakimiyyətin döyüşlər səbəbiylə mübarizə gücünə sahib olmadığı geniş yayılmış kovid-19 pandemiyası ilə daha da gərginləşir. İsveç 20 milyon İsveç kronu ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin bölgədəki humanitar işini dəstəkləyir.

İndi bağlanmış müqavilə və onun necə tətbiq ediləcəyi barədə daha çox məlumat toplayırıq. Münaqişənin bitmədiyi və bir çox məsələlərin həll edilməli olduğu aydındır. Buna görə ATƏT-in və beynəlxalq ictimaiyyətin uzunmüddətli davamlı danışıqlar yolu ilə həll olunmağa sadiq qalmaları vacibdir. İlin sonunda ATƏT-ə sədrlik etməyə başlayacağım üçün bu səyləri dəstəkləməyə davam edəcəyəm.

Ermənistan və Azərbaycan arasındakı münaqişənin uzunmüddətli, siyasi cəhətdən davamlı həlli üçün dialoq və əməkdaşlığı təşviq etmək İsveç Xarici İşlər Naziri kimi mənim üçün önəmlidir.

Dost salamı ilə,

Ann Linde

19.11. 2020

# Bizi dəyişən müharibə

Vətən müharibəsidir! Azərbaycanın hər vətəndaşı yaşayır bu müharibəni, dünyanın harasında yaşamasından asılı olmayaq – ona görə Vətən müharibəsidir!

Əvvəlki Qarabağ savaşını Vətən müharibəsinə çevirə bilmədiyimizə görə uduzmuşduq. Yaxşı xatırlayıram! O vaxt müharibəni döyüşlərin getdiyi yerlərin sakinləri, bir də Azərbaycanın başqa bölgələrindən cəbhəyə oğul göndərən ailələr yaşayırdı.

Bu gün hamımızındır bu müharibə!

Bu müharibə simamızı dəyişib. Daha ruhu əzilmiş, qəddi əyilmiş, özünə inamını itirmiş, ümidsiz, çarəsiz, yetim deyilik. Bir millət kimi dikəlmişik.

Bəlkə də bu, 100 il öncə yarımçıq qalan millətləşmə prosesinin bərpası, başlanğıcıdır?!

O gün Stokholmda yaşayan bir güneyli dostum deyirdi ki, bu 30 ildə güneylilər də dəyişib. "Qarabağ güneydə milli ruhun oyanmasında katalizator rolunu oynayıb", – onun sözüdür. Güneyin bütün iri şəhərlərində xalq ayağa qalxıb "Nurduz gərək bağlana" çağrışıyla mitinqlər keçirir, Ermənistanla sərhədin bağlanmasını tələb edir.

1918-ci ildə Bakının azad olunmasından bəri Türkiyəni heç vaxt indiki qədər iki canda bir qəlb görməmişdik. Qardaş əlini çiynimizdə, nəfəsini üzümüzdə duyuruq bu gün.

Tək millətin yox, sanki, dövlətin də siması dəyişib. Vətəndaşlarını qorumağa qadir olduğunu sərgiləyən dövlətə çevrilib dövlətimiz. Qorxunc sifətin (Mehdiyev sayaq) yerini qəlbləri güvənlik duyğusuyla isidən sima (Hacıyev kimi) tutub.

Qorxunu sevgi əvəzləyib!

Prezident də əvvəlki deyil, elə bil. Xalqa müraciətlərində, xarici jurnalistlərə müsahibələrində bir başqa prezident görürük. Qarşımızda toplumun birliyindən, inamından vəcdə gəlib, xalqına bel bağlayıb düşmənlə cəsarət dilində danışan prezident var.

***

18 Oktyabr müstəqilliyimizin bərpa olunduğu gündür!

Əli, ünü, prezidentə demirəm, köməkçisi Hikmət Hacıyevə yetən olsaydı – sizin kimi mənim də ona qanım qaynayır – xahiş edərdim bu yazdıqlarımı çatdırardı. Əvvəlkilərə baxmayın, o, xalqın sözünü prezidentə deyər.

Azərbaycan xalqı heç vaxt bu qədər Qarabağcanlı olmayıb! Qarabağ qırıq sapdan dağılan muncuq dənələri kimi dünyanın dörd bir tərəfinə yayılan soydaşlarımızı, Güneydəkilər qarışıq, bir yerə toplayan milli oyanış ideyasına çevirib.

Bu tək Vətən müharibəsi deyil, həm də Dirçəliş hərəkatıdır! Və bu hərəkatı qələbəylə başa vurmağa tarix ona bir şans verib. Millətin yumruq kimi birləşdiyi bu günlərdə bu yumruqdan bir barmağın belə açılmasına imkan verməməliyik. Bu gün bütün xalqı ümummilli Qarabağ ideyası ətrafına yığa bildiyi kimi o yumruğu qorumaq da prezidentin görəvidir.

Prezidentə deyərdim ki, 18 oktyabr günü biz ondan böyük amnistiya gözləyirik. Uzaq 90-cı illərdən həbsdə qalan OMON-çulardan üzü bu yay tutulmuş "Qarabağ məhbusları"nacan hər Qarabağ savaşçısını, haqsız tutulan hər kəsi azad edin! Ümummilli etimad naminə!

O gün İsveç parlamentində erməniyanlı deputatlar ölkənin xarici işlər nazirini Qarabağla bağlı məşhər ayağına çəkmişdilər. Bizə diktatura ölkəsi deyirdilər. Bu, başqa ölkələrdə də belədir, bilirəm. Biz dəyişən, humanistləşən simamızla bunun belə olmadığını da göstərə, bizə uzanan dilləri kəsə bilərik.

Odur ki, açın buraxın, əfv edin, bəraət verin onlara. Bəzilərini şəxsən tanıyıram – Qarabağ, vətən yolunda ölümə gedəsi oğullardı.

Bu cümə İsveç polisi Stokholm küçələrini bağlayıb hərəkəti dayandıran erməniləri "iti qovan kimi" qovdu. Bu ölkənin hökumət, parlament üzvlərinə, mətbuatına, ictimaiyyətinə məktub, məqalə, müraciətlərimizdə əsas mesajımız budur ki, niyə biz azərbaycanlıları anlamırsınız, axı, bu ermənilər 30 ildir, bax beləcə, bizim torpaqlarda oturublar, çıxmırlar. Biz də qovacayıq...

Şuşalı dostum Hikmət Sabiroğlu qızımın İsveç mətbuatı üçün yazdığı "İsveçdə yanlış Qarabağ təsəvvürü" adlı məqaləsini novator.az saytında dərc edəndən sonra mənə bir mesaj atdı. Mesajında yazırdı ki, bizim o vaxt itirdiklərimizi balalar qanları ilə alır, namusumuzu ləkədən qurtarırlar. Acı həqiqəti deyir Hikmət. Biz yükümüzü balaların çiyninə vermişik. Babalardan aldığımız mirası biz də balalara ötürmüşük.

Bu dəfə son olmalıdır! Bu qanlı mirası gələcək nəsillərə saxlamaq istəmiriksə, heç bir muxtariyyat söhbətini yaxına buraxmamalı, davanı bizimlə yaşamaq istəməyən sonuncu erməni qovulanacan aparmalıyıq. Əks halda 30, 50, 100 il sonra bir də başlayacaq bu dava.

***

Bu ağır və şərəfli günlərdə Tanrı ordumuza, xalqımıza, dövlətimizə yar olsun! Bizi dəyişən müharibə qələbəmizlə sona çatsın!

17 oktyabr 2020

P.S. Bu arada havada Cıdır düzünün kəklikotu qoxusu var...

# Rusiyanın iti, Putinin bülbülü...

Putinin bülbülü – Rusiya dövlətinin insan simasında təcəssümü Vladimir Solovyov dünənki verilişində bir söz işlətdi. Ondan aşağıda danışacam, hələliksə, başqa demək istədiklərim var.

Ordumuz hərb tariximizin qızıl səhifəsini yazdı. Məşhur "Mannerheym xətti"nə tay tutulan "Ohanyan xətti"ni bir neçə günə yarıb keçdi. Əsgərlərimiz ləyaqət simvolumuza çevrilmiş Şuşanı qayalarına qanlarını axıdaraq geri aldı. Şəhidlərimiz bu 30 ildə əzilib öləzimiş ruhumuzu canları bahasına özümüzə qaytardılar. Ruhları qarşısında baş əyirəm.

Xalqımız görünməyən birlik, inam, əzm, iradə nümayiş etdirdi – ilk dəfə xalq-dövlət-ordu tandemi yarandı. Qələbəmizin baş səbəbi bu tandem oldu.

İmzalanan bəyanatda göstərilən tarix bitsin; Kəlbəcər, Ağdam, Laçın boşaldılsın, ordumuz o torpaqlarda yerini tutsun biz də papağımızı qarşımıza qoyub soyuq başla olanları təhlil edək, gələcək planlarımızı quraq.

Bu müharibə bizə çox həqiqəti çılpaqlığı ilə göstərdi. Dostumuzu, düşmənimizi saf-çürük eləməyə, güclü və zəif yerlərimizi görməyə, gələcəyin inkişaf vektorunu müəyyən etməyə imkan yaratdı.

İlk öncə Rusiya qoşunlarının Qarabağa yeridilməsinə hüquqi qiymət verilməlidir. Adının nə olmasından asılı olmayaraq, Konstitusiyamızın 11-ci maddəsini kobud şəkildə pozaraq, Milli Məclisin qərarı, xalqın xəbəri olmadan xarici ölkə qoşunun ərazilərimizə girməsinin bir adı var – İŞĞAL.

Rusiya Azərbaycan torpağını işğal etmək hesabına növbəti dəfə erməniləri xilas etdi! İti qovurduq yiyəsi gəldi!

Ordumuz Xankəndinin 1 kilometrliyindəykən marıxda hazır durubmuş kimi tələm-tələsik rusların gəlişinin işğaldan başqa adı varmı? Rus ordusu imkan verəcəkmi biz Qarabağda düzən quraq?

İşğal gecəsi helikopterin vurulması, Bakı yaxınlığında insanları panikaya salan partlayış nəyə siqnal idi? Dövlətimizi nələrlə təhdid ediblər? Bəlkə Bərdədə, Gəncədə gördüyümüz dəhşətli mənzərəni bütün ölkə boyu təkrarlamaqla qorxudublar? Bilmirik! Düşünürəm, ölkə prezidenti döyüşlərin getdiyi bu günlər ərzində xalqla səmimi, açıq söhbətini bu konteksdə də davam etdirəcək.

Mərhum Elçibəy dirənib rus qoşunlarını ölkədən çıxarmağının bədəlini hakimiyyətini itirməklə ödədi. Belə çıxır ki, indi rus qoşunlarını biz özümüz dəvət etmişik, hələ bir təşəkkür edərək, bayram atəşfəçanlığı keçirərək?

Ölkə prezidenti adını Azərbaycan tarixinə xilaskar komandan kimi yazdığı bir vaxt gördüyü işlərə iynə ucu boyda kölgə düşməsinə imkan verməməlidir. Xalqa demək mümkün olacaq qədər açıq deməlidir – nə baş verdi ki, Xankəndinin girişində dayandıq? Sanki sovet ordusu Berlin darvazası ağzındaykən durdurulur, araya barışdırıcı qüvvə girir.

Fakt qarşısında qalmışıqsa, reallıqla barışmağa məcburuqsa, onda şərtlərimizi türklər demiş, ortaya NET qoymalıyıq. Və hansı halda Rusiya qoşunlarının Azərbaycan torpaqlarında mövcudluğuna son qoyulmasını açıq elan etməliyik. Məsələn, rus qoşunları Qarabağda Azərbaycan hakimiyyətinin yerli idarəetmə orqanlarının işinə qarışacağı halda; Sovet dönəmindəki kimi birtərəfli mövqe tutaraq, azərbaycanlıların öz yerlərinə qayıtmasına mane olacağı halda və sairə.

Və ən ƏSASI… Putinin bülbülü Vladimir Solovyovun dilə gətirdiyi sözə gəlirəm. ”Qarabağ ermənilərinə Rusiya pasportu verilməsi” halında rus qoşunu ölkədən dərhal çıxarılır. Abxaziyada, Osetiyada, Dnestryanıda, Krımda, Donbasda pasport paylama əməliyyatı bizdə də təkrarlanmısına qarşı bəribaşdan Milli Məclis səviyyəsində qərar da qəbul oluna bilər.

Bir sözlə, etiraf etsək də, etməsək də yeni dövrə – Rusiyanın işğalı dövrünə qədəm qoyulub. Dövlət kimi də, xalq kimi də mövqeyimizi sərgiləməliyik. Sözdə edə bilmiriksə, əməldə Rusiyaya tutduğu mövqeyə görə Azərbaycanı itirdiyini başa salmalıyıq.

Dövlət hesabına açılmış rus məktəblərini ya bağlamaq, ya da ingilisdilli məktəblərlə əvəzləmək, hər axşam bizə nifrət püskürən rus kanallarının yayımını dayandırmaq, Slavyan Universitetini Türk Dilləri Universitetinə çevirmək, nə bilim bu dar macalda ağlıma gələn bunlardır, bu və bu qəbildən işlər.

Xalq, dövlət, ordu tandemini qoruya bilsək, bu işğala da son qoyacağıq!

Hər şeyə rəğmən artıq üfüq görünür və bu bizə yetər!

Tanrı Azərbaycanı qorusun!

11 noyabr 2020

# Иван, уходи из Карабаха!

Qarabağdakı Rusiya qoşunları ilə neyləyək?

Pişim-pişim davranışla yola verək, ya ”vaşmat” deyib işğalçı kimi üstlərinə gedək?

Kodlarla, işarələrlə danışmağı xoşlayan Putin məlum bəyənata əsgər sayını 2000 yox, məhz 1960 rəqəmiylə yazdı. O bəyanata Türkiyənin adını salmağa inad etdiyimizə görə 1960-cı ildə hakimiyyətdən salınıb edam edilən Adnan Menderesə işarət verməklə hakimiyyəti təhdidmi etdi? Bu, doğrudanmı belədir?

Başqa nələrlə təhdid etdi bizi?

İmzadan sonra o aktı ”işğal” adlandırmaq rəsmilərimizə çətindir, başa düşürük, amma əvvəl-axır etiraf edəcəklər!

Biz bilirdik, indi erməni görmüş 18 yaşlı gənc əsgərimiz də bilir ki, nəinki Xankəndi, tək Drımbon kəndində belə ermənin qalması, gələcəyimiz üçün hazır minadır!

Çiban deşilməyincə, sonacan gedib axırıncı ermənini sərhəddən yola salmayınca, ”başabaş dəyişim” işini bitirməyincə bizə Qarabağda gün yoxdur!

Qarabağ tam azad edilmədən hər il milyardlarla manatı boğazımızdan kəsib onun ətrafının bərpasına ayırmağımız da bir başqa riskdir. Pul havaya sovrulmayacaq ki?! Bu gün tikdiklərimiz sabah döyüş poliqona çevrilməyəcək ki? Nə vaxtsa IV Qarabağ müharibəsinin (I Qarabağ müharibəsi Cümhuriyyət dövründə aparılıb) başlamayacağına kimsə qarant durubmu?! Bir də… heç qaranta baxanmı var, ilməsi itmiş dünyada?!

Nə etməli?

Siyasətçi olsaydım Ermənistanda Qarabağı xilas yolunda buxov, Rusiyanı avrointeqrasiya yolunda tıxac hesab edən siyasi qüvvələri arayardım. Onlarla ilkin söhbətlərə başlayar, Qafqazı Rusiyadan azad etməyin, ondan birgə xilas olmanın gələcək konturlarından danışardım. Belə bir qüvvə aramaq qara otaqda qara pişik axtarmağa bənzəsə də, cəhd edərdim.

Amma indi koronovirusun boğazıma çöküb, nəfəsimi kəsdiyi bu dar macalda ağlıma heç bir dahiyanə fikir gəlmir! Tək bu ikisindən savayı…

Birincisi – Türkiyə qoşunları! Dəfələrlə dediyimi bir də deyim ki, ölkədə Putinin, Kremlin dilini ən yaxşı bilən qüvvə indi hakimiyyətdə olanlardır. 10 noyabrda nə baş verdiyini hamıdan dəqiq bilən ölkə başçısıdır. Bu gün pişim-pişim siyasətini münasib bilirlərsə, buyursunlar, hara qədər mümkündür çəkib aparsınlar. Alternativ variantı Rusiya Abxaziyada, Cənubi Osetiyada, Donbasda göstərib. Qarabağdakı planlarının da artıq konturları sezilməkdə, pişiyin quyruğu görünməkdədir.

Türkiyə ilə ən yüksək hərbi saziş imzalansın və türk qoşunları bizim ordumuzla bərabər Qarabağın rusda, ermənidə qalan hissəsini üzük qaşı kimi dövrələsin!

İkinci – Rusiya qoşunları! Hakimiyyətin siyasəti öz yerində, biz – bu ölkənin insanları vətəndaş mövqeyimizi sərgiləyək. ”Иван, уходи из Карабаха” (İvan, Qarabağdan çıx!) şüarı

ilə Rusiya qoşunlarının Qarabağdan çıxmasını tələb edək. Ümumxalq etiraz hərəkatına başlayaq! Pandemiya dövründə küçələrə tökülməyə ehtiyac yoxdur, kütləvi etiraz aksiyalarını sosial şəbəkələrdə də keçirmək olur.

Unutmayaq – haqlı etiraz Tanrıya ibadətdir! Rus ordusuna "Rədd ol!" demək həm haqq, həm də ləyaqət işidir!

Bunu da unutmayaq – xalqın Qarabağ tələbi olmasaydı, hakimiyyət nə müharibəyə hazırlaşar, nə də başlardı. "Şuşaya yol Bakıdan keçir" şüarımızı "Şuşaya yol Xankəndidən keçir"lə əvəzləməyin zamanı çatıb!

…Nə deyirsiniz, 1945-ci ildə almanların, 1956-ci ildə macarların, 1968-ci ildə çexlərin dediyini biz də təkrarlayaqmı – "Иван, уходи из Карабаха!" deyəkmi?

29 dekabr 2020

# Postmüharibə sindromu

Sovetin təzəcə çökən vaxtları idi. Turist firması Ladoqa gölündə yerləşən Valaam adasına iki günlük gəmi səfəri təşkil edirdi. Sankt-Peterburqa gəlmişkən oranı da görək deyib dostlarla səyahətə çıxmışdıq.

O vaxt Valaam pravoslav monastırı fəaliyyətini bərpa etməyə başlamışdı. Əvvəl əlillər eviymiş. Sonralar oxudum ki, bu gözəl ada və yaraşıqlı qədim dini abidəni kommunistlər dəhşətli bir evə çeviribmiş. Niyə? Necə?

1941-1945 müharibəsindən sonra sovet xalqı qələbənin eyforiyasını yüz minlərlə əlilylə birgə yaşayırdı. Kinolarda görmüş olarsınız əlini, ayağını, gözünü itirmiş müharibə veteranlarını – qoltuq ağacı ilə şəhər meydanlarını dolaşan, döyüş şücaətlərindən şövqlə danışan, qarmon çalan, içib keflənən, yoldan keçənlərlə zarafatlaşan gülərüz qəhrəmanları.

Əslində reallıq başqa idi. Qalib ölkə onu canı bahasına xilas edən müharibə əlillərinə yiyə dura, onların qayğılarını qarşılaya bilmirdi. ”Heç nəyə yaramayan” yüz minlərlə qolsuz, ayaqsız əlil talenin ümidinə buraxılmışdı, səfalət içində sürünür, küçələrdə dilənçilik edirdi. 1940-cı illərin sonunda Stalin rejimi problemi özünə xas metodla həll etməyə girişdi – sovet xalqının gözünü “mazol” eləmiş, sinəsində medallar cingildəyən “dilənçiləri” küçələrdən yığışdırmaq qərarına gəldi.

Yevgeni Kuznetsov “Valaam dəftəri” kitabında bu haqda belə yazır: “…Bunun qeyri-formal, həqiqi səbəbi yüz minlərlə əlsiz, ayaqsız, dilənçi təəssüratı yaradan əlilin vağzallarda, qatarlarda, küçələrdə, harada gəldi orada müzəffər sovet xalqının gözünü yağır eləməsi idi. Sinəsi ordenlə dolu biri çörək dükanın qarşısında dilənir. Yaramaz belə! Nə olur-olsun bunlardan can qurtarmaq gərəkdir! Amma necə etməli, hara yığmalı?

Adalara, köhnə monastırlara! Gözdən-könüldən uzağa. Bir neçə ay ərzində qalib ölkə küçələri “ayıb”dan təmizlədi! Beləcə Kirillo-Belozer, Qoritsk, Aleksandro-Svirsk, Valaam və başqa adalarda əlil evləri yarandı…”

Bir dəfə yazmışdım ki, demokratik toplumlarda olduğu kimi despotik cəmiyyətlərdə də vətəndaşlar bərabərdir. Amma birincidə onlar hər şeydir, ikincidə heç nə.

Bilmirəm postmüharibə sindromu bizdə araşdırılıbmı?! Açığı, rastıma çıxmayıb.

Tibb elmində adına posttravmatik stress pozuntusu deyilən bu sindromu ağır müharibələrdən keçmiş bütün toplumlar yaşayıb. Bunun həmin toplumların demokratik, yaxud despotik olmasına dəxli yoxdur. İstər Vyetnam müharibəsində məğlub olmuş ABŞ kimi azadlıqlara açıq, istərsə də 1941-1945 müharibəsini udmuş SSRİ kimi totalitar ölkə.

Məsələ bundadır ki, bu sindromu tək məğlub tərəf ağrılı keçirmir, elə qaliblər də yaşayır. Söhbət birinin eyforiya, o birinin depressiya halından getmir. Keyi açılan yaranın ağrısı başlayan kimi, müharibə havası çəkildikcə toplumda onun ağır fəsadları yavaş-yavaş boy verir.

Müharibədən çıxmış insanın (toplumun) psixoloji durumundan bəhs edən çox kitab yazılıb, film çəkilib, incəsənət nümunəsi yaradılıb. Məsələn, amerikan rəssam və yazar Tomas Linin ”İki min yardlıqdan baxış” rəsmi kimi. Yaxud çoxunuzun gördüyü ”Rembo: ilk qan” filmi kimi. Stallonenin ən çox bəyəndiyim filmidir.

ABŞ-da Vyetnam müharibəsinin faciələri, travması uzun illər keçməsinə baxmayaraq indi də müzakirə mövzusuna çevrilir. Azadlıqlara qapalı ölkələrdən fərqli olaraq azad və güclü dövlət ən ağrılı problemlərin belə açıq müzakirəsindən qaçmır, həll yollarını cəmiyyətlə birgə tapmağa çalışır.

Özümüzdən danışaq.

Son vaxtlar şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının üzləşdiyi problemlərlə bağlı yazılar ölkə gündəmində daha çox yer almağa başlayıb. Əsgər intiharı, şəhid qəbirləri, əsgər maaşlarının ikiqat azaldılması və bu sayaq xəbərlər fonunda müharibədən qayıtmışların psixoloji durumu, toplumun nəbzi daha aydın duyulur, görünür. Bunlar həmin sindromun ilkin əlamətləridir.

44 günlük qalibiyyət müharibəsindən sonra bizim də təkrar belə bir sindrom yaşayacağımız gözləniləndi. Əvvəlki Qarabağ müharibəsində bu sindromun o qədər də qabarıq üzə çıxmamasının səbəbləri vardı – 20 yanvar şoku, Xocalı qırğınının travması, siyasi təlatümlər sözügedən sindromu kölgədə qoyurdu. İndi də güman etmək olardı ki, sindromu koronavirus pandemiyası və onun daha da qəlizləşdirdiyi işsizlik, yoxsulluq arxa plana keçirər. Amma görünür, belə deyil. Problem üzdədir və getdikcə özünü göstərir.

TV-lərdə gördüyüm odur ki, bizdə şəhid ailələrinə, Qarabağ qazilərinə, müharibə veteranlarına qayğı var: ”YAŞAT” Fondunun yaradılması, evlərin, maşınların verilməsi, əzalarını itirənlərin protezlə təmini, psixoloji yardım üçün Türkiyədən psixoloqların dəvət olunması və başqa işlər. Bunlar problemin həllinə yetərlidirmi? Baxaq görək.

Dövlətimiz varlıdır, bu, postmüharibə sindromunu nisbətən yüngül keçirməyimizə imkan verir – sosial, məişət problemlərini həll etmək baxımdan deyirəm. Amma fikrimcə, bu sindromun ən ağrılı halını bizə Qarabağda rus qoşunlarının, erməni separatçılarının mövcudluğu yaşadacaq.

Əgər Azərbaycan xalqının postmüharibə sindromunu, ələlxüsus da onun depressiv halını yaşamasını istəmiriksə, dirəniş göstərib Rusiya qoşunlarını torpaqlarımızdan çıxarmalıyıq. Əks halda toplum bu sualla üz-üzə qalacaq: minlərlə qurban Qarabağın yarısı rusa-erməniyə qalsınmı deyə verildi?

Hələ çapovulçu, rüşvətxor, güllə səsi eşitməyən, fərari, mənəvi aşınmış məmur ordusu ilə üz-üzə qalan şəhid ailələrinin, qazilərin yaşadıqları haldan danışmıram…

29 yanvar 2021

# Xankəndi

*Birinci yazı*

Hər yerdən danışırlar, Xankəndidən savayı.

Zəngəzurdan danışırlar, İrəvandan danışırlar, Xankəndidən danışmırlar.

Basıb keçib Basarkeçərdən söz açırlar, nə məsələdirsə, Xankəndinin adını tutmurlar.

Dinənin də ağzından vururlar ki, sus, bu, siyasətdir!

Bu necə siyasətdir ki, Rusiya qoşunlarını torpağımıza buraxıb girovuna çevrilmişik? Qarabağda rus ordusu dövlətçiliyimizə də, hakimiyyətin özünə də təhlükədir, təhdiddir! Bunu dərk etdiyinə görə Əbülfəz Elçibəy diraşib o qoşunu çıxarmışdı, bunu bildiyi üçün Heydər Əliyev dirənib geri buraxmırdı. "Kreml köpəyi" Jirinovskinin əvvəllər yox, məhz indi İlham Əliyevə dil uzada bilməsinin əsas səbəbi rus qoşunlarının torpaqlarımızda olmasıdır! Dediyi "biz səni qoruyuruq" sözünün o biri anlamı "biz səni devirə bilərik"dir.

Jirinovskiyə bu hünəri verən Qarabağdakı Rusiya ordusudur!

Bu necə siyasətdir ki, Şuşa mədəniyyət paytaxtı elan edilir, orada festivallar keçirilir, 10 kilometrliyindəki Xankəndi haqda yoxmuş kimi susulur? Sanki erməni-rus nəzarətində qalan yerlər qara dəlikdir, boşluqdur.

10 aydır hakimiyyətin Qarabağ siyasəti barədə tənqid yazmağa əlim gəlmirdi. Özümü bir növ pat vəziyyətində hiss edirdim. Ömrü boyu hakimiyyəti Qarabağ uğrunda barmaq barmağa vurmamaqda ittiham edən biri kimi torpaqların azad olunmasının sevincini yaşayırdım. Fikrən müxalif olan kəsimə, əlalxüsus da Qarabağ camaatına tanış olmalıdır bu hiss.

Müharibədən cəmi 4 gün əvvəl – sentyabrın 23-də dərc etdiyim "Ofşorda qalan Qarabağ" adlı yazımı oxusanız, "pat vəziyyətin" səbəbini anlayacaq, nə demək istədiyimi biləcəksiniz. Yazı bu sözlərlə başlayır: "Sizdən Qarabağı geri alan olmaz, hisslərimizlə oynamayın".

Deməк, ofşor ofşorluğunda, müasir silah da alınıbmış, Daşaltı sıldırımından Şuşaya dırmaşan ordu da yaradılıbmış.

Artıq 10 ay ötüb, eyforiya keçib, daha soyuq başla düşünə, açıq gözlə görə bilirəm. Görürəm ki, hakimiyyət 1993-cü ildə qorumadığı və daha əvvəl getmiş rayonları geri alsa da, Xankəndidə hələ Azərbaycanın suverenliyini bərpa edə bilməyib. O yerlər erməni-rus nəzarətindədir.

Həqiqət bu qədər üzdəykən propaqandalarla niyə başımıza corab hörmək istəyirsiniz?

Rusiya Qarabağa əl qoyub! İşğalçı kimi davranır. Dünyanın heç bir yerində sülhməramlı qoşunlar özlərini rusların Qarabağda apardığı kimi aparmayıb.

Demək, müharibə bitməyib! Dünən Ağdam, Şuşa, Füzuli deyirdiksə, bu gün Xankəndinin davasını döyməliyik. Elə erməniyə, rusa bizim Xankəndi barəsində susmağımız lazımdır desinlər ki, buralar sizlik deyil. Xankəndiyə həsr etdiyiniz nə bir şeiriniz var, nə bir mahnınız, heç xatirəniz də yoxdur.

Erməni-rus işğalında qalan torpaqlara aid iynə gözü xatirəsi olan hər kəs gərək yaza, danışa. Əsgəranı, Ağdərəni, Vəngi, Xocavəndi, Xankəndini Şuşanı, Kəlbəcəri sevdiyimiz kimi tanıyıb sevməsək, ölümünə dirənməsək, yaxın gələcəkdə sülhdən danışmaq mümkün deyil.

Siz siyasətinizlə susun, mən siyasətsiz danışım.

Nənəmin-babamın yaylağı olmuş Kolatağ haqda "Gəncəsər xatirələri" yazısında yazmışam. Vəngə, Gəncəsərə cığırlarla çıxardıq. Oxusanız görəcəksiniz ki, ermənilərin yaşadığı Damğanlı kəndi, yanında alaçıq qurub yayladığımız Turşsu bulağı, uşaqlarla çimişdiyimiz Xaçın çayını ən doğma yerlər kimi xatırlamışam. "Qarakəndli Anuşun təbəssümü" sayaq yazılarda isə uşaqlıq xatirələrimə bugünkü ağlımla baxmışam.

O yazıları bloqumda oxuyub Qarabağın hələ azad edilməyən yerləri ilə tanış ola bilərsiniz, növbəti yazıda isə Xankəndi barədə ən körpə xatirəmi bölüşəcəm sizinlə.

Avqust 2021

# Xankəndi

*İkinci yazı*

Yayda nənəm Bakıdan bizə gələrdi. Gəlişi günlərimizi gur, şən edərdi. Qohum-əqrəba, qonum-qonşu onu görmək üçün bizə yığışar, yaxud da qonaq aparardılar. Ağdamdakı tay-tuşları nənəmi gah Ordubad qızı, gah da Tiflis gəlini çağırardılar. Bu sözləri ən çox qonşumuz Ağca xaladan eşitmişəm.

Ordubadda doğulan nənəmi valideynləri öldüyündən Tiflisdə yaşayan əmisi böyüdüb. Babamla da elə Tiflisdə tanış olublar, özü də "Leyli və Məcnun" operasında. Əmisi arvadı uzaqdan babamı göstərib "Əmin səni ona vermək istəyir" deyibmiş.

Nənəmin gəlin köçdüyü ev durur, uşaq vaxtı atam göstərmişdi mənə. Tiflisdə, keçmiş Şeytanbazar məhəlləsindədir.

Sonra Azərbaycana gəliblər. Babamgilin Şuşadakı mülklərini bolşeviklər əllərindən aldıqlarından Ağdamda yaşayıblar.

Nənəmin uşaqlıq xatirəsində Ordubaddakı həyətləri ərik ağaclarının çiçəkləyən halı ilə qalmışdı. Qəribədir, həyətimiz mənim də yadımda daha çox armud ağaclarının çiçəkləriylə qalıb.

Huşum getdi nənəmin şirin xatirələrinə. Xankəndidən danışırdım axı sizə.

Günəşli yay səhəriydi. Nənəm balkonda qaynatdığı samovar çayından içirdi. Mən də səhərin gözü açılar-açılmaz həyətdə diyircək sürürdüm. Bir də gördüm darvaza açıldı. Dayıcanı Vəzifə xala idi.

Vəzifə xala köklü-köməcli tiflisliydi. Nənəmin qardaşı İsmayıl dayı onunla Tiflisdə tanış olub evlənmişdi, sonra onlar da Ağdama köçmüşdülər. Atam dayısı arvadına "dayıcanı", dayısına isə "İsmayıl bek" deyirdi. "Sonalar gölü"nün sahili" essesində balet azarkeşi o maraqlı kişidən bəhs eləmişəm. Qarabağın ovaxtkı halından, adamlarından xəbər almaq istəsəniz, oxuyarsınız.

Əlqərəz, nənəmlə nə haqdasa söhbət edirdilər. Birdən dayıcanı məni səsləyib "Stepanakertə gedirsən? Gəl səni də aparım, nənəndən icazə almışam" dedi. Onda Xankəndiyə Stepanakert deyirdik.

Həmin gün Xankəndiyə ilk səfərim oldu.

Ağdamdan Xankəndiyə uzun, sarı avtobuslar işləyirdi. Avtobusa Şuşa dayanacağında mindik. On-on beş nəfər olardı. Ermənilər bazarlıqdan qayıdırdılar. İlk dəfəydi yad dildə danışan adamlarla yol gedirdim. Əsgəranda bir neçə nəfər düşdü. Növbəti dayanacaq Xocalı idi. Qoca bir kişi yekə kisəni güclə çəkirdi, ağır idi yükü.

Vəzifə xalanın böyük oğlu Vasif əmi Xankəndidə işləyirdi. Moskvada təhsilini bitirib ayaqqabı fabrikinə təyinat almışdı. Mühəndis idi. Qapını Vasif əminin xanımı Kifayət xala açdı. O, şəhərin doğum evində həkim işləyirdi. Çox mehriban qadın kimi yadımda qalıb. Əvvəllər dadmadığım qəşəng bir şokolad verdi. Mən də şokoladı yeyə-yeyə balkondan aşağı baxırdım. Erməni uşaqları həyətdə oynaşırdılar.

Vəzifə xalanın gəliniylə nəsə söhbəti vardı. Başım çıxmasa da, nəsə ciddi söhbət olduğunu duyurdum. İndi ağlım kəsir ki, boşanma ərəfəsində oğlunun ailəsini xilas eləmək üçün gəlibmiş. Sonra Vasif əmi bu üzügülər qadından ayrılacaqdı.

Kifayət xalanın gəlişimizdən xəbəri yoxmuş, odur ki tələsik yumurta-pomidor bişirdi. İkinci boşqabı da çəkəndə "doymuşam" dedim. Dayıcanı inad elədi: "Ye, qayıdanda nənən görsün ki, kökəlmisən". Onda bir dəri, bir sümük idim. "Bir günə adam kökələr" sualıma verdiyi "Yaxşı yesə, kökələr" cavabına inanıb yedim.

Birlikdə şəhərə düşdük. Qəşəng bir parka gəldik. Kifayət xala bilet alıb məni karuselə mindirdi. Bu mənim ilk karusel macəram oldu.

Sonra o bizdən ayrılıb işə getdi. Həmin gün dayıcanı məni xeyli gəzdirdi. Neçə küçə, park dolaşdıq, mağazaya dəydik, mənə oyuncaq da aldı. Yorulanda bir ağacın altında oturub dondurma da yedik.

O gündən bu şəhərdən xoşum gəldi. Müharibə başlayanadək çox səfərim oldu ora. Yadıma gəlir, bir dəfə erməni dostları atamgili o vaxtlar SSRİ çempionatının ikinci dəstəsində oynayan yerli "Qarabağ"ın Rusiyanın hansına komandası ilə oyununa baxmağa çağırmışdılar. Nə dil töksəm də atam məni o oyuna aparmadı. Bir neçə il sonra "Qarabağ"ın "Neftçi" ilə yoldaşlıq görüşünə məhəlləmizin məndən yaşlı oğlanlarıyla getməyə də icazə verilmədi. Səbəbini sonralar bildim. Belə oyunlarda bizimkilərlə erməni azarkeşləri arasında dava düşə bilərmiş.

Niyə Xankəndidən yazıram?!

Baxıb görürəm ki, Rusiya yenə Qarabağ münaqişəsini qeyri-müəyyən vaxtacan dondurmaq istəyir. Adət eləyib, şəlpəsi işləməyəndə "don"u açıb münaqişəni qızışdırır, xalqları bir-birinə qırdırır. İstəyinə çatır, sonra da həllinə imkan verməyib təzədən dondurub sabaha saxlayır. Bilirəm, şimal ayısının Qarabağa pəncə qoyduğu 10 noyabr 2020-ci ildə mənim kimi çoxunuzun dalağı sancmışdı.

Özümüzü və bir-birimizi aldatmayaq, aldadanımız onsuz da çoxdur. Reallıq budur: Hikmət Sabiroğlu demişkən, 30 illik quyunun dibindən çıxıb minalanmış sahəyə düşmüşük. İndi, bax belə halımızdaca Rusiya Qarabağ problemini konservləşdirir. Bu isə o deməkdir ki, qanlı müharibə və rus boyunduruğu uzaq gələcəyə qədər bizimlədir.

Dediyim odur ki, davamız bitməyib, davam edir. Bu dəfə döyüşlər Xankəndi uğrunda gedəcək. Və bu döyüşləri hərə öz sahəsində – səngərində aparmalıdır. Yazı-pozu adamlarının işi də Qarabağın ermənilər yaşayan şəhər, qəsəbə və kəndlərinin bizə nə qədər doğma olduğunu yazıb, deyib, car çəkməkdir. Yəni Xankəndi susqunluğuna son qoymalıyıq. Elə erməniyə, rusa bizim Xankəndi barəsində susmağımız lazımdır, desinlər ki, buralar sizlik deyil. Xankəndiyə həsr etdiyiniz nə bir şeiriniz var, nə bir mahnınız, heç xatirəniz də yoxdur.

…Ən körpə Xankəndi xatirəmi danışmaqda qəsdim də elə bu idi.

Sentyabr 2021

# Yurd yerindən sürreal reportaj

O gün telejurnalist Səadət Məmmədova məni evimizə qonaq apardı. Qəribə səslənir, bilirəm, amma doğru sözümdür, evimizdə onun qonağı oldum.

Dedi sən samovar qaynada-qaynada evinizdən, küçənizdən, şəhərinizdən danış, biz çəkək.

Nə iş idisə, iki dəfə cəhd elədim, qalaya bilmədim, samovar azca tüstülənib söndü. Niyə belə oldu, anlamadım, İsveçdə samovarı bir dəfəyə qalamağı öyrənmişəm. Dadıma operatorlardan biri çatdı.

Çayı isə özüm dəmlədim. 30 ildən sonra həyətimizdə, evimizin uçuq divarları arasında…

Çəkiliş gün boyu davam elədi. Səadət Məmmədova briqadası ilə işlərini görür, mənsə zamanın o üzünə – uşaqlıq çağına keçmişdim.

***

Operatorlar kameraları müxtəlif yerlərdə quraşdırıb çəkirlər. Jurnalist ağsaçlı müsahibinə suallar verir, o da danışır.

Mən də uşaqlıq illərindən boylanıb baxıram, amma o yaşlı müsahibin nə dediyini anlaya bilmirəm.

Öz işimin dalınca gedirəm – gah evimizin damına çıxıb Xıdırlı dağlarını seyr edirəm, gah da pəncərəmizdən küçəyə boylanıb gəlib-gedənə, maşınlara baxıram.

Sonra bacımla hovuzu doldurub sevimli oyunumuza başladıq. Çaydan qapaqlarından “gəmi” düzəldib döyüşdürdük. Mənim “gəmim” yenə döyüşdən qalib çıxdı, “düşmən gəmi”sini batırdı. Başqa bir oyunu pilləkəndə davam etdirdik, axırda yorulub oturduq, həmişəki kimi anamızın işdən gəlişini pilləkəndə gözlədik.

Darvazanın açılmasından bildim ki, gələn atamdır. Maşını içəri saldı. Təzə əkdiyi güllərin dibi qurumuşdu, gözü o saat aldı. Qoymazdı gülün dibi quruya. Şlanqı güllərə sarı çəkdi.

Evimizin kirayənişin qızları da dərsdən qayıtmışdılar. Otaqlarından piano səsi gəlirdi, Bethovenin “Ay işığı” sonatasıydı.

…Səadət Məmmədova ağsaçlı müsahibinə suallar verirdi…

Onları həyətimizdə qoyub, küçəyə çıxdım. Şəhəri gəzməyə getdim. Yorulanacan dolandım. Axşama doğru geri qayıtdım.

Şuşa dayanacağına çatmadan, “Köhnə hamam”ın tinindən sağa burulub küçəmizə yetişdim. Açıq pəncərədən bayıra axan hamam qoxusu burnuma dəydi. “Uçilişa”nın qızları ilə yenə üz-üzə gəlirik, saçımı qarışdırır, üzümə gülürlər.

Uşaqlarla milis küçəsində futbola bir azdan başlayacağıq.

Şahin təzə oyuncaqlarını küçəyə çıxarıb.

Sima xala oğlanlarının əlindən tutub şəhərə gəzməyə aparır.

Yolun o üzündə Qaçay əmi siqaret çəkir.

Açıq qapısından görünən həyətində Ələkbər əmi arvadı Marusya xalaya qızılgül yığır.

Ramiz həkimin balaca şıltaq qızı Elnarə qaça-qaça evlərinə gedir.

Rza yenə pəncərəni açıb, gitarasının səsi aləmə yayılır.

Çəpər qonşumuz Elza müəllimə məktəbdən dönür, üzündəki xoş təbəssümlə mənə salam verir.

Mənsə Tanrı dərgahına keçirəmmiş kimi səma rəngli darvazamızı açıb həyətimizə girirəm.

Nənəm eyvandakı uzun masanın o başında buğlanan samovardan çay süzür. Stəkana qonşu Ağca arvadın göndərdiyi builki qarağat mürəbbəsindən salıb qarışdırır. Hörümçək toru kimi dəqiq işlənmiş qırış sifətinə yaraşıq verən məhrəm gülüşlə “Çayını soyutma” deyir.

Çay içə-içə eyvandan baxıram.

Meşə kimi sıx həyətimizin ayağındakı hindən toyuğun qaqqıltısı həyəti başına götürüb. Deməк, yumurtlayıb.

Alt evdə piano susub, indi növbə skripkanındır. Pərvanədir, Paqanininin “La Campanella”sını çalır.

…Səadət Məmmədova ağsaçlı müsahibinə sual verir:

– Evinizi necə xatırlayırsınız?

28 may 2023

# Yaddaşı silinən şəhər

*23 iyul 1993-cü ildən 30 il keçir*

İki il yarım qabaq "Güvən mənə, inanım sənə" yazısında demişdim: Azərbaycanın ən böyük dərdi dövlətlə vətəndaş arasında qarşılıqlı inamın, etimadın olmamasıdır. İndi də problemlərimizin qaynağını sovetin bu mirasında görürəm. "Dövlət vətəndaşına arxalanmalı, onunla açıq dialoqda olmalıdır… Güclü dövlət, azad cəmiyyət və firavan həyat yalnız dövlətlə vətəndaşın qarşılıqlı etimadı yarananda, onlar bir-birinə güvəndiyi zaman qurulacaq. Güvən mənə, inanım sənə, dövlətim!" yazmışdım.

23 iyul doğulub böyüdüyüm Ağdamın işğal günü kimi hopub içimə. 30 il əvvəlki o məşum gündən çox yazmışam, bir də təkrar dönmürəm. Bu gün yazacağım başqadır.

Dövlətin vəzifəsi vətəndaşın təhlükəsizliyini təmin etmək, əmlak hüququ daxil bütün haqlarını qorumaqdır. Vətəndaş dövləti ona görə qurub ki, onu hər təhlükədən qorusun. Bəzən dövlətin özü vətəndaş üçün böyük təhlükəyə çevrilir, ondan danışmıram bu yazıda. Ondan danışıram ki, 1993-cü ilin yayında dövlət öz torpağını, vətəndaşını qoruya bilmədi. Bir neçə ayın içində 6 rayon işğal olundu, yüz minlərlə insan qaçqın düşdü, 30 ilə yaxın məşəqqətli həyat yaşadı. Hələ də tam bitməyən məşəqqət!

İndi o bölgələr azad olunub, yenidən qurulur. Görünən odur ki, bu işdə də dövlət-vətəndaş birliyi yoxdur. Dövlət vətəndaşın rəyini, istəyini nəinki soruşmur, heç deyilənə əhəmiyyət də vermir. Vətəndaş dövlətinə inanmır, dövlət də ona güvənmir.

***

Müharibə zamanı tam dağılmış şəhərlərin bərpa olunmasına aid çox nümunə var. Bu nümunələrdən çıxış edərək şəhərləri bərpa edən dövlətləri iki qrupa bölərdim: tarixinə, vətəndaşına, onun əmlak hüququna sayğı göstərən və göstərməyən.

İkinci Dünya müharibəsindən sonra dağılmış Avropa şəhərlərinin bərpasına bu cür ikili yanaşma oldu. Çox yox, üç şəhərdən misal deyim: Drezden, Varşava, bir də Minsk.

İlk iki şəhərin mərkəzi tarixi hissəsi olduğu kimi tikilib. Tarixi abidələrin bərpası on illər boyu davam edib. Drezdendə bəzi bərpa işlərinə hətta Almaniya 1990-cı ildə birləşəndən sonra başlanıb. Varşavanı bərpa edəndə tək arxitekturanı yox, binaların əvvəlki rəngini də saxlayıblar. Bu öz tarixinə, tarixi yaddaşına hörmət edən dövlətin davranış mədəniyyəti idi.

Minskdə isə belə olmadı. Şəhəri dairəvi sistem üzrə, bir növ Moskvaya bənzədərək yenidən tikdilər. Əvvəlki Minskdən heç bir əsər-əlamət qalmadı. Şəhərin qədim küçələrinin yerində geniş prospektlər çəkildi, tarixi binaların əvəzinə stalinçi neoklassizm stilində meydanlar salındı, evlər tikildi.

Yaşlı belorusdan eşitmişdim, deyirdi kommunistlər Minskin yaddaşını sildilər.

***

Baş plana görə, yeni Ağdam əvvəlki şəhər və ətrafındakı 8 kəndi əhatə edəcək. Deyirlər 100 minlik bir şəhər olacaq. Yaxşı fikirdir. Amma istəməzdim yeni tikiləcək şəhərlərimiz ənənəvi standart, qutuya bənzəyən dördkünc, zövqsüz evlərdən ibarət olsun.

Şəhərimiz işğaldan azad olunan gündən onu xəyalımda bir başqa cür qururam.

Mənim xəyalımda saldığım şəhərin mərkəzi hissəsi dövlət idarələri və şəxsi evlərdən ibarətdir. Mərkəzi hissə deyəndə bir ucu köhnə 50 nömrəli peşə məktəbindən "Abidə"yə qədər, o biri yandan da Sarıtəpədən başlayıb Muradbəyliyəcən olan hissəni nəzərdə tuturam.

Tarixi abidələr, inzibati binalar öz yerində, mənim "baş planımda" hər kəsə ata yurdunda ev tikməyə imkan yaradılır. Dövlət əhaliyə çoxsaylı ev çertyojları təqdim edir ki, özfəaliyyət olmasın, şəhərin arxitekturası pozulmasın. Evin smetası tutulur və elan edilir. Hər ailə üçün ümumi məbləği, təxmini qiymət deyirəm, 100 min manat olan 3 otaqdan ibarət kürsülü ev tikilir. Amma təqdim olunan başqa layihələrdə 5, 7 otaqlı, yaxud 2, 3 mərtəbəli evlər də olur, məsələn, 150, 200 min manat dəyərində. Daha böyük, yaraşıqlı ev tikmək istəyən sakin dövlətin verdiyi 100 min manata öz əlavəsini edib istədiyi evi tikə bilir. Hər kəs zövqünə, imkanına uyğun ev tikdirir.

Mərkəzi hissədəki küçələr olduğu kimi qalır. İnsanlar sağ qalan qonşularla yenidən bir məhəllədə yaşamağa davam edir. Burada hər kəs öz torpaq sahəsinin müəyyən qədərini şəhərin ümumi ehtiyaclarının həllinə güzəşt edər. Məsələn, mən 6 sot həyətimdən bir sotunu, lap iki sotunu verərəm ki, daha geniş küçəmiz olsun, yaşıl, gül-çiçəkli parklar salınsın, məhəllələr arasında idman meydançaları, istirahət mərkəzləri tikilsin. Əminəm, hər kəs şəxsi torpağından pay verər.

İstər şəhərin mərkəzi olsun, istərsə ətrafı, bütün yerlər öz adları ilə çağırılır. Ətraf kəndlərin adı şəhərin ərazi adları kimi qalır: Ağdam şəhərinin Seyidli, Ətyeməzli, Qiyaslı, Xıdırlı və sair rayonları…

Şəhərin, kəndlərin məhəllə adlarını da saxlamaq mümkündür – avtobus dayanacaqlarında: "İmarət", "Hamam məhləsi", "Molla Qurbanlılar", "Lahıclar", "Təpə Məhlə", "Çuxur məhlə", "Ayağıyalınlar" dayanacaqları kimi.

"Dostluq kinoteatrı", növbəti dayanacaq "Beşmərtəbə!"

Tarix silinməsin, şəhərin yaddaşı pozulmasın deyə!

Bəs işğaldan azad olunmuş Qarabağ şəhərlərini realda necə bərpa edirik? Bu bərpa işlərini dövlət vətəndaşla birgə aparırmı?

Belə görünür ki, bu işdə də sovet mirası özünü göstərir. Yaşlı belorusun sözü olmasın, yaddaşı silinmiş şəhərlər tikirik?

21 iyul 2023

# Qarakəndli Anuşun təbəssümü

Ağdamın taksi sürücülərinin Xankəndi, Əsgəranla yanaşı Qarabağın yaxın erməni kəndlərində dost-tanışları olardı. Şəhərin dəmiryol vağzalından, bazarından yaranan sürücü-sərnişin münasibəti zaman keçdikcə istiləşib tanışlıq, bəzən lap dostluq səviyyəsinəcən çatırdı. Hələ Xankəndiyə dəmiryol çəkilməmişdən qabaq Ağdamda qatardan düşən ermənilər ilk öncə göz-göz eləyib tanış sürücü axtarardılar. Bazarlığa gələnlərsə əvvəlcədən geri qayıdacaqları tanış sürücüylə vədələşərdilər.

Atamın da belə erməni tanışları az deyildi. Qarakəndli Rubenlə isə xüsusi münasibəti vardı. Ruben hər dəfə İrəvana gedəndə atama xəbər edərdi. Uzaq şəhərlərə müştəri düşəndə atam taksini həyətdə saxlayar, öz "Jiquli"sini sürərdi.

Bir gün dərsdən çıxanda atamın taksisini bazarın qabağında gördüm. Soruşub-eləmədən mindim ki, gedəndə məni də evə düşürsün. Sən demə, atam, onun diliylə desəm "klent" gözləyirmiş. "Yemişcana iki "klent" var, istəyirsən, bir yerdə gedək, qoyaq qayıdaq".

Çox çəkmədi yaşlı ər-arvad xeyli bazarlıqla gəldilər. Yol boyu atamla söhbətlərindən bildim ki, çoxdanın tanışlarıdılar. Erməni olsalar da elə bizim ləhcədə danışırdılar. Füzuliyə tərəf xeyli gedəndən sonra maşınımız sağa buruldu, üzü yuxarı meşəli dağa sarı yol aldı. Onları evlərinə qoyub qayıdanda atam yolüstü Qarakəndə döndü. "Rubenə bir salam verək gedək. Həm də görək tut arağından, çaxırdan nəyi var".

Həyətdə bizi Rubenin arvadı Anuş qarşıladı. Qollarını yana açıb atamı elə bərk qucaqladı, üzündən elə öpdü ki, neçə ay Bakıda xəstə yatıb evə dönəndə heç anam onu belə qarşılamamışdı. Açığı onun bu hərəkətindən xoşum gəlmədi. Qısqanclığa bənzər bir hiss idi. Bəs necə, yad arvad atamı qucaqlayıb öpürdü.

Onun bizi evə dəvətini atam qəbul eləmədi, Ruben evdə deyil. "Rubeni neynirsən, mən ki evdəyəm. Yeməyim də var, araq da, çaxır da", deyib atamın qoluna girdi, mehriban-mehriban evə tərəf çəkdi. Atam onun xoş inadı qarşısında sınmadı. "Yemişcana klent gətirmişdim, dedim dönüm bir salam verim. İndi işim var, başqa vaxt Ruben evdə olanda gələrəm".

Evin kişisi evdə olmadığına görə atam içəri keçmədi və biz geri qayıtdıq.

***

Qarabağ separatçılarının başçıcı Araik Arutunyanla Rusiyanın adına "sülhməramlı" deyilən qoşunlarının komandanı Rüstəm Muradovun isti qucaqlaşma fotosunda Araikin gülər üzündəki təbəssümü o vaxt atamı qucaqlayan Anuşun şeytani təbəssümünün eynidir.

Mən çox ölkələr gəzmişəm, müxtəlif xalqların nümayəndələriylə təmasda olmuşam. Odur ki ürəklə deyə bilərəm: qadın, ya kişi fərq eləməz, dünyanın ən qılıqlı xalqı ermənidir. Onların işi düşəndə pişiklənmək qabiliyyəti, delikates ev yeyəcəklərindən süfrəsi, şirindil qadınları qarşısında hər özündən deyən kişi duruş gətirməz.

Yaşlı qarabağlılar xatırlayır ki, hər "vurub-tutan" oğlanın, kişinin Xankəndidə, erməni kəndlərində xanım "dostu" vardı. 1988-ci ildə hadisələr təzə başlayanda Ağdamdakı mitinqlərin birində Xuraman Abbasova boş yerə üzünü kişilərə tutub deməmişdi: "O baş qaldıranlar sizin balalarınızdı. Zəhmət çəkin, gedin dərslərini verin".

Bunları niyə yazıram?

Arutunyanın rus generalını elə qucaqlanması sizə təəccüblü gəlməsin. Biz belə qucaqlaşmaları sovet dövründə çox görmüşük. Ermənilər o generalları, lap əsgərləri də, tut arağıyla, çoşka kababıyla, qılıqbaz arvadlarla elə tovlayacaqlar ki, ömürləri boyu ordan çıxmaq istəməyəcəklər.

Odur ki nə qədər məsti-xumar olmayıblar, o rus ordusunu Qarabağdan çıxarmaq haqda ciddi-ciddi düşünməliyik.

***

Bir də onu deyim ki, indi ta yazıq Anuşu qınamıram. Mənim əzik-üzük sifətimə baxmayın, atam yaraşıqlı kişi idi.

16 dekabr 2020

# Ağdama yol Bakıdan keçir

Camaatımızın təsəvvüründə erməninin qorxaq obrazı vardı. Gözümü açandan eşitdiyim “Erməni qan gördü” olub.

Böyüdüyüm mühitdə erməni kişisini işlək fəhlə, bacarıqlı usta; qadınını yaxşı turşu qoyan, kefin istəyən süfrə açan xoşrəftar kimi tanıdıblar.

İlk gördüyüm erməninin adı Cavanşir idi. Evimizin alt mərtəbəsindəki otağa qapı açırdı. Külüngü yerə qoyub əlinin arxasıyla alnının tərini silərdi. Bir suyu sovetin məşhur “Qaraçı” filminin qəhrəmanı Budulaya oxşayırdı.

Sadə, şirindil, gülərüz, qılıqlı, bir qədər də yazıq görkəmi vardı Qarabağ ermənilərinin. Bu adamların bir gün bizimlə torpaq davasına qalxacağı yüz il qala ağla gəlməzdi. Desəydilər şəhərimizin ən ürəyiyuxa sakini Qız Qulu Məhəmməd Əliylə rinqə çıxıb, elə birinci raunddaca onu basıb-döyüb; yaxud toylarda skripka çalan Dondi London orkestrinə birinci skripkaçı kimi dəvət alıb, inanardıq, amma usta Aşotun Stepanakert bazarında şoraba satan Haykanuşa qoşulub Qarabağı bizdən alacağı yuxumuza belə girməzdi.

Ramiz Rövşən “Ruhlar şəhəri” kitabına yazdığı ön sözdə ağdamlıları belə təsvir edib: “Şuşa Qarabağın ən gözəl, Ağdamsa ən varlı şəhəri sayılırdı. …Ermənilər Ağdamı axırıncı daşına, kərpicinə, taxtasına, mismarınacan söküb-aparıblar və o tikinti materiallarının hesabına Stepanakerti təzədən qurublar. Amma mən inanmıram ki, bu gün Ağdamın hesabına tikilmiş o evlərdə yaşayan ermənilər Stepanakerti də varlı şəhər saysınlar. Çünki varlı olmaq təkcə dəbdəbəli ev-eşiklə, pulla, malla ölçülmür. Bu həm də insanın içindən gələn bir hissdi, duyğudu. Hər halda mən bir vaxtlar “haralısan” sualına bütün Qarabağda ağdamlılar kimi qürurla, hətta bir az da təkəbbürlə cavab verənlərə rast gəlməmişdim. Və bəlkə də Ağdamı o cürə qəddarlıqla dağıdıb xaraba qoyan ermənilər ağdamlılardan həm də o qürurun, təkəbbürün acığını çıxmışdılar”.

Hardan idi bu qorxmazlıq, ermənini ciddiyə almamaq?

100 il qabaqkı davadan nənə-babaların bizə ötürdüyü fikir bu olub ki, erməni qorxaqdır. Cümhuriyyət ordusu Xankəndini, Şuşanı azad edəndən erməni adamların yaddaşında imdad diləyən, yazıq kimi qalmışdı. Qiyam qaldıran ermənilər məhz o məğlubiyyəti dadandan – bizim sərt üzümüzü görəndən sonra beləcə məzluma dönüblər: “Erməni qan gördü”.

Bizim tanıdığımız “yazıq” Qarabağ erməniləriydi. Yerevan ermənisi, Livan ermənisi, Fransa ermənisi, Kaliforniya ermənisi-filan görməmişdik. 100 il boyunca dünyanın dörd bir tərəfində erməni kilsələrindəki millətçi ideologiya təbliğindən, neçə-neçə siyasi partiya, birlik, fond yaratmalarından, hər rejimdə – kommunist (SSRİ), islamçı (İran), demokratik (ABŞ, Fransa) – hər ölkədə təşkilatlanmaq bacarıqlarından xəbərsiz idik.

Tariximizi də bilmirdik! Rus-sovet siyasəti, öz kommunist rəhbərlərimiz öyrənməyə macal verməyiblər, özümüz də tariximizə, taleyimizə biganə olmuşuq, unutmuşuq, maraqlanmamışıq. Bilməmişik ki, İrəvan xanlığında dövlət qurmağı bacaran ermənilər buna davamlı deportasiya siyasətləriylə nail olublar. Qulağımızın dibində eşitməmişik ki, ermənilər dəfələrlə Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırıblar. Bundan xəbər tutan

rəhbərlərimiz isə susublar! Kremldə yerlərini şirin salmaq üçün ermənilərə öz xalqından qat-qat artıq imtiyazlar tanıyıblar.

“Xruşşov dövrünün Qarabağ şəhidi” yazısında bəhs etdiyim Nazim Hacıyev kimilərini çıxıram.

Bizim bilib tanıdığımız “qorxaq” Qarabağ erməniləriydi. Odur ki, 1988-ci ildə onların Xankəndidəki “Miatsum” mitinqinə Azərbaycanda ilk cavab Ağdamda verildi. Minlərlə insan əliyalın Xankəndiyə yürüş elədi.

Qarabağın Dardaneli (ifadə Məhəmməd Əmin Rəsulzadəyə aiddir – V.Q.) Əsgəranda nə baş verdi, sonra “şanlı” Azərbaycan milisi, DTK-sı o yürüşçülərin başına nə oyunlar açdı? Mövzudan uzaqlaşaram deyə bunlara toxunmuram. Bilmək istəyənlərə sadəcə “Azadlıq qiymətinə foto” yazısını oxumağı tövsiyə edirəm. Sonuncu Qarabağ yürüşündən sonra keçirilən həbslərlə paralellər aparmağı da oxuculara buraxıram.

O vaxt kimi dindirsən sözü bu olardı: Allahın ermənisinə bax, qudurub!

Ağdamın kolxoz sədrlərindən birinin “Günün ekranı” proqramına müsahibəsini xatırlayıram: “Nə səngər? Erməni kimdir ki, səngər qazaq”.

Sən demə, elə bu dikbaşlığımızdan yaxşı xəbərdar olan erməni başbilənləri dizimizi yerə gətirəcək zəif yerimizi də yaxşı öyrənibmişlər, içimizə nifaq toxumu səpməyin yollarınacan bilirmişlər. Sanki bizi bizdən yaxşı tanıyırmışlar.

Onlar milli davada yumruq kimi birləşməyi, təşkilatlanmağı bacaranda, biz yumruqdan açılmış barmaqlar ətrafında toplaşıb bir-birimizlə hakimiyyət davasına qalxdıq. Nəticə – bu günümüzdür!

Ağdamın növbəti işğal günündə bunları niyə xatırlayıram?

Ağdam müsibətindən – 23 iyul 1993-cü ildən bir neçə gün sonra çəkilən bir video var. Bir ayağını hələ 1 il əvvəl Xromord döyüşündə itirmiş Azər yana-yana danışır. Deyir ki, bir kilometrlik bu səngərdəkilərin hamısı ağdamlıdır, hamı ailəsini qohum-əqrəba, dost-tanış evində, çadır şəhərciyində yerləşdirib qayıdıb.

“3 kəndi geri aldıq 2 saata, əmr gəldi ki, dayanın” deyir. Soruşur, nəyə görə? Deyir bizə heç nə lazım deyil, silahımız da, texnikamız da var, mane olmasın rəhbərlik, imkan versin, oyun oynamasınlar, şəhərimizi geri alaq.

Sonra bilirsiniz nə oldu? Bu döyüşkən batalyon da darmadağın edildi o biriləri kimi. Azərin yanındakı batalyon komandiri Cəfər öldürüldü, döyüşçülər pərən-pərən salındı, tutuldular, güllələndilər, qaça bilən canını götürüb qaçdı. Bunu kim elədi?

İyulun 12-də Tovuz sərhədindəki döyüşlərə xalqın reaksiyası 27 il əvvəl çəkilmiş o videodakı oğulların qələbə əzminin bu gün də ölmədiyini göstərdi. Hər belə döyüşdə şəhid olmayınca tanımadığımız neçə-neçə oğullar üzə çıxır. Mübariz İbrahimov, Raquf Orucov, Polad Həşimov kimi…

Son olaylar neçə ildir bəzən tərəddüdlə yazdığım "Qarabağa yol İrəvandan, Moskvadan yox, Bakıdan keçir" inamımı möhkəmlətdi.

İşğalının 27-ci ilində bir daha əmin oldum ki, Ağdama yol Bakıdan keçir! Bu yolu keçməyə xalqın əzmi var, bir qalır bu əzmi qələbəyə çevirməyə hünəri yetən lider.

Qələbə ruhu ölməyən, enerjisi aşıb-daşan xalq öz liderini də ortaya çıxaracaq. Təki o ruh ölməsin, enerji tükənməsin!

İyul 2020

# Xruşşov dövrünün Qarabağ şəhidi

Təzə öyrəndiklərin təzə-təzə suallar doğmasa olmaz ki!

Çingiz Hüseynovun “Минувшее – навстречу” (“Mənə sarı addımlayan keçmişim”) memuarının “Şıxəli Qurbanov, yaxud “Borc və şərəf adamları” bölümündə 60-cı illərdə görkəmli dövlət xadimlərinin, milli rəhbər kadrların bir-birinin ardınca müəmmalı ölüm sualı kimi.

Azərbaycan Kommunist Partiyasının ideologiya üzrə katibi Nazim Hacıyevun 38 yaşında həyatdan köçməsinin baiskarlarını güman etmək olsa da, Şıxəli Qurbanovun 41, komsomolun 1-ci katibi Maqsud Əlizadənin 34 yaşında ölümünün əsl səbəbləri hələ də sirli qalır.

Kitabda xeyli adamın adı keçir, diqqətimi xüsusi çəkən Nazim Hacıyev haqqında bir qədər ətraflı yazmaq istədim.

Memuarda oxuyuram ki, Nazim Hacıyev ölümündən iki il əvvəl ağır stress keçirib. Onu yatağa salan bu ölümcül stressin səbəbini, düşünürəm, hamımız bilməliyik.

SSRİ ilə münasibətlərin yumşalmasından istifadə edən ABŞ-dakı erməni diasporu sovet hökumətinə müraciət edərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş edir. Krımın Rusiyadan alınıb Ukraynaya verilməsi qərarını nümunə gətirən Mikoyan məsələnin Siyasi Büroda müzakirəsinə nail olur. Komissiya yaradılır. Bölgəyə göndərilən briqada arayışlarla qayıdır. Qarabağın tarixi və hüquqi cəhətdən Azərbaycan torpağı olmasını sübut edən bir arayış isə mərkəzdə suallara səbəb olur. Partiyanın baş ideoloqu Suslov zəng edərək arayışı hazırlayan Nazim Hacıyevi Moskvaya çağırır.

36 yaşlı Nazim Hacıyev Siyasi Büroda SSRİ kimi nəhəng dövlətin üzü üzlər görmüş azman liderlərinin qarşısında Qarabağın Azərbaycan torpağı olmasını dəlillərlə əsaslandırır.

Kitabdan oxuyaq:

“- Xruşşov: “Məruzəçiyə kimin sualı var?”

– Mikoyan Hacıyevə “sən” deyə müraciət edərək: “Sən qatı millətçiymişsən ki! Sənə belə bir vəzifəni necə həvalə ediblər?”

– Xruşşov Mikoyana: “Şəxsiləşdirmə, mövqeyini bildir”.

– Mikoyan: “Beynəlmiləlçilik prinsipindən çıxış edərək, hesab edirəm ki, erməni diasporunun xahişini yerinə yetirməliyik, xüsusilə, Amerika ilə dostluq münasibətlərimizin yarandığı indiki vaxtda bu, əhəmiyyətlidir”.

Nazim Hacıyevin inadlı dirənişiylə keçən uzun müzakirələrə Xruşşov belə yekun vurur: “Sərhədlərə əl vursaq bir “bardak” yaranar ki, sümükləri yığışdıra bilmərik. Odur ki, sovet ailəsində dostcasına yaşamağa davam edək”.

Anlaşılan odur ki, Qarabağın elə o vaxt Ermənistana verilməsi üçün hər cür “beynəlmiləl zəmin” varmış. Sonralar bütöv bir xalqın qoruya bilmədiyi Qarabağı Nazim Hacıyev tək canına, həyatı bahasına qoruya bilib. Həmin iclasda yaşadığı stress, sonrakı basqı, təhdid və

təqiblər öz işini görüb – çox çəkməyib, Nazim Hacıyev yatağa düşüb, vəfat edib. Bəlkə də ölümü sürətləndirən başqa səbəblər də olub.

Dil, milli adət-ənənə, vətən təəssübü çəkən bu siyasi xadimlər daha yüksək vəzifələr tutacaqdı. Kremlə isə təəssübkeş milli kardlar lazım deyildi!

Gənc bir partiya xadiminin qoca kommunist "başyeyən"lərlə döş-döşə gəlməsi rəğbət duyğusu yaratmaya bilməzdi. "Nazim Hacıyev" yazıb axtarış saytlarına baş vurdum. Yalnız Vikipediyanın ruscası onun haqqında bioqrafik məlumat dərc edib.

Azərbaycan türkcəsində isə tək-tük halda rastladım, məsələn, Əziz Mirəhmədov, Cəmil Əlibəyov, İlyas Tapdıq, Nodar Şaşıqoğlu məqalə və müsahibələrində onun adını çəkiblər. Osman Mirzəyevin ondan bir oçerk yazdığını da oxudum, öçerkin özünü tapmasam da. Bakıda 400 metrlik bir küçə də var "Nazim Hacıyev" adında, amma bilmədim həmin adamdırmı!?

Kinomuzun "Mixaylo"su Nodar Şaşıqoğlunun müsahibəsindən:

"O zaman Nazim Hacıyev adlı bir şəxs vardı. Mərkəzi Komitədə təbliğat və təşviqat üzrə katib idi. Yəqin, daha böyük vəzifə tutacaqdı. Vaxtsız ölüm imkan vermədi. Mən onun xatirəsini həmişə əziz tuturam. Bu insan Azərbaycan incəsənətinə o qədər can yandırırdı ki, hər bir sənət xadiminin necə yaşadığını, nəyə ehtiyacı olduğunu xırdalığına qədər bilirdi və kömək eləyirdi. O cümlədən mənim evlə təmin olunmağıma da kömək etdi".

İçində həqiqət bildiyinə sadiqliyin varsa, hansı ideologiyaya qulluğun önəm kəsb eləmir, ideologiyalar da hakimiyyətlər kimi gəldi-gedərdi. Əsas odur ki, bu günkü şüar vətənpərvərliyi zamanında əsl vətənsevərləri seçə bilək, onları tanıyaq, yad edək, örnək göstərək.

Xüsusən də Xuruşşov dövrünün Qarabağ şəhidi – Nazim Hacıyev kimi tanınmayanları!

Dekabr 2016

P.S. Nazim Hacıyevin oğlu professor Aydın Hacıyev Rusiyanın Arxangelsk şəhərində yaşayır. Onu qohumu Hikmət Hacızadənin bələdçiliyilə feysbukda tapdım. Atasının şəkillərini istədim. Göndərdi. Hələ üstəlik atası haqda yazdığı "Все понять, но не все простить" adlı kitabını göndərəcəyini də söz verdi.

# Şuşalı foto

*1 mayda Qarabağ düşüncələri*

1981-ci ilin yayı yaddaşımda Şuşaya aşiq olduğum yay kimi qalıb. O yayın az qala hər günü dünən kimi yadımdadır. Hövsələni basıb yazsan, inanın, bir kitab eləyər…

Atamın dostları Hafiz əmi, Vahid əmi ailələriylə birgə "Turbaza"ya yaxın beşmərtəbəli evin axırıncı mərtəbəsində üzbəüz mənzilləri kirayələmişdilər. Məni də aparmışdılar. Gah Hafiz əmigildə, gah da Vahid əmigildə qalırdım. Şəhərin yuxarı başı olduğundan hər yan ovuc içi kimi görünürdü.

Hafiz Sədrzadə məşhur Şuşa müctəhidi Məhəmməd ağanın oğludur. Ağdam, Şuşa məscidlərində azan onun lentə alınmış səsiylə verilirdi.

Ötən əsrin 70-80-ci illərində isə Hafiz əmi azan oxumurdu, Qarabağ toylarının ən hörmətli xanəndələrindən idi. Yanıqlı səsinə indi də tüküm biz-biz olur. İllər öncə "Şeyximizin bəyənmədiyi azan sədası dünyanı dolaşır" yazısında ondan söz açmışam.

Vahid əmi isə Ağdamda qonşumuz idi. Dəli-dolu adam. Atamın xətrini çox istəyirdi. Yaşda xeyli kiçik olsa da, atam onunla tay-tuşu kimi rəftar edirdi. 02-68 AQE nömrəli yaşıl "Jiquli"miz vardı. O yay maşınımızı atamdan çox Vahid əmi sürən gördüm.

Vahid əminin yoldaşı çox qısqanc idi. Əlində durbin bütün günü balkonda bitib şəhərdə yaşıl "Jiqilu"ni gəzirdi. Qəribəydi, maşın hər gün dörd bir yanı dolansa da, axşama yaxın "Turbaza"ya gəlirdi. Belə vaxtlarda xanımın dediklərini eşitməmək üçün ən yaxşı yol Hafiz əmigilə keçmək idi.

Nə baş verdiyini anlamırdım deyə uşaq marağı məni bürüyürdü. Bir gün "ver mən də baxım" dedim. Durbini alıb baxanda nə görsəm yaxşıdır – Vahid əmi maşına söykənib kimisə gözləyir. Və budur, bir sarısaç turist qadın gəldi, maşınımıza minib teleqüllə tərəfə, oradan da aşıb Allah bilir hara getdilər.

Mən adaşımı çox istəyirdim. Bəlkə bu istəyə görəydi ki, hətta o boyda "cinayət"i bizim maşında elədiyini atama da demədim.

Bütün günü Vısotskinin mahnılarına qulaq asırdı. Hökumət haqda o vaxt anlamadığım qəribə şeylər danışırdı.

Urusetdən, başqa rayonlardan qonaqları gələndə həyətində açdığı məclisin səsi Ağdamın hər yanına çatmasa da, bizim "Köhnə hamam" məhləmizi başına götürürdü. Gah Rəmişin gitarasının səsi, gah Vısotskinin mahnıları ətrafa yayılırdı.

Məclislərin birində Rəmişin piano ifasını yazıb bağışlamışdı mənə. Heyif, itirdim sonralar.

Qarabağda dava başlayanda, xüsusən də yollar bağlananda bölgəyə məsul olan məmur Polyaniçko cəsur adam kimi məhz onu özünə sürücü götürdü. Yaşadığı stresslər özünü göstərdi. Ağdamın işğalından əvvəl ürəktutmasından öldü.

***

Həmin yay atam dayımla Şuşadakı İstirahət evində dincəlirdilər. Hərdən onlarla da qalırdım. Ən çox da kino çəkilən günlər.

Anar Üzeyir Hacıbəyovdan film çəkirdi. "Uzun ömrün akkordları"nı. Çəkilişlər İstirahət evinin bağında aparılırdı. Elə xoşum gəlirdi o çəkilişlərə baxmaqdan! Ən çox da kadrarxası olayları seyr etməkdən zövq alırdım. Kino çəkənlər səhnəyə baxırdı, mən də onlara. Elə özü kino kimi bir şey idi kino çəkmək.

Atamla, dayımla birlikdə baxardıq. Onlar Cabbar Qaryağdı rolunu oynayan Qədir Rüstəmova azarkeşlik edirdilər. Mən də Anara.

Bir gün "Qaya" restoranında xəngəl yeyirdik. Anar da çəkiliş qrupundan bir neçə adamla aralıda, çinarın altındakı masada əyləşmişdi. Gördük Qədir Rüstəmov gəlir. Dayımı gözü aldı, masamıza yaxınlaşdı. Stul çəkib oturdu. Ona dəhşət maraqla baxırdım. Bəs necə, Ağdam camaatının kumiriylə bir stolda oturmuşdum.

Dayımın Qədirin yanında əməllicə hörməti varmış, nə desə, Qədir elə "düz deyirsən" deyirdi. Dayım gileyləndi ki, Anarı incitdiyindən danışırlar, çəkilişlərə gecikirsən deyirlər.

"Ay Sabir, maa deyirlər ki, hərifsən, ayağını yerə bərk dirəsən Anardan lap çox pul alarsan". Qədirin bu sözünə dayım belə cavab verdi: "O pulu onsuz da toylardan qazanırsan də, burda səni tarixə yazırlar. O gün biz də qıraxdan baxırdıq. Əla alınır sənin rolun. Kişiləri incitmə".

"Nə deyim vallah, o da düzdür, düz sözə nə deyəsən" – Qədir Rüstəmov təslim oldu.

Yemək yemədi Qədir. Eləcə bir neçə stəkan çay içib getdi. Biz duranda dayım Anargilə yaxınlaşdı. Tarixi iş gördüyünü söylədi, maraqlı film alınacağına inandığı dedi, Qədirin şıltaqlığına səbrini basdığına görə təşəkkür elədi, axırda "Sizə uyğun bir axşam hamınızı qonaq dəvət eləyirəm" dedi. Anar qonaqlıq təklifinə görə minnətdarlıq etdi, vaxt darlığından gileyləndi.

Şuşanın İstirahət evi bir vaxtlar Bəhmən Mirzə Qacarın (Fətəli şahın nəvəsi, Abbas Mirzənin oğlu, Azərbaycan hakimi və taxt-tacın varisi) mülki olmuş böyük ərazidə yerləşirdi. Bağ Qala divarlarına qədər uzanırdı. Hərdən Qala divarına çıxar, Qarabağın üfüqəcən uzanan genişliyinə tamaşa edərdim. İndi də hərdən gecələr yuxum ərşə çəkiləndə xəyalən o divara dırmaşır, quş kimi özümü o sonsuzluğa atıram, uçuram, beləcə yuxuya keçirəm.

…O yay dayımla aramda qəribə münasibət yarandı. Mən onun ağlına, savadına, oxuduğu kitablara, camaat arasında hörmətinə, o yerlərin tarixinə aid bilgisinə məəttəl qaldım.

Atamla bu şəkli həmin yay elə İstirahət evinin həyətində çəkdiriblər. Həmin gün bir az tez gəlsəydim, indi bu fotoda mən də olardım. Mən gələndə fotoqraf getmişdi.

Dayımı Salmanoğlu Sabir çağırırdılar. Daha yaşlıların ona Dəmirçioğlu dediklərini də eşitmişəm.

Tağı bəyin oğlu Dəmirçi Salman mənim ana babamdır. O, Ağdamın məşhur dəmirçilərindən olub. 1960-cı illərdə Ağdam məscidini də bağlayıb anbara çevirmək istəyirmişlər. Babam 41-45 müharibəsində aldığı döyüş medallarını da taxıb birbaşa raykom katibinin yanına gedib, Bakını, Moskvanı bir-birinə qatacağını deyib, məscidin açılmasına nail olub. O vaxt Ağdamda birinci katib işləmiş Nadir Abbasov sonralar babamın yasında danışırmış bunu.

Ağdamın 1 may günlərində adətən paraddan sonra dayımgilə yığışardıq. Bütün qohum-əqrəba bilirdi ki, onlarda böyük süfrə açılıb. Yaz göyərtilərindən kətə, sac qovurması, manqalda kabab, tüstülü samovar… O məclislər ayrıca bir söhbətin mövzusudur, qalsın başqa vaxta.

Durub getməsəm, bu foto hələ məni çox danışdıracaq. Səki dayımın doğum gününə təbrik yazmaq istəyirdim, foto huşumu apardı. Axı 1 may Salmanoğlu Sabirin 90 illiyidir.

Durum hazırlıq görüm…

Aprel-may 2020-ci il

# Gəncəsər xatirələri

Vəngdən üzüaşağı Koladağadək (biz ona Koladay deyirdik) uzanan yaşıl meşənin Damğanlı kəndilə Turşsu bulağı arasındakı yolun üstündə böyüklərimizin qurduğu çadır alaçıqların əl içi kimi göründüyü yerində “qala” quranda uzaq 1975-ci ilin qızmar Qarabağ iyulu idi. Biz – bir dəstə uşaq ulu nənə-babalarımızın da yaylamağa gəldiyi Kolatağ meşələrində ən “strateji” yerin kol-kosunu təmizləyib, torpağından “qala” düzəldəndə, ağac budaqlarından cürbəcür silahlar qayıranda, çəpər çəkib “hərbi” düşərgə salanda, bir gün üzüyoxuşa – Gəncəsər kilsəsinə, o biri gün üzüyenişə – nənəmizin çadırına ərzaq dalınca gizli “hərbi yürüşlər” edəndə hələ heç “Rembo” filmi çəkilməmişdi.

Qədim Alban kilsəsini bir həmləylə “alırdıq”, amma “saxlaya” bilmirdik. Çünki onun ən hündür yerinə, vaxtilə zəngi sallanan, bizi görüb perikən yüzlərlə göyərçinin yuva qurduğu hissəsinə çıxmaq olmurdu. Heç kilsənin yarıqaranlığında ziyarətçilərin ortası yonulmuş qalın daş sandıqçaya atdığı qəpikləri də götürmürdük. Olmazdı. “Qənimətsiz” kilsəyə maraq tez itirdi və biz zirvəni yenidən “fəth” etmək üçün oranı “döyüşsüz” tərk edirdik. Beləcə, ona yiyə durmurduq. Çox sonralar dərk edəcəkdik ki, tarixi abidələr gözəl qadın, qiymətli zinət kimidir, sən yiyə durmasan, başqası mütləq sahib çıxacaq.

Alaçığa girib torbaya ərzaq yığmaq asan idi, çətini “trofeyi” çadır şəhərciyindən (sonralar buradakılar başqa bir çadır şəhərciyinin də sakini oldular) “hərbi düşərgə”yə daşımaq idi. Bir qayda olaraq hücum nənənin çadırına edilərdi, çünki onun qapısı yiyəsinin qəlbi kimi açıq, geniş idi. Digər çadırlardan fərqli olaraq ora “qorunmurdu”. Amma çıxanda bir neçə çadırın qapısı ağzından, çoxsaylı güdükçü gəlinlərin yanından keçmək lazım gəlirdi. Təcrübəli kəşfiyyatçılar bu işi yaxşı bacarırlar.

Hərdən Damğanlıya “sülhməramlı” səfər edirdik. Kənd bizə döyüşsüz “təslim” olurdu. Tay-tuş erməni oğlanları bizə nifrət etsələr də, “qalib ordunun” əsgərlərinə yol verirmiş kimi geri çəkilirdilər. İçimizin ən böyüyü olan dayıoğlu Elşənsiz bu kəndə girməzdik. Onlar Elşən olanda bizdən, biz də Elşən olmayanda onlardan çəkinirdik.

Cibimizə bir-iki manat girən kimi ədəb-ərkanla dükana gedirdik, özü də hərbi yürüşlərimizdəki taxta atlarla yox, məftil maşınlarla. İndinin diliylə desək, ən “full” maşın pensilin şüşəsindən düzəldilən gecə faraları olan idi. Əynimiz-başımızı da qaydaya salırdıq, axı bulaq başında göz vurub qaş oynatdığımız erməni qızlarının kəndinə gəlirdik.

Bütün bu hərbi yürüş və sülhməramlı səfərlər bizim düşərgəmizdə böyük bir süfrəylə nəticələnirdi – kilsədən kəndəcən yerləri fəth edənlərin süfrəsi. Burada nə yox idi? Ləmbəran qarpızından Əsgəran limonadınacan, soyutma Xocalı kartofundan “Sport” peçenyesi, “Barbaris”əcən, hərdən lap toyuq qızartmasından Spanakert (Stepanakert) dondurmasınacan. Əsl fateh süfrəsiydi.

Şənbə-bazar günləri gur keçirdi. Şəhərdən xeyli qohum-əqrəba, dost-tanış gəlirdi. Hamısı da maşın dolu ərzaqla. Qarpız-yemiş üst-üstə taya qurardı. Ehtiras bolluqdan yaranır – az olmayıb üzüaşağı qarpız diyirlətməyimiz.

Samovar tüstülənir, ocaq qalanır, manqal közərirdi.

Kənar adam olmayanda bir böyük süfrə, meşəbəyi Şahin kirvə və bu sayaq yad adamlar gələndə isə üç süfrə açılırdı: kişi, qadın, uşaqlar üçün. Danışırdılar ki, Şahin kirvə bir dəfə meşədə ayı ilə qarşılaşıb, onu öldürüb. Bəlkə də beləydi, bəlkə də uzun illər boyu buraları yaylağa çevirən müsəlman türklərin hər gəlişindən pəjmürdə olan ermənilərin onu çox güclü igid kimi əfsanələşdirmək istəyindən irəli gəlirdi – “Bizim Şahin on kişiyə cavab verər, o, meşədə ayı boğub!”.

Sahin kirvə süfrəyə əliboş gəlməzdi. İxtiyarında olan ucsuz-bucaqsız meşədən cürbəcür heyvan, çaydan torba dolu forel gətirərdi. Əlbəttə, çuxasından tut arağı da çıxardı. Onun gətirdiyi çay balığını həvəslə yeyirdim. Çünki biz balıq tuta bilmirdik. Çarşabı düşəndə utandığından tumanını başına keçirən məşhur filmin qəhrəmanı Gülçatay kimiydi Xaçınçayın balıqları. Çayın suyu o qədər duruydu ki, balıqlar bu aydınlıqda eybi görünürmüş kimi dəli sıçrayışla ya lilə girib suyu bulandırır, ya da daşlar arasında gizlənirdilər.

Bir dəfə meşəbəyi Şahin əlik gətirmişdi. Ceyrandan balaca, quzudan bir azca böyük əlik. Özü soydu, özü bişirdi. O gündən ona da, onun kürən atına da, həmişə heyrətlə baxdığım beşatılanına da nifrət etdim. Neçə müddət idi uzaqdan, meşədəki “düşərgəmizdən” hər gün eyni vaxtda, çayın eyni yerində su içməyə gələn bir əliyi seyr edirdim. Ürkək baxışları, titrək ayaqları vardı. Onunla aramda indiki internet çatlarındakı virtual sevgiyə bənzəyən xüsusi münasibət yaranmışdı. İndi içi atam qarışıq bir dəstə kişi bəlkə də həmin balaca əliyi yeyirdilər. Bu, həyatımın ilk “qanlı” süfrəsi oldu. Həmin gecə nənəmin çadırındakı nikolaydanqalma dəmir çarpayıda gözüyaşlı yuxuya getdim.

Səhər yerimdən duranda üz-gözüm nəm idi. Amma bu, göz yaşının nəmi deyildi. Gecə yağış yağmışdı. Mənim üçün alaçığın brezent tavanını döyəcləyən yağış damlalarının çıxardığı səsdən doğma təbiət səsi yoxdur. Bu bir damla yağış suyu çadırın sıx iplərindən keçərək min yerə parçalanıb üzümə nəmlik çiləmişdi. Mənim növbəti qarabağlı xöşbəxt səhərim beləcə açılırdı…

Amma bu açılan sabahlarda o əliyi bir də görmədim...

Avqust 2015

## Sevgilisinin məktubunu saxladığım şəhid

Köhnə yazıların içindən 28 il əvvəl, 1991-ci ilin avqustunda yazdığım bir məqalə tapmışam. Zərdabın ilk Qarabağ şəhidi Samir Abdullayevin yas yerindən reportaj da demək olar bu yazıya.

Yadıma gəlir, yazı dərc olunanda xeyli oxucu məktubu almışdım. Onda adamlarn şəhidlərə həssas olan vaxtlarıydı. O məktubların içində birini xüsusi xatırlayıram, az qala hər sətri yadımdadır – oxuyanda ətim ürpəşmişdi, neçə gün havalı gəzmişdim.

Sən demə, Samirin hələ heç anasına belə söz açmadığı sevdiyi bir qız varmış. Bir-birlərini gizli sevirmişlər. Məktub o qızdan idi. Onun sözləri Samirin yas yerində eşitdiyim anasının naləsi qədər yanğılıydı.

Sonra taleyi necə oldu o qızın? Bilmədim!

Sevgilisi şəhid olan qızlar ilk sevdalarını qəlbin xəlvəti guşəsində hər kəsdən gizli saxlayır, qoruyurlar! Ərlərindən, uşaqlarından, nəvələrindən belə.

Üstündən az qala 30 il keçir. Adamı sıxan, əzən odur ki, lənətəgəlmiş müharibə hələ də bitməyib. Hələ də oğullar şəhid olur, sevdalı qızlar xəlvəti göz yaşı axıdırlar.

Yazını sevgiləri nakam qalan şəhid oğlanlar və onlar üçün göz yaşı axıdan qızlara ehtiramla dərc edirəm.

20 yanvar 2019

P.S. Samirin şəkillərini tapmaqda mənə kömək etdiyi üçün yazıçı Əzimə Ağalarovaya minnətdaram.

## Bu dünya dəyməz göz yaşlarına

Bir illik jurnalist həyatımda ilk ezamiyyət səfərim Zərdaba oldu. Bu səfərin qəribəliyi ondadır ki, ömrümdə ilk dəfə torpağımız uğrunda həlak olmuş bir gənc haqqında yazı hazırlamalıydım. Özü də mənimlə yaşıd olan. Oxucu bəlkə də bunun fərqinə varmaz, amma məndən ötrü yaşıdımın ölümü haqda yazmaq çox çətindir. Bu o deməkdir ki, “mənim də nəslimin yapraq tökümü başladı” – yəni biz, 60-cı illərdə doğulanlar da ölə bilərmişik (axı biz ölüm qorxusundan hələ çox uzaq olmalıydıq).

Hər şey iyulun 17-də Kəlbəcərin Sarıyer yaylağında erməni gülləsinə tuş gələn Samir Abdullayevin anası Şükufə ananın ürək parçalayan fəryadından başladı. Bu səsdə qəzəb kövrəkliyə, nifrət kədərə, boğazında düyünlənən “Oğul” sözü “Allah” kəlməsinə qarışıb bayaqdan birtəhər dözüb saxladığım soyuqqqanlığı parşa-parça əridirdi. Ilk anlar özümü itirdim, hardan gəldiyimi, niyə gəldiyimi də bilmədim.

Az qala saç ağardacaq bu ana naləsi yuxarıdakı otaqların birindən gəlirdi. Ona görə də mən Şükufə ananı görə bilmədim. Ancaq görmək istəyirdim. Beynimdən ixtiyarsız fikirlər keçirdi. Bir ara elə bildim ölən mənəm, bu səs məni deyib belə sızlayır. Çəkilib bir küncdə öz

ölümümə baxırdım. Yuxarıda da anam məni ağlayırdı. Bir də nədənsə şirin görünən ölümümə sevinirdim, ancaq bircə bu səsə yazığım gəlirdi.

Nəhayət, dərk etdim ki, ölən mən deyiləm, məni ağlamır bu səs. Səsdən qulaqlarıma qəribliyin, oğulsuzluğun ürək dağlayan göynərtisi süzülürdü. “Vay oğul… ay allah… ay oğul”. Yuxarı yüyürüb Şükufə anaya az qala demək istəyirdim: “Köynəyindən keçir məni, ana, oğlun olum”. Ancaq buna da gücüm çatmadı, heç nəyə gücüm çatmadı, ağlamağa da. Tənha və tənhalığıyla da ulu səslənən bu fəryad yeri-göyü lənətləyib nəfəsiylə dünyanı yandırmağa hazır idi. Amma dünyanı yandırmadı. Eləcə yavaş-yavaş dörd ildən bəri oğul deyib haray çəkən başqa ana səslərinə qarışırdı…

Samir 1969-cu ildə doğulub. Dərdi hələ dörd yaşındaykən yaşamışdı – atasını itirəndə. 1986-cı ildə orta məktəbi bitirib tələbəlik sevincini də dadmışdı. Iki il əvvəl əsgərlikdən qayıdanda şad-xürrəm qoyub getdiyi vətəni pərişan, qayğılı gördü. Vətənin başına göydən dərd ələnirdi. Və bu dərd onu Mərdəkan milis məktəbinə apardı. Apardı ki, milis olub vətəni qorusun… Milis oldu da…

Ağlamaqdan gözləri şişmiş əmisi Amin Abdullayev əlinin arxasıyla gözünü silə-silə deyirdi: “Milisə təzə keçmişdi. Kəlbəcərə gedəndə dedim, qoy rəisdən xahiş edim, hələ getmə. Bir də təzəydi, axı. Dedi ki, getməliyəm, Zərdabda gəzəndə utanıram”.

Getdi. Getməyi utanmaqdan üstün tutdu. Əvəzində bizi, elə məni utandırdı. Axı mənim ondan artıqlığım nədi ki, o vəzifəsini ölümlə tamamladı, mən də bu ölümü soyuq kağıza yazmaqla.

Tərcümeyi-halında “1991-ci ilin iyul ayından post patrul xidməti bölmə komandiri təyin edilmişdi” sözlərindən sonra təkcə nöqtələr qalır. Bu nöqtələrin yerinə neçə-neçə acılı-şirinli ömür sətirləri yazıla bilərdi. Ancaq yaşanmamış ömür yerinə ölüm yazılmışdı. Ana ürəyini parçalayan, sevgili göz yaşını qurutmayan ömur.

Samirgilin həyətindən çıxanda Şükufə ananın naləsi hələ də Allahın ətəyinə uzanırdı. Mən gedirdim, ancaq bu ananın xəbəri yoxuydu. Hec gəldiyimi də bilmədi. Bəlkə də bu qadın hec vaxt bilməyəcək ki, o fəryad qoparan gün bir oğlan gəlmişdi və o oğlan həyatında ilk dəfə tanımadığı bir anaya oğul olmaq istəmişdi…

Şəhər xəstəxanasında hadisə yerində yaralanmış Araz Məmmədovla Eldəniz Gülməmədov müalicə olunurlar. Onlarla görüşüb hadisəni danışmalarını xahiş etdim.

Araz Məmmədov:

*Sarıyel yaylağında postda olan yoldaşları əvəz etməyə getmişdik. Elə təzəcə sürülərə nəzər yetirib çobanlarla söhbət edirdik. Yamacdakı qoyun-quzuya baş çəkmək üçün maşınla üzüyuxarı çıxırdıq. Üçümüzdən savayı yamacda heç kim yox idi. Düşüb xeyli aralanmışdıq... Birdən qarşıdakı təpədən 15-ə yaxın erməni çıxdı. Onlar hərbi geyimdəydilər, əllərində avtomat, qranatamyot, plemyot vardı. Məndə bir avtomat, Samirgildə isə ancaq tapançaydı. Xeyli aralıdan onlarla danışırdıq. Deyirdilər ki, sərhədimizi qoruyuruq. Elə maşına qayıdırdıq ki, atmağa başladılar. Üçümüz də yerə uzandıq. Samirgilə dedim atmasınlar. Çünki ermənilər tapança ilə silahlandığımızı bilib bizi mühasirəyə də ala bilərdilər. Avtomatdan atəş aça-aça geriyə çəkilmək istəyirdik. Onların silahlarından başımıza od yağırdı. Sağ ayağımdan yaralandım. Özümü birtəhər sürüyüb qamışlığa saldım. Ürəyim Samirin yanında qalmışdı. Axı, o, bizdən cavan idi, özü də dəliqanlı olduğunu, həm də döyüşə ilk dəfə girdiyini bilirdim. Birazdan atışma dayandı. Sonra iki erməninin Samir tərəfə yaxınlaşdığını gördüm. Avtomat*

*islanmışdı, fikirləşdim ataş açsam yerimizi yəqin edərlər. Dünya bir anda gözümdə heç nəyə döndü. Tətiyi çəkdim, ataş açıldı. Onların biri yerə sərildi. O birisinin isə ölüb-ölmədiyini bimədim. Amma yaralanmışdı… sonra bildim ki, onlar Samirin meyitini aparmaq istəyirmişlər.*

Eldəniz Gülməmmədov:

*İnad edirdim ki, Samir geri çəkilsin. Ancaq o, əlindəki tapançayla hücum da etmək istəyirdi. İnan, bəlkə avtomatı olsaydı… Neyləmək olardı axı? Tapança ilə yaxşı silahlanmış düşmənə batmaq mümkün deyil. Ancaq nə qədər çox olsalar da istədiklərini edə bilmədilər… Samir geri çəkilmirdi. Elə hey atırdı. Birdən tükürpədici səs eşitdim. Samirin başı qana boyanmışdı… Qolumdan yaralanmışdım bərk incidirdi. Öz vəziyyətim bir yana, Samirin yıxılmağı, qamışlıqdakı Azərin, arxadakı köməksiz çobanların halı az qalırdı ürəyimi çatlatsın. Təklənmək nə pis şeymiş… Samir ölməməliydi. Axı günah kimdədi? Ona güllə atan ermənidə, yoxsa onu bir tapançayla təpədən dırnağa qədər silahlanmış düşmən üstünə göndərənlərdə? Bəlkə də günah elə hamımızdaydı!*

Eldəniz danışdıqca iri gözləri daha da böyüyürdü. Bu qəzəbli gözlərin dərinliyində məsumluq da vardı. Elə hey təkrarlayırdı: “Tapança ilə neyləmək olar, axı?!”

Elə xalqımızın böyüklüyü də ondadır, yeri gəlsə, tapança ilə də vuruşur zirehli düşmənlə, lap boş əllə də. Ancaq bir həqiqət də var: niyə qardaşlarımız düşmən silahı yanında quşatana oxşayan tapançayla dirigöz ölümə getsinlər?

Xəstəxanadan çıxanda da, sonra Zərdabdan geriyə dönəndə də bir sual məni rahat burxmırdı. Görən oğulların dörd ildə axıdılan qanını almaq bizə qismət olacaqmı?

Şükufə ananın səsi hələ də qulaqlarımdan getmirdi. Bu səs Qarabağı, bütün sərhəd rayonlarımızı dolaşmaqdaydı sanki. Orada öz oğlunun ruhunu əzizləyirdi, beşik başında əzizlədiyi kimi. Axı, Samirin, eləcə də dörd ildə düşmən gülləsindən ölənlərin ruhu bu dağları gəzməkdədir. Bu yerlərin göyüzündə fəryad qoparan ruhlar ana haraylarına qovuşurlar.

… Artıq dördüncü ildir ki, Azərbaycanın Qarabağ ünvanlı torpağı ruhlar oylağına çevrilib. Oğulların narahat ruhlarını şad etmək bizim borcumuzdur, Samir və onun kimi yüzlərlə el oğullarının “ruhu qarşısında baş əyirik” demək məncə azdır… çox az!

“Ədalət” qəzeti, 8 avqust 1991

# 17 yaşlı Anarın 40 yaşına

Sizə bir oğlandan danışmaq istəyirəm. Əliyev Anar Akif oğlundan. Bu ad sizə heç nə demir. Tanımırsınız.

Anar mənim dayım oğludur. Amma həm də oğlum kimidir. Deyərsiniz, necə yəni! Məsələnin qəribəliyi onda deyil ki, cəmi səkkiz yaş böyüyəm ondan, adam səkkiz yaşda ata olmur. Qəribəlik mənim ona bağlı duyğumdadır.

Atalıq yaşa yox, o duyğunu bəslədiyin adama bağlıdır. Məsələn, atam onu ölümə aparan xəstəliyə tutulanda yerimiz dəyişdi, daha atam yox, oğlum oldu. O, ərköyün oğul, mənsə narahat ataydım. Ona yönəlik bütün qərarları mən verirdim, ata kimi.

Anara atalıq duyğum isə bir başqa cür idi. Bu sirli hissi onun adqoyma mərasimində yaşadım. Onda bu hissin adını bilmirdim, sadəcə üstündə sonacan anlamadığım məsuliyyətim olacaqdı elə bil.

Qoy tarixçəni danışım, bəlkə, fikrimi daha asan izah edə bildim.

Demək, Anar doğulanda qohum-əqrəba nənəmgilə yığılmışdı. 1976-cı il, mayın 26-sı idi. Səkkiz yaşım vardı. Dayımın sevimlisi olduğumdan idi yəqin, dedi, adını Vahid qoyacaq. Ciddi bir tapşırıq almışam kimi, bir az tərəddüdlə qabağa çıxdım, amma çox fikirləşmədim.

“Xarlamov!” – dedim. Şaqqanaq çəkib güldülər. Yeni doğulan uşağa sovetin 17 nömrəli məşhur xokkeyçisi Valeri Xarlamovun adını qoydum. Uşaqlıq kumirim idi.

“Xarlamov familyadı, sən bir ad de”. Bir xeyli düşünüb “Anar”, – dedim. Anar həmin il biz Qubadlıda olanda dostlaşdığım qonşu oğlunun adı idi. Bəyəndilər, eləcə adı Anar oldu.

17 rəqəmin bir tilsimi vardımı?! Beş il sonra Xarlamov yol qəzasında öləndə ağladım.

İllər ötdü, onunla aramızda qəribə münasibət yarandı. Elə bil onun tərbiyə-təhsilinə mən də cavabdeh idim.

O, sakit, qaradinməz, adamayovuşmaz idi. Qapalıydı. Dalğın olardı çox vaxt, elə bil nəyisə düşünürdü. İndi ha fikirləşirəm, gülüşü yadıma gəlmir.

İnsanın qəlbinə yol onun yaşadığı hissləri duyub bölüşməyindən keçir. Səmimi bir ünsiyyətdən. Bəzən ünsiyyət adamın bütün başqa ehtiyaclarına üstün gəlir.

Mehrini nənəmə salmışdı. Onun nənəmə ürək qızdırması verdiyi suallardan, elədiyi söhbətlərdən görünürdü. Çoxlu sualları vardı.

Bir səfər Bakıdan gələndə nənəm mənə belə dedi: “Onu da apar sən gedən şəhərə. Qoy oxusun, o, ağıllıdı”. “Məktəbi qurtarsın hələ”, – demişdim. Az qalmışdı məktəbi bitirməyinə.

Ona Bakıdan danışırdım. Bulvarda qol-qola gəzən qızlardan, oğlanlardan, kinoteatrların arxa sıralarından, “Neftçi”nin oyununda qışqırıb bağırmağımızdan, yer altında metrodan, sanki əlləri Tanrıya uzanan telli trolleybuslardan, Xəzərin çimərliklərindən, İçərişəhərdən, gəmi gəzintisindən, bir sözlə, qaynar Bakı həyatından.

“Mən də getmək istəyirəm Bakıya, oxumaq istəyirəm”, – deyib arzularından danışırdı hər dəfə. Elə sənin, mənim arzumuz kimiydi onun da arzusu.

Bir yol eşitdim ki, məktəbdə bir qıza aşiq olub. Birbaşa soruşdum, aşiq olmusanmı, deyə. Adam da elə allanarmı, ilahi! Guya ayıb şeymiş – boynuna almadı!

Dünyanın ən kədərli sevgisi nakam sevgilər deyil, etiraf edilməyən sevgilərdir. Anar həyada biri yüz il qala öz sevgisini istədiyi qıza aça bilməzdi.

Sonra müharibə başladı…

Bir gün xəbər gəldi ki, Ala Yaqubun özünümüdafiə batalyonuna qoşulub. Məktəbi də, mənə danışdığı arzusunu da qoyub cəhbəyə gedib. Hamı onu dilə tutdu. Rəhmətlik Yaqub dəfələrlə “Çıx get, get dərsini oxu! Müharibə sənlik deyil”, dedi.

Hamımızın fağır, sakit, mağmın bildiyimiz Anar inadından dönmədi. Mən də xeyli dilə tutdum, oxumalısan, dedim. “Təsəvvür edirsən, Ağdama girsələr Xocalıda elədiklərinin on qatını edəcəklər?! Bakıya sonra gələcəm, müharibədən sonra. Paraxoda minərik”.

Axırıncı dəfə həyətində hamamı olan başqa bir dayımgildə gördüm onu. Ayrı rayonlardan gəlib batalyonunda döyüşən əsgər dostlarını çimməyə gətirmişdi. Gedəndə dayımdan soruşdu: “Əmi, olar hərdən dostlarımı gətirim yuyunsunlar?” “Gətir, qaqa, gətir, niyə olmur!”

Ağır illər idi. Müharibənin miqyası böyümüşdü, səngər davasına keçmişdi. Biz də kommunistləri devirib, milli hökumət qurmuşduq, böyük arzularımız, umudlarımız vardı. Amma Gəncədə qiyam qalxmışdı. Gecəni də işdə yatırdıq. Prezident Aparatında işləyirdim onda.

Bir gün anam zəng elədi. 1993-cü ilin 26 iyun günüydü. Onun ölüm xəbəri məni günün günortasında tutdu. Şok yaşamadım. Çünki neçə günün şoku canımdaydı, keyimişdim. Aləm qarışmışdı. Ölkə başçısı Bakını tərk edib getmişdi. Hökumət başını itirmişdi. Prezident Aparatına qəribə adamlar ayaq açmışdı. Ermənilər girəvələyib hər yandan hücuma keçmişdilər. Təzə başbilənlərimizsə Milli Məclisdə köhnə haqq-hesablarını çürüdürdülər. Ölkənin müharibə getməyən hissəsində adamlar parlament “razborkaları”nın tamaşasına durmuşdu, ciddi maraqla.

Azad cəmiyyət qurmaq istəyimiz də Anarın arzuları kimi yarıda qaldı.

Mən Anarın dəfninə gedə bilmədim. Qiyam xəyal-dövlətimizi artıq boğazlamışdı. Anarların hər gün on-on ölən günüydü.

Anarın ölümündən bir ay sonra Ağdam işğal olundu. Arzusu Bakıya getmək olan Anarın ömür yolu Xramord dağınacan çatdı, onu keçə bilmədi.

…O vaxtdan elə bilirəm, həm də onun yarım qalan ömrünü yaşayıram.

***

Bu gün sənin 40 yaşındı! Böyüyüb yekə kişi olmusan! Ruhun da böyüyübmü, görən? Mələk qanadlarınla cənnətin hansı bağında uçursan indi?! Bilirsən, səndən sonra Ağdamı qoruya bilmədik. Bakı da simasını dəyişdi, daha əvvəlki şəhər olmadı. Sənin təsəvvüründəki ala-bəzək şəhər yoxa çıxdı. Bombozdu, elə indi də!

Yarımçıq ömür olmur! Bütün ömürlər dolub bitir. Baxır adam bu ömrü nəylə doldurur. Sənin 17 yaşının boyu çox ucadı, elə 40 yaş boyda. Şərəflidir, ona görə!

Sən ölməmisən, sağsan, bizimləsən! Bir yerdəyik! Amma onu bilmirəm, sən mənim yanımdasan, ya mən sənin!

Nə isə, səhər açılır. Gözlədim açılsın, 40 yaşını təbrik edim! Mənim əziz oğlum, qardaşım, dostum Anar!

26 may 2016

# Sevgi düsturu

*Mübariz İbrahimova*

Qarabağın işğaldan qurtulması üçün hərbçilərin, siyasətçilərin, iqtisadçıların, hər kəsin öz düsturu ola bilər. Mənimsə əminliyim ondadır ki, Qarabağa zəfər yolumuz onu dəli bir eşqlə sevməkdən keçir.

Qarabağı sevməyi heç kimə qadağan edə bilməzsən, erməniyə də. Bu gün o, iki aşiqi olan gözəl kimidir.

Bu "aşiq-məşuq" davasında sevgisi daha çox olan udacaq!

Qarabağ onu daha çox sevənin olacaq!…

Qarabağı təkcə daş kimi, dağ kimi, meşə kimi, bulaq kimi yox, anan kimi, balan kimi, səni havalandıran yar kimi, Tanrın kimi – Vətən bunların hamısının məcmusudur – sevməklə alacaqsan! Sevənlər üçün "sevmək"lə "ölmək" iç-içə sözlərdir, sinonim kimi. Onların qarışığından İlahi Eşq yaranır. Vətən sevgisi həmin o İlahi Eşqdir. Yerdə qalanların pafos qarışığı var.

Vətəni sevmək Tanrıya obaşdan edilən duaya, şirin yuxu görən körpə balanın təbəssüm qoxuyan üzündən öpməyə, başını dizinə qoyduğun ananın titrək barmaqları ilə saçını qarışdırmasına, məsum bir qızın qəfil baxışından içində başlayan təlatümə bənzəyir.

Bütün sevgilərin bir səsi var – pıçıltı! Ana balasına laylanı, bəndə Tanrısına duanı, aşiq məşuquna sevgisini pıçıltı ilə deyir.

Bütün sevgilərin bir dili var – sükut! Sevgi dilə gətiriləndə bitir, dəyişib başqa şey olur. Gün işığı görən, aydınlaşmayan foto lenti kimi…

Mübariz İbrahimov Vətəni sevməyin düsturunu göstərdi. Heç kimə heç nə demədən, sevgisini dilinə gətirmədən, eləcə "…artıq ürəyim dözmür" yazdı. Sonra sakitcə durub Vətəni sevməyə getdi. Vətəni sevməyə gedənlər qayıtmır, o da qayıtmadı. Beləcə, İlahi Eşqə qovuşdu!

6 iyul 2011

# Qarabağ aynasında Azərbaycan

*Əhməd Ağaoğlunun "Xatirələr", Çəmənzəminlinin "Studentlər", Mehriban Vəzirin "Gövhər Ağa Cavanşir" kitabları üstündə Qarabağ düşüncəsi*

Sözün axırını əvvəl demək kimi çıxmasın ulu babam Şuşada qazı olub, yəni şəriət hakimi. "Qazıyev" soyadımız ondan gəlir. Şəcərəmizi babam Həbibin atası Əlişəcən bilirəm. Zəncir qazıda qırılır. Bəlkə də öz adıyla yox, vəzifə adıyla çağırırmışlar deyə qazının adı gəlib bizə çatmayıb.

Heç, Rusiyada oxuyub Qarabağa qayıdan oğlunun da adını bilmirəm. Yəqin onu da adıyla yox, "qazının oğlu" deyə çağırırmışlar. Bir onu eşitmişəm ki, çox içirmiş. İçdiyi arağın boş şüşəsinə baxıb belə deyərmiş: "O butulkanın dibində yataydım, bir də durmayaydım".

Mirzə Cəlilin "kefli İsgəndər"lərindən imiş.

***

Mehriban Vəzirin "Gövhər Ağa Cavanşir" tarixi romanı uşaq vaxtı hər məhərrəmlikdə gəlib imamın yeddisi çıxanacan bizdə qalan atamın yaşı illər görmüş əmisi Tiyqəli babanın söhbətlərini yadıma saldı. Sovet vaxtı Ağdam məscidi regionun fəaliyyət göstərən tək ibadət yeri olduğundan məhərrəmlikdə ətraf rayonlardan adamlar şəhərimizə axışardı. Tiyqəli baba da gündüzlər məscidə ibadətə gedər, gecələr yatmağa bizə gələrdi. Qazı babamız, onun oğlu haqda söhbətləri ondan, bir də atamdan eşitmişəm.

"Gövhər Ağa Cavanşir" Qarabağ xanlığının çiçəklənmə dövründən, süqutundan bəhs edir. Kitabı tarix səhifəsi kimi oxuyursan. İki od arasında – Rusiya ilə İranın basqısı altında qalan xanlığın ağır günlərində vəzir-vəkilin, molla-axundun tutduğu mövqe, dinin, təriqətin dağıdıcı rolu düşünüb təhlillər etmək üçün beyinə "yem" verir. Sədaqət və xəyanət, patriarxal ənənə və məhəbbət mövzuları da romanda şirin bir dildə yazılıb, sözüm bunda deyil.

Qəsdim romandan ədəbi tənqid stilində yazı yazmaq da deyil. Sadəcə, anlamaq istəyirəm, 58 il müstəqil ömür sürmüş bir dövlətin – Qarabağ xanlığının, Azərbaycan millətini təşkil edən qövmün ən ciddi ictimai-siyasi, sosial-mədəni qaynaqlarından birinin mövcud olduğu yerdə necə oldu adını dırnaqarasında yazdığımız "Arsax Respublikası" yarandı? Düşünürsən, cəmi iki yüz il əvvəl Azərbaycan türklərinin dominant olduğu Qarabağ, İrəvan xanlıqlarının ərazisində nə baş verdi ki, bu gün bir soydaşımız belə qalmayıb? Necə oldu ki, bu torpaqlarda Ermənistan adlı dövlət quruldu?

Səbəb Rusiyanın işğalı və onun Qafqazda strateji məqsədlə yürütdüyü siyasətdir! Strateji məqsəd Qafqaz Albaniyasının xristian varisləri yaşayan, abidələrin qalıqları hələ də duran yerlərə İrandan, Yaxın Şərq ölkələrindən erməniləri köçürmək, müsəlman türklər arasında özünün xristian forpostunu yaratmaq idi. İşğaldan dərhal sonra başladılan bu siyasət uğurla aparıldı, on minlərlə erməni ailəsi Qarabağ, İrəvan xanlıqlarının ərazilərinə yerləşdirildi. Yerli idarəetmədə üstünlük onlara verildi, ermənilər təhsilə, orduya, dövlət işlərinə cəlb olundu.

Rus işğalından başqa səbəb yoxdurmu?

Oxuduqca kitab səni bu suala doğru aparır. Suala birbaşa cavab almasan da əsər sənə yön verir.

Romanda bir cümlə var – "Molla Fərzəli beş yüz şişpapaq yeger polku ilə Qalaya girən Lisaneviçi duz-çörəklə qarşıladıqdan sonra komendantın yaxın dostuna çevrilmişdi".

Bu cümlə nə vaxtsa oxuduğum Əminə Pakrəvanın "Abbas Mirzə və Azərbaycan" əsərini yadıma saldı. Qacariyyənin (indi İran deyirik) İstanbul konsulunun qızı kitabında yazırdı ki, 1827-ci ildə Təbriz əhli general Paskeviçin qarşısında qurban kəsib, şəhərin axundu rusları duz-çörəklə qarşılayıb.

Dindar oxucular inciməsin, bir söz deyim! İllər ötdükcə, yaşa dolduqca əminliyim daha da artır ki, bizim tarixən zəmanədən geri qalmağımızın ən əsas səbəbi dinimizdir. Məhz dinimiz əsrlər boyu bizi amorf insan kütləsi (hümmət) halında saxlayıb, əvvəl özünü tanıyan etnos, sonra da özünü dərk edən millət olmağa qoymayıb! Din pərdəsində gizlənən "min hin yarmış" "din tacirləri"miz də bu ocağın körükçüləri olublar. Zavallı sadə möminlər özlərinə götürməsinlər bu sözümü, kiminsə könlünə dəymək istəmərəm!

Ulu babamı gözümün qabağında canlandırmağa çalışıram! Onun yaşadığı dövrü, ələlxüsus da onun təmsil olunduğu hakim zümrənin formalaşdırdığı mühiti təsəvvür etmək istəyirəm. Gördüyüm Şuşa yaddaşımda nə qədər işıqlı qalıbsa, göz önünə gətirməyə can atdığım o vaxtın Şuşası bir o qədər qaramat gəlir mənə. Niyə? Nə səbəbə?

Avropaya köçəndən, müsəlmanları, xüsusən də ərəbləri burada görəndən sonra inanmağa başlamışam ki, müqəddəs kitabında yazıldığı kimi islamın məhz ərəblər üçün göndərilmiş din olduğunu deyənlərin fikrini qəribçiliyə salmaq lazım deyil. İslama qorxu altında, zorla "gəlmişik", anlamadan, dərk etmədən qəbul etməyə məcbur edilmişik. Bizə boş yerə "qılınc müsəlmanı" deməyiblər ki. Nəticədə xalq kimi xarakterimiz də, psixikamız da, dünyadərkimiz də, ənənə-kültürümüz də dəyişib.

Din özü bir yana, təriqətlərin vurduğu sağalmaz zərbə "orbitdən çıxmaq" qədər sarsıdıcı oldu, nəhəng bir etnosu param-parça elədi. Bizi birləşdirən, qoruyan yox, ayıran, bölüb kültürlər içində əridən oldu.

Ağzıgöyçəklər sözümü yozmasınlar ki, Qarabağın, İrəvanın işğalında birbaşa dinimizi ittiham edirəm. Yox! Rus işğalının, siyasətinin əsəs səbəb olduğunu yazdım yuxarıda. Olsa-olsa onu torpağı qorumağa intellekti, təşkilatçılığı, hərbi qabiliyyəti yetərincə olmayan bir toplum formalaşdırmaqda qınamaq olar.

Bəli, xalq kimi mövcud forma almağımızda dinimizin, təriqətimizin həlledici rolu var! Hər toplum onu formalaşdıran insanların təfəkkürünün məhsuludur!

Fikrimi daha aydın izah eləmək üçün dünyanın mədəniyyət paytaxtı Parisin Sarbonna universitetində təhsil alıb Şuşaya maarifçi missiya ilə dönən Əhməd Ağaoğlunun 150 illiyi münasibətiylə təzəcə nəşr olunmuş "Xatirələr" kitabından seçmələr verim.

*"...Mənim anam Sarıcalı obasından idi. Tərəkəmə idilər. Balaca boylu, incə, zərif, həssas bir qadındı...*
*...Axundların, mollaların əcaib geyimləri, cübbə və nəleyinləri qətiyyən xoşuna gəlməzdi. "Bunlar hamısı hiylədir, aldadıcı şeylərdir, mən oğlumu elə görmək istəmirəm!"- deyərdi. Ürəyindən keçirdi ki, rusca oxuyum, çiyinlərimdə parlaq epoletlər daşıyım...*
*Anam bu işi necə gördü? Qonşuluqda yaşayan ixtiyar dayəsi Kərbəlayı Bahar nənə vasitəsi ilə bir erməni müəllim tapdı. O mənə Bahar nənənin evində, gizlicə rus dilində dərs verəcəkdi. Üç il bu qayda ilə davam etdi. Müəllim mənə hesab, tarix və coğrafiya dərsləri də verdi və hər*

*ayın sonunda anam nimtənəsinin ətəyinə tikilmiş rus imperiallarından birini qoparıb zəhmət haqqı kimi Kərbəlayı Bahar vasitəsi ilə ona göndərirdi. Nə atamın, nə də başqa heç kəsin bu məsələlərdən xəbəri vardı.*
*...Anam sonda öz istəyini həyata keçirəcək, yolumu Kərbəlayi-Müsəlladan, Nəcəfül-Əşrəfdən Peterburqa, Parisə çevirəcəkdi".*

Dövrü, mühiti təsəvvürünüzdə canlandıra bildinizmi?

İcazə verin, o kitabdan seçmələri davam edim:

*"...Şəhərimizdə (Şuşada – V.Q.) türklərlə ermənilər qarışıq yaşayırdılar. Ermənilər çoxdan rus məktəblərinə ayaq açmışdılar, orda təhsil alıb yerli rus idarələrini ələ keçirmişdilər və bizdən tamamilə fərqli tərzdə yaşayırdılar. Yadımdadır, yaşlı ermənilərin istər kişiləri, istərsə də qadınları bizim kimi geyinirdilər, bizim dildə danışırdılar, bizdən heç fərqləri yox idi. Amma yeni yetişənlər, gənclər tam başqa cür idilər. Bizim dildə danışmırdılar, geyimləri tamamilə fərqli idi, üstəlik də bizə yuxarıdan aşağı baxırdılar.*

*...Oxuduğum üçüncü sinifdə qırx beş şagirddən yalnız biri türk idi. Qalanların hamısı xaçpərəst idi. Amma xaçpərəst dediklərimin qırxı da tanıdığım, alışdığım erməni uşaqları olduğundan...".*

Yusif Vəzir Çəmənzəminlinin "Studentlər" romanını oxumusunuz? Neçə il əvvəl o romandan balaca bir yazı da yazmışdım. Oxumağı tövsiyyə edirəm. Bax, o kitabda belə bir abzas var, onu da yazıya gətirim cızmaq istədiyim mənzərəni tamamlasın.

*"Əvvəla, realni məktəb erməni məhəlləsində idi. İkinci, bütün hökumət müəssisələri də orada idi. Erməni məhəlləsi şəhərin abad bir yeri idi. Türk hissəsi qaranlıq və xərabə bir halda idi. Odur ki, biz hər gün erməni hissəsinə gəzməyə gedərdik. Yayda hər axşam bulvarda olardıq".*

Hər üç kitabdan verdiyim sitatlar 200 il, 150 il, 100 il qabağın söhbətidir.

Özüm şahid olduğum, 40 il əvvəl sovet Qarabağında gördüyümü də yazım, oxucu dostlarımı öz düşüncələriylə baş-başa buraxım.

Xatırlayanlar qoymaz səhv yazam, rəsmən Azərbaycan şəhəri olsa da Stepanakertdə (indi Xankəndi deyirik) küçə yazıları iki dildə olurdu – rus, bir də erməni. O şəhərdə Azərbaycan dilində tək bir yazı oxumuşdum – bir parkda zibil qutusunun üstünə "Zibil qabı" yazılmışdı. 1979-cu il idi, Brejnevin "Azərbaycan iri addımlarla irəliləyir" deyən vaxtlar idi, qırmızı bayraqlar dalınca Moskvaya, yağ, başqa ərzaq, sənaye malları almağa Ermənistana, Gürcüstana getdiyimiz vədələr idi.

Rus imperiyasının başladığı siyasət sovetlər dönəmində də davam edib, bu gün də davam edir.

Elə milli, sekulyar məfkurə daşıyıcısı ata-babaların 150 il qabaq başlatdığı xalqı cəhalət yuxusundan oyatmaq çabası da həmçinin...

***

Müstəqillik illərində "Qazıyev" soyadımdakı rusdanqalma "yev" sonluğunun basqısı ağır gəldi, illah da hər dəfə xarici ölkələrdə konfranslarda iştirak edəndə. Odur ki, 1999-cu ildə dəyişməyə qərar verib "ZAQS" idarəsinə getdim. Qadın əməkdaşla sözümüz bir balaca çəpləşdi. Dirəndi ki, soyad "Qazı" ola bilər, "Qazi" yox. Dedim, bir nöqtənin söhbətini edirsiniz? Uzun bir monoloq söylədim, qazıların yox, qazilərin ölkəsində yaşamaqdır arzum

dedim. Ömrümü belə bir ölkə qurmağa həsr etmək istəyirəm sayaq sözlər dedim. Yola gəldi sonunda. "Onda al, nöqtəni özün qoy" deyib, doğum haqda şəhadətnaməmi mənə uzatdı. Mən də "ı"-nın başına nöqtə qoyub "i" elədim. Beləcə soyadım "Qazi" oldu.

Amma dini cəhalətin əsrlər boyu yaratdığı dünyagörüşü maarifçi məfkurənin formalaşdırdığı dünyəvi topluma çevirmək "ı"-nın başına nöqtə qoyub "i" eləmək qədər asan deyil. Mirzə Fətəli Axundovdan başlayan proses 150 ildir bitmək bilmir.

Yazının başında ulu babamdan, onun qazı kimi təmsil olunduğu hakim zümrənin formalaşdırdığı mühitdən söz açdım. İndi oturub düşünürəm, şəriət qanunları ilə yaşayan, hökmlər kəsən biri niyə oğlunu, Əhməd Ağaoğlunun sözü olmasın, Kərbəlayi-Müsəllaya, Nəcəfül-Əşrəfə yox, Rusiyaya oxumağa göndərirdi? Onun bu qərara gəlməsinə səbəb nə idi? Qarabağda rusların, ermənilərin qarşısına mədrəsə təhsiliylə çıxmağın mümkünsüzlüyünü anlamışdımı?

Bəlkə nicatın dində yox, dünyəvi təhsildə olduğunu dərk etmişdi!? Odur ki, oğlunu qazı – şəriət hakimi yox, elm, bilik meydanında qazi görmək istəmişdi.

Oxuyub qayıtmışların cahil mühiti dəyişə bilməyib boş araq şüşəsinin dibində xəyal quran "kefli İsgəndər"lərə çevrilməsini isə cəhalətin şüurlara işləyən dərin köklərinə bağlayaq.

Qarabağın son iki yüzillik tarixinə bu üç kitabdan gözucu nəzər həm də bütün Azərbaycanın həmin dövr tarixinə baxışdır. Qarabağ güzgüsündə Azərbaycan da deyərdim buna.

Sözümün canı... Qazıların yox, elmdə, kültürdə, siyasətdə, hərbdə qazi olan kəslərin quracağı azad, ədalətli, Qarabağlı Azərbaycan arzusu, niyyətiylə yazdım bu yazını.

Bilmədim, deyə bildimmi demək istədiklərimi…

İyul 2019

# Atam məni Stepanakertə futbola aparmadı

Bir vaxtlar bütün şəhər yazıları erməni, rus dillərində olan, yalnız zibil qutusunun üstündə Azərbaycanca "Zibil qabı" sözlərini oxuduğum Stepanakerti yenidən himnimizin səsləndiyi, bayrağımızın dalğalandığı, stadionunda öz dilimizdə "Qarabağ" hayqırılan Xankəndi şəklində görmək ömrünün 30 ilini yurd nisgiliylə yaşamış mənim kimi adamlar üçün, xüsusilə, tarixi hadisədir!

Dünən Xankəndidə keçirilən "Qarabağ" – "MOİK" oyunu 1980-ci ildə elə həmin stadionda oynanılmış "Qarabağ" (Stepanakert) – "Neftçi" (Bakı) görüşünü yadıma saldı. İstədim, yerinə düşür, o xatirəni sizinlə də bölüşüm.

Həmin ilin yayında "Neftçi" Qarabağa yoldaşlıq görüşlərinə gəlmişdi.

Birinci oyunu Xankəndidə (onda Spanakert deyirdik) SSRİ çempionatının ikinci diviziyasında oynayan "Qarabağ"la keçirirdi.

Ağdam futbolsevərləri böyük coşğu ilə oyuna hazırlaşırdılar. Atam da dostları ilə yığışıb gedirdi. Nə qədər dil töksəm də məni aparmadı. "Ağdamda da oynayacaqlar, ona gedərik", – demişdi. Dilxor olmuşdum, incimişdim. Anam məni belə sakitləşdirdi: "Spanakertdə elə yerlərə uşaq aparmazlar. Ermənilərlə dava düşə bilər. Ona görə aparmadı".

Doğrudan da "Neftçi"yə 0:6 uduzan ermənilər aranı qatmaq istəyibmişlər. Amma məsələ yüngül söz atışmasından o yana keçməyibmiş.

"Neftçi" ikinci oyunu İmarət stadionunda "Şəfəq"lə oynayanda isə getdim.

Yaşlı adamlar "Stepanakert"in (o vaxt el arasında o komandaya "Qarabağ" deyildiyi yadıma gəlmir, hamı elə "Spanakert komandası" deyirdi) böyük hesabla məğlubiyyəti yanında "Şəfəq"in 0:1 uduzmasını qələbəyə bərabər hesab etsələr də, biz uşaqlar əsl qələbə istəyirdik.

Elə bilirdik ki, "Şəfəq"i Ağdamda heç Braziliya da uda bilməz. Bu, "Şəfəq"in Ağdamda gördüyüm ilk və son məğlubiyyəti oldu.

Mən arzuları inamdan qaynaqlanan adamam.

Bir vaxt xəyal etdiklərimi gerçəkdə görəndə xoşbəxt oluram. Əvvəlki feysbuk səhifəmdə 2011-ci ildə belə bir status da paylaşmışdım. Yeri gəldi onu da yazım:

"Təbrizin "Traktorsazi" komandası Ağdamın İmarət stadionunda yerli "Qarabağ"la ölkə çempionatının növbəti oyununa gələcək!" Xəyalpərəstliyim ölüncəyədəkdir".

Xəyaldır də arzuya çevrilir, inama güvənir!

***

Atam məni Stepanakertə futbola aparmadı, amma dünən Xankəndi oyununa getdim. Doğru sözümdür, mən də orada idim, atamla birlikdə baxırdıq, sevinirdik…

22 dekabr 2023